# Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2019-cu il ərzində gördüyü işlər haqqında

## HESABATI

Hesabat dövründə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 15 yanvar 2019-cu il tarixli, 472 nömrəli Fərmanına əsasən Mədəniyyət Nazirliyinin tabeliyindəki kitabxanalar ləğv edilmişdir. Fərmanın 2-ci bəndinə əsasən isə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində yeni, mütərəqqi və ölkənin bütün ərazisini əhatə edəcək kitabxana sisteminin yaradılması, habelə mədəniyyət və təhsil xidmətləri göstərən qurumların (mədəniyyət mərkəzləri, klublar, musiqi məktəbləri, rəsm qalereyaları və s.) fəaliyyətində səmərəliliyin artırılması məqsədilə Komissiya yaradılmışdır. Komissiyaya informasiya-kommunikasiya texnologiyalarının imkanları, habelə mövcud tələbat nəzərə alınmaqla, ölkədə kitabxana sisteminin yenidən qurulması, dövlət mülkiyyətində olan muzeylərin inventarizasiyasını apararaq, onların fəaliyyətinin optimallaşdırılması və daha təkmil muzey fəaliyyətinin təşkili, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi məktəblərinin inventarizasiyasını aparmaqla, onların fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə inzibati-ərazi vahidləri üzrə daha kompakt təşkili, mədəniyyət mərkəzlərinin, mədəniyyət evlərinin və klubların, rəsm qalereyalarının inventarizasiyasını aparmaqla, onların fəaliyyətinin təkmilləşdirilməsi, mövcud tələbat nəzərə alınmaqla, ölkənin inzibati ərazi vahidləri üzrə daha kompakt təşkili və xidmət səviyyəsinin yüksəldilməsi ilə bağlı təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tapşırılmışdır.

Eyni zamanda Fərmanın 7-ci bəndində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırılmışdır.

Fərmanın icrası ilə bağlı Azərbaycan Respublikası Mədəniyyət nazirinin əmrinə əsasən geniş tərkibdə işçi qrupları yaradılmış, ekspertlərin də iştirakı ilə sahələr üzrə layihələr hazırlanaraq Komissiyaya təqdim edilmişdir. Layihələr Komissiyanın iclasında müzakirə edilmiş bütün rəy və təkliflər nəzərə alınmaqla yenidən işlənərək Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmiş, ötən aylar ərzində bir sıra mühüm qərarlar qəbul edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən 2019-cu il ərzində incəsənət, teatr, musiqi, kino, təsviri sənət, tarix və mədəniyyət abidələri, kitabxana, muzey, xalq yaradıcılığı və qeyri-maddi mədəni irs sahələrinin inkişafı, həmçinin ölkəmizin milli mədəniyyətinin dünyada təbliği, tanıdılması istiqamətində müxtəlif beynəlxalq və respublika əhəmiyyətli forumlar, konfranslar, simpoziumlar, sərgilər, festivallar, mədəniyyət günləri və digər tədbirlər keçirilmişdir. Dövr ərzində həyata keçirilən tədbirlər, reallaşdırlan layihələr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mədəniyyət və incəsənət sahələrinin inkişafı ilə əlaqədar müəyyən etdiyi dövlət siyasəti, ölkə rəhbərliyi tərəfindən imzalanan fərman və sərəncamların icrası, qarşıya qoyulan vəzifələrin yeni dövrün tələblərinə uyğun yüksək səviyyədə yerinə yetirilməsinə xidmət etmişdir.

### İNCƏSƏNƏT

2019-cu il ərzində İncəsənət şöbəsi tərəfindən ölkəmizdə musiqi, teatr və təsviri sənət sahələrinin inkişafı, təbliği və milli incəsənətimizin dünyada tanıdılması naminə müxtəlif beynəlxalq və respublika əhəmiyyətli tədbirlər, sərgilər, festivallar, mədəniyyət günləri keçirilmişdir. Görülən tədbirlər, həyata keçirilən layihələr incəsənətimizin təbliği baxımından mühüm əhəmiyyət daşıyır.

**Musiqi**

Hesabat dövrünün 18 yanvar tarixində 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə bağlı Azərbaycan Dövlət Akademik Filarmoniyasında anım tədbiri keçirilmişdir. Tədbirdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri çıxış etmişdir.

2019-cu ilin 5-9 fevral tarixində Misir Ərəb Respublikasının Qahirə şəhərində keçirilmiş İslam ölkələrinin Mədəniyyət festivalında Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Festivalda Azərbaycan musiqiçiləri ilə yanaşı 20-ə yaxın islam ölkələrinin folklor musiqi kollektivi çıxış etmişdir.

2019-cu ilin 15 mart tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə dünya şöhrətli pianoçu, professor Bella Davidoviçin anadan olmasının 90 illiyinə həsr olunmuş konsert keçirilmişdir. Tədbirin solisti Bella Davidoviçin istedadlı tələbələsi, tanınmış amerikalı pianoçu Culiya Zilberkvit olmuşdur.

2019-cu ilin 5 aprel tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə opera müğənnisi, İtaliyada yaradıcılıq fəaliyyətini davam etdirən həmyerlimiz Azər Rzazadənin konserti keçirilmişdir.

2019-cu il 11-12 aprel tarixində Heydər Əliyev Sarayında Rusiyanın Azərbaycandakı Səfirliyi və “Kreml baleti” teatrının təşəbbüsü ilə SSRİ Xalq rəssamı Tahir Salahovun 90 illik yubiley tədbirləri çərçivəsində görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı Fikrət Əmirovun “Min bir gecə” baleti nümayiş olunmuşdur. Tamaşa Fransanın məşhur “Mezzo” telekanalı tərəfindən lentə alınaraq nümayiş olunmuşdur.

Tahir Salahovun dəvətinə əsasən dünya şöhrətli baletmeyster, görkəmli pedaqoq, professor Azari Plisetki 7-13 aprel 2019-cu il tarixində Bakıya səfər etmişdir. Səfər çərçivəsində baletmeysterin aprelin 12-də Nizami Kino Mərkəzində “Plisetskilər və Messererlər” nəsli haqqında kitabın və sənədli filmin təqdimatında, habelə aprelin 11-12-də Heydər Əliyev Sarayında “Kreml baleti” teatrının ifasında F.Əmirovun “Min bir gecə” baletinin nümayişində rəsmi qonaq qismində iştirak etmişdir.

2019-cu ilin 16-23 aprel tarixində Qırğız Respublikasının Oş şəhərində TÜRKSOY beynəlxalq təşkilatının təşəbbüsü və Qırğız Respublikası Mədəniyyət, İnformasiya və Turizm Nazirliyinin dəstəyi ilə “Oş-2019 türk dünyasının mədəniyyət paytaxtı” adlı tədbirin açılış mərasimi keçirilmiş, tədbirdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının 13 nəfərdən ibarət qrupu iştirak etmişdir.

2019-cu ilin 22-27 aprel tarixində Bakıda Heydər Əliyev Fondu, Mstislav Rostropoviç Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Akademik Filarmoniyası, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Heydər Əliyev Sarayı və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında X Beynəlxalq Mstislav Rostropoviç Festivalı keçirilmişdir.

Festivalda Rusiya, İsveçrə, Almaniya, İspaniya, ABŞ-dan dünya şöhrətli musiqiçilər və kollektivlər – Boris Eyfmanın Sankt-Peterburq Dövlət Akademik Balet Teatrı, “Mühchenklang Orkestri və Xoru, Lozanna Kamera Orkestri, tanınmış pianoçular Yefim Bronfman, Aleksandr Kantorov, skripkaçı Sergey Krılov, violonçel ifaçısı Pablo Ferrandez və başqaları iştirak etmişlər. Xarici musiqiçilərlə yanaşı Azərbaycan Respublikasının Xalq artisti Rauf Abdullayev, Əməkdar artist Fuad İbrahimov Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri ilə birgə çıxış etmiş, konsert proqramlarında L.V.Bethoven, Y.Brams, C.Verdi, F.Şubert, K.Sen-Sans, P.İ.Çaykovski, S.Raxmaninov, A.Skryabin, Q.Qarayev, N.Metner, Q.Forenin əsərləri səslənmişdir.

12 may 2019-cu il tarixində Monte-Karlo Opera Teatrında görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq Artisti, Dövlət mükafatı laureatı Fikrət Əmirovun yaradıcılığına həsr olunmuş konsert keçirilmişdir. Konsertdə Xalq artisti, professor Rauf Abdullayevin dirijorluğu altında Monte-Karlo Filarmonik Orkestrinin müşayiəti ilə Xalq artisti Alim Qasımov və dünya şöhrətli pianoçu Xatiya Buniatişvili çıxış etmişlər. Tədbir “Mezzo” telekanalı tərəfindən lentə alınaraq nümayiş olunmuşdur.

2019-cu ilin 10-13 may tarixində Sankt-Peterburq şəhərində TÜRKSOY beynəlxalq təşkilatının təşəbbüsü ilə türk xalqlarının musiqisindən ibarət konsertlər keçirilmişdir.

Tədbirlərdə Xalq artisti, Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin baş dirijoru Ağaverdi Paşayev və Əməkdar artist, tarzən Sahib Paşazadə iştirak etmişlər.

2019-cu ilin 15-18 may tarixində Çin Xalq Respublikasının Pekin şəhərində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Asiya Sivilizasiyasının Dialoqu Konfransı” keçirilmişdir. Tədbirin açılış mərasimi və karnavalında Azərbaycan sənətçiləri iştirak etmişlər. Qala konsertin proqramına Birləşmiş Simfonik Orkestrinin, habelə müxtəlif ölkələrdən dəvət olunmuş milli folklor və rəqs kollektivlərinin birgə çıxışları daxil edilmişdir.

2019-cu ilin 17 may tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq artisti, Prezident təqaüdçüsü, “Şöhrət” ordenli Roza Cəlilovanın 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir. Tədbirdə Azərbaycan Dövlət Rəqs Ansamblı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet artistləri, Bakı Xoreoqrafiya Akademiyası və “Xəzər” Universitetinin tələbələri, İran “Səhər” rəqs kollektivi, habelə “Asiman”, “Dəcəl qızlar”, “Azəri inciləri” gənc rəqs qrupları çıxış etmişlər.

Azərbaycan Respublikası Prezidentinin “Seyid Şuşinskinin 130 illik yubileyinin qeyd edilməsi haqqında” 4 fevral 2019-cu il tarixli, 923 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən 20 fevral 2019-cu il tarixli, 51 nömrəli əmr və Tədbirlər Planı hazırlanaraq təsdiq edilmişdir. Tədbirlər planına əsasən 29 may 2019-cu il tarixində Beynəlxalq Muğam Mərkəzində Seyid Şuşinskinin 130 illiyinə həsr olunmuş “Şuşanın muğam incisi” adlı yubiley gecəsi keçirilmişdir.

2019-cu il mayın 31-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə görkəmli bəstəkar, Xalq artisti, “Şöhrət” ordenli Oqtay Zülfüqarovun anadan olmasının 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2019-cu il 18-30 sentyabr tarixində Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı keçirilmişdir.

Bu ilki festivalda ABŞ, Rusiya, Çin, Türkiyə, İtaliya, Özbəkistan, Belarusiya, Bolqarıstan, Ukrayna, Gürcüstandan tanınmış musiqiçi və kollektivlər – Çin Xalq Respublikasının “Silk Road” Filarmonik Orkestri, Sergey Roldugin, Xatia Buniatişvili, Alyona Bayeva, Miroslav Kultışev, Sergey Doqadin, Filip Kopaçevski, Veliçka Yoçeva, Yevgeni Avramenko, Lorenzo Tazzieri, Dmitri Xoxlov, Aleksandr Hacıyev, Marqarita Aleksandroviç, Regina Rüstəmova, Cəbrayıl İdrisov, Giorgi Çelidze, Ümid İsrailov, habelə Azərbaycan sənətçiləri Rauf Abdullayev, Ülviyyə Hacıbəyova, Yeganə Axundova, Fəxrəddin Kərimov, Murad Adıgözəlzadə, Murad Hüseynov, Əyyub Quliyev, Mustafa Mehmandarov və başqalarının iştirakı ilə 40-a yaxın tədbir təşkil olunmuşdur.

Üzeyir Hacıbəyliyə həsr olunmuş XI Beynəlxalq Musiqi Festivalının proqramı ilk dəfə olaraq Fransanın məşhur “Mezzo” televiziya kanalında yayımlanmışdır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının rəhbərliyinin birgə təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan musiqiçilərinin iştirakı ilə silsilə konsertlərin davamı olaraq 25 sentyabr 2019-cu il tarixində Moskva Dövlət Konservatoriyasının kiçik zalında Almaniyada yaşayan həmyerlilərimiz – Cənubi Vestfal Simfonik Orkestrinin skripka ifaçısı Anar İbrahimov və Essen Şəhər Ali Musiqi Məktəbinin müəllimi, pianoçu Tamilla Quliyevanın iştirakı ilə konsert keçirilmişdir.

26 sentyabr 2019-cu il tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında Azərbaycan Respublikası Prezidentinin “Soltan Hacıbəyovun 100 illik yubileyinin qeyd edilməsi haqqında” müvafiq Sərəncamına əsasən Soltan Hacıbəyovun 100 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin birgə təşəbbüsü ilə 2019-cu ilin 11 oktyabr tarixində Heydər Əliyev Sarayında dünya şöhrətli “Beryozka” Akademik Rəqs Ansamblının, oktyabrın 13-də isə Azərbaycan Dövlət Akademik Filarmoniyasında Rusiya Federasiyasının Xalq artisti, görkəmli pianoçu Nikolay Luqanskinin iştirakı ilə konsertlər keçirilmişdir.

Cari ilin 21-26 oktyabr tarixində P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında “Moskva forumu” XVI Beynəlxalq Müasir Musiqi Festivalı keçirilmişdir. Festivalda Azərbaycan Dövlət Akademik Filarmoniyasının solisti, tanınmış tar ifaçısı, Əməkdar artist, Prezident mükafatçısı Sahib Paşazadə görkəmli bəstəkar, Xalq artisti, professor Fərəc Qarayevin “Xütbə, muğam və surə” əsəri ilə çıxış etmişdir. Sənətçini dirijor İqor Dronovun rəhbərliyi ilə “Yeni Musiqi Studiyası” orkestri müşayiət etmişdir.

25-28 oktyabr 2019-cu il tarixində Bəstəkarlar İttifaqının 85 illiyinə həsr olunmuş musiqi festivalı keçirilmişdir. Festival çərçivəsində Kamera və orqan musiqisi zalında orqan musiqisi və Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin konserti, Azərbaycan Dövlət Akademik Filarmoniyasında Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin konserti, Azərbaycan Bəstəkarlar İttifaqında “Son illərdə Azərbaycan musiqi mədəniyyətinin nailiyyətləri və perspektivləri” mövzusunda elmi konfrans, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında kamera konserti keçirilmiş, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Fikrət Əmirovun “Sevil” operası nümayiş olunmuş, R.Behbudov adına Dövlət Mahnı Teatrında Zabitlər Evinin “Sərhədçi” İnstrumental Ansamblının konserti və Azərbaycan Bəstəkarlar İttifaqında kamera-instrumental və vokal musiqisindən ibarət konsert təqdim edilmişdir. 28 oktyabr tarixində Heydər Əliyev Sarayında təşkil olunan bağlanış mərasimində Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor – F.Kərimov), Azərbaycan Dövlət Xor Kapellasının (bədii rəhbər – G.İmanova) və Azərbaycan Dövlət Televiziyası və Radiosunun C.Cahangirov adına Xorunun (bədii rəhbər və dirijor Ş.Ələkbərova) iştirak etdiyi konsert proqramı ilə yekun vurulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin “Hacıbaba Hüseynovun 100 illik yubileyinin qeyd edilməsi haqqında” 22 fevral 2019-cu il tarixli, 981 nömrəli Sərəncamının icrası məqsədilə Mədəniyyət Nazirliyinin 11 mart 2019-cu il tarixli, 77 nömrəli əmri və Tədbirlər planı hazırlanaraq həyata keçirilmişdir. Hacıbaba Hüseynova həsr olunmuş yekun tədbir 29 oktyabr 2019-cu il tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilmişdir.

Hesabat dövrünün 29 oktyabr tarixində Moskva Dövlət Konservatoriyasının Raxmaninov zalında Azərbaycan musiqiçilərinin iştirakı ilə konsert keçirilmişdir. Tədbirdə Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik Orkestrinin 15 nəfərlik heyəti və solist Fəridə Məmmədova çıxış etmişlər. Layihənin bədii rəhbəri Xalq artisti, professor Fərəc Qarayevdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi və Xalq artisti Fərəc Qarayevin təşəbbüsü ilə cari ilin 13 noyabr tarixində Beynəlxalq Muğam Mərkəzində və 15 noyabr tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında pianoçu Olqa Domnina (Rusiya) və skripka ifaçısı Maykl Qutmanın (Belçika) iştirakı ilə musiqi gecələri keçirilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə cari il dekabrın 13-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə konsert keçirilmişdir. Proqramda K.M.Veberin “Evrianta” operasına uvertüra, Y.Bramsın Haydn mövzusuna variasiyaları və skripka və orkestr üçün D-dur konserti səslənmişdir. Konsertdə məşhur skripka ifaçısı, Moskvada keçirilən XVI P.İ.Çaykovski adına Beynəlxlaq müsabiqənin laureatı Mark Buşkov iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Əminə Dilbazinin 100 illik yubileyinin keçirilməsi haqqında” 4 sentyabr 2019-cu il tarixli 1409 nömrəli Sərəncamının icrasının təmin edilməsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən 19 sentyabr 2019-cu il tarixli, 257 nömrəli Tədbirlər planı hazırlanaraq təsdiq edilmişdir. Tədbirlər planına uyğun olaraq cari ilin 16 dekabr tarixində Heydər Əliyev Sarayında Əminə Dilbazinin anadan olmasının 100 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında” 15 noyabr 2018-ci il tarixli 689 nömrəli Sərəncamının icrasının təmin edilməsi məqsədilə cari ilin 27 dekabr tarixində Heydər Əliyev Sarayında Xalq artisti Firəngiz Əlizadənin “Nasimi Passion” vokal-xoreoqrafik tamaşası nümayiş olunmuşdur.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xüsusi dəvətinə əsasən Sankt-Peterburq Balet Akademiyasının professoru, Rusiya Federasiyasının Xalq artisti Edvald Smirnovun quruluşunda təqdim olunan əsərdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı iştirak etmişlər. Habelə "Nəsimi poeziyası" adlı bədii qiraət müsabiqəsinin qalibləri Fərid Bağırov və Ağaəli Kərimzadə İmadəddin Nəsiminin qəzəllərindən parçalar səsləndirmiş, ilk dəfə olaraq bu tamaşada xor artistləri xüsusi qurulmuş elementlər əsasında rəqs etmişlər. Tamaşada böyük şairin obrazını gənc vokalçı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Taleh Yahyayev canlandırmışdır. Tamaşanın eskizləri tanınmış rəssam Nazim Yunusov tərəfindən hazırlanmışdır. Xüsusi qrafik elementlər, video instalyasiyalar, işıq effektləri, rəngarəng geyimlər ilə zəngin olan tamaşa bir ilk olaraq musiqisevərlərə təqdim edilmişdir.

**Teatr**

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının icrasını təmin etmək məqsədi ilə Mədəniyyət Nazirliyi tərəfindən Azərbaycan teatrının zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunması, bəşəri dəyərlərin təbliği, teatrların maddi-texniki bazalarının modernləşdirilməsi, informasiya və maliyyə resurslarından səmərəli istifadə edilməsi, günün tələblərinə uyğun repertuarın formalaşması istiqamətində məqsədyönlü layihələr həyata keçirilmişdir.

Mədəniyyət Nazirliyinin 2019-cu il üçün təsdiq olunmuş repertuar planına əsasən, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında V.Şekspirin "On ikinci gecə və yaxud hər nə istəsəniz", A.Tolstoyun "Buratino", Azərbaycan Dövlət Akademik Musiqili Teatrında A.S.Ekzüperinin "Balaca Şahzadə", V.Hüqonun "Paris Notr -Dama ithaf", Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında Elçinin "Şeytan əməlləri", B.Şounun "Millionçu qadın", C.Cabbarlının "Aydın", V.Səmədoğlunun "Yayda qar topu oyunu", Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında E.Şmittin "Tanrıya on dörd məktub", Şərq nağılları əsasında "Sindibad", C.Cabbarlının "Oqtay Eloğlu", Azərbaycan Dövlət Pantomima Teatrında B.Xanızadənin "Xocalı-bu olub", Dövlət "YUĞ" Teatrında V.Şekspirin "III Riçard.Lənət", Sumqayıt Dövlət Dram Teatrında C.Cabbarlının "Solğun çiçəklər", Qusar Dövlət Ləzgi Dram Teatrında R.Rəhimlinin "Sönmüş talelər" tamaşalarının premyeraları keçirilmişdir.

30 yanvar- 2 mart tarixində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Bəhram Osmanov Şimali Osetiya Dövlət Akademik Teatrında Ə.Əmirlinin "Varlı qadın" tamaşasını hazırlamışdır.

25-26 fevral tarixində Bolqarıstanın paytaxtı Sofiya şəhərində Xocalı faciəsinin 27-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə ölkəmizi Azərbaycan Dövlət Pantomima Teatrı Bəxtiyar Xanızadənin "Xocalı-bu olub" tamaşası ilə təmsil etmişdir.

Mədəniyyət Nazirliyi Azərbaycan Teatr Xadimləri İttifaqı ilə birgə 10 mart tarixində Milli Teatr Gününə həsr olunmuş "Boş məkanın dolğunluğu adlı" II Eksperimental tamaşalar Festivalı keçirmişdir.

UNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilmiş Novruz bayramı ölkə başçısının müvafiq Sərəncamına uyğun olaraq respublikada böyük təntənə ilə qeyd edilib. Hər il olduğu kimi bu ildə 19 mart 2019-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev geniş ictimaiyyətin iştirakı ilə Novruz bayramı şənliyində iştirak etmişdir.

Hesabat dövrünün 1-5 iyun tarixində Lənkəran şəhərində I Beynəlxalq Uşaq Teatrları Festivalı keçirilmişdir. Festivala Böyük Britaniya, Gürcüstan və İran İslam Respublikasından teatr kollektivləri qatılmışdır.

2019-cu ilin 1-7 iyun tarixində YUĞ Dövlət Teatrı Rusiya Federasiyasının Kazan şəhərində keçirilən Navruz Beynəlxalq Teatr Festivalında iştirak etmişdir.

Rusiyanın Y.Vaxtanqov adına Dövlət Akademik Teatrının nəzdində B.Şukin adına Teatr İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır.

Müqaviləyə uyğun olaraq 2016-cı ildə B.Şukin adına Teatr İnstitutunda azərbaycanlı tələbələr üçün xüsusi aktyor-rejissor kursu yaradılmışdır. Tədris prosesi zamanı tələbələr bir neçə tamaşa səhnələşdirmişlər. Cari ilin 24-27 iyun tarixində tələbələrin Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində “Sinif konserti” və “Qafqaz təbaşir dairəsi”, “Ezop” tamaşaları nümayiş olunmuşdur.

25 avqust-2 sentyabr tarixində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru, Əməkdar artist Şövqü Hüseynov ABŞ-ın Boston şəhərində P.Zyuskindin “Kontrabas” tamaşası ilə iştirak edib.

Cari ilin sentyabr ayının 23-dən 28-dək Qırğızıstanın Oş şəhərində VII Beynəlxalq “ART-ORDO-2019” Teatr Festivalında Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı gənc yazar Pərvin Nurəliyevanın “Mən öləndə ağlama” monotamaşası ilə iştirak etmişdir.

10-15 oktyabr tarixində Albaniyanın Elbasan şəhərində “Skampa-2019” Modern Teatr Festivalında Azərbaycan Dövlət Akademik Musiqili Teatrı Xalq artisti, professor Fərəc Qarayevin “Gözləmə” və Samuel Bekketin “Qodo həsrətində” əsərləri əsasında hazırlanmış “Qodonun intizarında” tamaşası ilə çıxış etmişdir.

30 oktyabr tarixində Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının Kamera səhnəsinin açılışı oldu. Açılış mərasimində Xalq artisti, prezident təqaüdçüsü Lüdmila Duxoxnayanın 75 illik yubiley gecəsi keçirilmişdir. Tədbirdə nazir Əbülfəs Qarayev L.Duxovnayaya “Şöhrət” ordenini təqdim etmişdir.

16-17 noyabr tarixində Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində Rusiya Akademik Malıy Teatrı Nikolay Vasilyeviç Qoqolun “Evlənmə” tamaşası ilə çıxış etmişdir.

Azərbaycan Respublikasının Prezidenti “Cəfər Cabbarlının 120 illiyinin qeyd edilməsi haqqında” 17 dekabr 2018-ci il tarixli 806 nömrəli Sərəncam imzalamışdır. Sərəncamın icrasını təmin etmək məqsədi ilə Akademik Milli Dram Teatrında C.Cabbarlının “Yaşar”, Akademik Rus Dram Teatrında “Aydın”, Gənc Tamaşaçılar Teatrında “Oqtay Eloğlu”, Şəki Dövlət Dram Teatrında “Sevil”, Lənkəran Dövlət Dram Teatrında “Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş”, Sumqayıt Dövlət Dram Teatrında “Solğun çiçəklər”, Gəncə Dövlət Dram Teatrında “Dönüş” tamaşaları dövlət sifarişi yolu ilə hazırlanmış və həmin tamaşalar 23-30 noyabr tarixində Bakı şəhərində nümayiş olunmuşdur.

Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqı ilə birgə 2-10 dekabr tarixində “2+1” adlı” III Eksperimental tamaşalar Festivalı keçirilmişdir. Festivalda Azərbaycan Dövlət Gənc Tamaşaçılar, Azərbaycan Dövlət Kukla, Qax Dövlət Kukla, Gəncə Dövlət Kukla, Qusar Dövlət Ləzgi, Ağdam Dövlət Dram, Qazax Dövlət Dram və Bakı Uşaq Teatrları çıxış etmişlər.

3 dekabr tarixində Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında YUĞ Dövlət Teatrının 30, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlunun isə 70 illik yubileyləri qeyd edilmişdir.

4 dekabr tarixində Şuşa Dövlət Musiqili Dram Teatrında Qusar Dövlət Ləzgi Dram Teatrı “Sevimli Sədəfim” tamaşası ilə çıxış etmişdir.

**Təsviri və dekorativ sənət**

Hesabat dövrünün 27 fevral-5 mart tarixində Azərbaycan Milli İncəsənət Muzeyində Azərbaycan Respublikasının Əməkdar rəssamı, tanınmış fırça ustası Rafael Abasovun 75 illik yubileyinə həsr olunmuş sərgi keçirilmişdir. Beynəlxalq sərgilərin iştirakçısı olan rəssam taleyini milli təsviri sənətimizin inkişafına, onun yeni nümunələrlə zənginləşməsinə həsr etmişdir. Rafael Abasov öz yaradıcılığında milli dəyərlərə, təsviri sənətimizin ənənələrinə daim sadiq qalaraq, sənət əsərləri ilə incəsənətimizin xəzinəsinə töhfələr vermişdir.

2019-cu il fevral ayının 15-də Muzey Mərkəzində Azərbaycan Respublikasının Xalq rəssamı Rafis İsmayılovun 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.

Gəncə şəhərindəki XIX əsr “Hüsniyyə” məscidinin interyerində Xalq rəssamı Toğrul Nərimanbəyov tərəfindən çəkilmiş divar rəsminin konservasiyası və bərpası işləri tamamlanmışdır.

12 aprel 2019-cu ildə Muzey Mərkəzində Azərbaycanın tanınmış heykəltəraşı, Əməkdar rəssam Münəvvər Rzayevanın 90 illik yubileyinə həsr olunmuş anım tədbiri keçirilmişdir.

Bolqarıstanın Sozopol şəhərində “Soley” 9-cu Beynəlxalq Frankofoniya Festivalı çərçivəsində xarici rəssamların iştirakı ilə keçirilməsi planlaşdırılan plenerdə Azərbaycan rəssamlarının təmsil olunmalarına dair ölkəmizin Sofiyadakı Səfirliyinin müraciətini, ənənəvi olaraq hər il təşkil edilən bu festivalda bir çox xarici ölkələrin rəssamlarının təmsil oldunduğunu nəzərə alaraq, ölkəmizin incəsənətinin tanıdılması və təbliği, gənc, istedadlı rəssamların yaradıcılığına dəstək məqsədi ilə rəssam Cəlal Ağayev və Elçin Hüseynli 2019-cu il 30 may-8 iyun tarixində Bolqarıstanın Sozopol şəhərinə ezam olunmuşlar.

Cari ilin 19-31 may tarixində keçiriləcən 21-ci TÜRKSOY Rəssamlarının Görüşündə ölkəmizi təmsil etməsi üçün gənc və istedadlı rəssam Pərviz Heydər oğlu Ələkbərli Qırğızıstanın Oş şəhərinə göndərilmişdir.

21 may tarixində Hilton Bakı otelində Azərbaycan Dövlət Rəsm Qalereyasının və "Auction Baku"nun təşkilatçılığı ilə incəsənət əsərlərinin ilk auksionu keçirilmişdir.

Eyni zamanda 14-28 iyun 2019-cu il tarixində “Baku Crystal Hall” Mətbuat Mərkəzində Azərbaycan rəssamlarının ilk Respublika satış sərgisi təşkil olunmuşdur.

2019-cu il noyabr ayının 6-dan 9-dək tanınmış Amerika və Rusiya rəssamı, heykəltəraş, Rusiya Federasiyası Dövlət Mükafatının laureatı Mixail Şemyakin Mədəniyyət nazirliyinin dəvəti ilə Bakıya səfər etmişdir. Səfər çərçivəsində rəssam Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında ustad dərsi keçirmiş, “YARAT” Müasir İncəsənət Məkanını, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrını, Azərbaycan Milli Xalça Muzeyini ziyarət etmiş və faydalı görüşlər keçirmişdir.

2019-cu il noyabrın 7-də Mədəniyyət Nazirliyi, “Auction Baku” MMC və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə “Hilton Baku” hotelində incəsənət əsərlərinin növbəti auksionu təşkil olunmuşdur. Bu il ikinci dəfə keçirilən auksion respublikada mədəniyyət və incəsənət sahəsində biznes münasibətlərini inkişaf etdirmək, alıcı və satıcılar arasında əlaqə qurmaq, art biznes sahəsində rəqabət qabiliyyətini gücləndirmək məqsədilə təşkil olunmuşdur.

2019-cu il noyabrın 21-də Muzey Mərkəzində “Alüminium” VI Bakı Beynəlxalq Müasir İncəsənət Biennalesinin rəsmi açılış mərasimi keçirilmişdir. Biennale çərçivəsində “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunda Mədəniyyət Nazirliyi və Azərbaycan Rəssamlar İttifaqının təşkilatçılığı ilə gürcü rəssamlarının performansı keçirilib. Azərbaycanda artıq altıncı dəfə keçirilən layihədə 17 ölkədən 40-dək rəssamın müxtəlif performans və instaliyasiyaları nümayiş olunub. “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğunda Gürcüstanlı rəssam Zaira Nadirashvilli performans nümayiş etdirib. Norveçdən olan iştirakçı Eli Gladerin video və Katarzyna Podqoska Qlontinin instaliyasiyaları tamaşaçıların marağına səbəb olub. “Alüminium” VI Bakı Beynəlxalq Müasir İncəsənət Biennalesi noyabrın 25-dək davam etmiş, layihə üzrə müxtəlif məkanlarda sərgilər, təqdimatlar təşkil olunmuşdur.

Hesabat dövrünün dekabr ayının 16-dan 26-dək Milli İncəsənət Muzeyində Xalq rəssamı Nadir Qasımovun 90 illik, dekabr ayının 20-dən 27-dək isə Muzey Mərkəzində Xalq rəssamı Kamil Nəcəfzadənin 90 illik yubiley sərgiləri keçirilmişdir. Hər iki yubiley səgisi bir daha milli təsviri sənətimizin korifeylərinin yaradıcılığı ilə tamaşaçıları tanış etməyə imkan yaratmış, onların unudulmaz əsərləri gənc sənətşünaslar və mədəni ictimaiyyətimizin nümayəndələri tərəfindən təşviq olunmuşdur.

**Dövlət əhəmiyyətli tədbirlərin təşkili**

Hesabat dövründə Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə bir sıra dövlət əhəmiyyətli tədbirlər təşkil olunmuşdur. Belə ki, 1-8 mart 2019-cu il tarixində Misir Mədəniyyət Nazirliyi və Cənubi Sinay Əyalətinin qubernatorluğunun təşkilatçılığı ilə keçirilmiş III Beynəlxalq Kino Festrivalında ölkəmiz iştirak etmişdir. Festivalın açılışının bədii hissəsində azərbaycanlı müğənni Dilarə Kazımova və onun 4 nəfərdən ibarət musiqi qrupu iştirak etmişdir.

Hesabat dövrünün 7 mart tarixində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkil etdiyi 8 Mart Beynəlxalq Qadınlar gününə həsr olunmuş tədbirin mədəni hissəsində Aqşin Abdullayev, Fidan Hacıyeva və “Qaya” Dövlət vokal ansamblı çıxış etmişdir.

Cari ilin 10 mart tarixində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyi və Vaqif Mustafazadənin ev muzeyinin təşkilatçılığı ilə Moskva şəhərinin “Na Taqanke” teatrında caz ifaçısı, pianoçu Vaqif Mustafazadənin doğum gününə həsr olunmuş tədbir keçirilmişdir.

14 mart 2019-cu il tarixində N.Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi VII Qlobal Bakı Forumun iştirakçıları üçün təşkil olunan ziyafətin konsert proqramında Azərbaycan Dövlət Simli Kvarteti və “Qaytağı” instrumental ansamblı, Əməkdar artistlər Nərgiz Əliyeva, Ramil Qasımov, gənc ifaçı Fatimə Cəfərova çıxış etmişdir.

17 mart 2019-cu il tarixində Bakıda “OPEC plus” ölkələri Nazirlərinin Birgə Monitorinq Komitəsinin 13-cü iclası keçirilib. Tədbir çərçivəsində mədəni proqram təşkil olunmuşdur.

Cari ilin 28 mart tarixində Dövlət Təhlükəsizlik Xidmətinin 100 illik yubileyinə həsr olunmuş tədbirin bədii hissəsində Azərbaycan Dövlət Xor Kapellası, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera orkestri, Azərbaycan Dövlət Rəqs ansamblı, “Qaya” Dövlət vokal ansamblı iştirak etmişlər.

29 mart tarixində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakıda diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşüb. Görüş zamanı Xalq artisti Ənvər Sadıqovun iştirakı ilə “Qaytağı” instrumental ansamblı, Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının iştirakı ilə bədii hissə təşkil olunmuşdur.

14-17 aprel tarixində Bakı şəhərində Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq konfransın bədii hissəsində bir sıra incəsənət ustaları konsert proqramı ilə çıxış etmişdirlər. “Bulvar Otel”, “Buta Palace” və “Pasaj”da keçirilmiş tədbirlərdə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera orkestri, Azərbaycan Dövlət Rəqs ansamblı, Azərbaycan Dövlət Simli kvarteti, “Qaya” vokal ansamblının çıxışları olmuşdur.

Hesabat dövrünün 2-10 may tarixində Heydər Əliyev Fondunun yaranmasının 15 illiyi münasibətilə Azərbaycanın regionlarında - Ağdam, Şəki, Xaçmaz, Şamaxı, Lənkəran, Naxçıvan və Bakı şəhərində bir sıra tanınmış sənətçilərin iştirakı ilə konsertlər baş tutmuşdur.

25 may 2019-cu il tarixində “26 iyun Silahlı Qüvvələr günü” münasibətilə Müdafiə Nazirliyinin təşkil etdiyi bayram tədbirində konsert proqramının keçirilməsinə köməklik göstərilmişdir.

27 may tarixində “Buta Palace”da Prezident İlham Əliyevin iştriakı ilə Respublika gününə həsr olunmuş bayram tədbiri keçirilmişdir. Tədbirdə Q.Qarayev adına Azərbaycan Dövlət Kamera orkestri, Dövlət Xor kapellası çıxış etmişdirlər.

31 may 2019-cu il tarixində Polşa Respublikasının prezidenti cənab Andjey Dudanın Azərbaycana rəsmi səfəri ilə əlaqədar təşkil olunmuş ziyafətin bədii hissəsi zamanı Azərbaycan Dövlət Simli kvartetinin iştirakı ilə konsert proqramı keçirilmişdir.

Milli Məclis aparatının 19 iyun tarixində Beynəlxalq Muğam Mərkəzində təşkil etdiyi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assembliyasının 53-cü Plenar sessiyasının bədii hissəsində konsert proqramı təşkil olunmuşdur.

UNESKO çərçivəsində Beynəlxalq Muğam Mərkəzində 2019-cu ilin 6 iyul tarixində Mali caz ustası Tidian Seckin caz qrupu və Salman Qəmbərovun “Bakustic Jazz” qrupunun, Almaxamanım Əhmədlinin iştirakı ilə Muğam və caz musiqi konserti təşkil olunmuşdur.

2019-cu il 15 oktyabr tarixində “Flame Towers”- “Fairmont” mehmanxanasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Gözüşü çərçivəsində konsert proqramı təşkil

olunmuşdur. Konsert zamanı Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orksetri, “Qaytağı” ansamblı çıxış etmişdir.

Cari ilin 25-26 oktyabr tarixində Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün bədii hissəsinin təşkili zamanı Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orksetri, Xalq artsiti Samir Cəfərov, Əməkdar artsitlər Nərgiz Kərimova, Abbas Bağırov, Aqşin Abdullayev, Nigar Şabanova, Ramil Qasımov, “Qaytağı” ansamblı çıxış etmişdir.

Hesabat dövrünün 13-16 noyabr tarixində Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində İƏT-in Qızıl Yubiley tədbirinin bədii hissəsində iştirak etmək üçün bir sıra incəsənət nümayəndələri Ciddə şəhərinə ezam olunmuşdur. Tədbir zamanı Muğam üçlüyü və F.Əmirov adına Dövlət Mahnı və Rəqs ansamblı çıxış etmişdir.

Hesabat dövrünün mühüm hadisələrindən biri Dünya dini liderlərinin II Bakı Sammitinin Bakı şəhərində keçirilməsi olmuşdur. Həmin tədbirin 14 noyabr tarixində Heydər Əliyev Mərkəzində təşkil edilən konsert proqramında Dövlət Kamera orkestri, musiqiçilər iştirak etmişlər.

**MUZEY İŞİ VƏ MƏDƏNİ SƏRVƏTLƏRƏ NƏZARƏT**

Hesabat dövründə Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən muzeylərin 2019-cu il üçün statistik hesabatları toplanılmış və Muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsində qeydiyyata alınmışdır.

Respublikada fəaliyyət göstərən Heydər Əliyev mərkəzləri və muzeylərin siyahısı və statistik göstəricilər toplanılmış, muzeylərin məlumat kataloqu (fasad və ekspozisiya fotoşəkilləri, ümumi məlumat, ştat vahidləri, fond əşyalarının sayı, muzeyə gələn tamaşaçıların sayı və s.) və “museum.az” internet bələdçisinin layihə-dizaynı hazırlanmış, digər qurumlarda və ictimai əsaslarla fəaliyyət göstərən muzeylərin və şəxsi kolleksiyaların məlum olan siyahısı toplanılmışdır.

Hesabat dövründə Qəbələ Tarix-Diyarşünaslıq, Cəfər Cabbarlının Xızıdakı Ev, M.Ə.Sabirin Şamaxıdakı Ev, Tovuz rayonunda fəaliyyət göstərən Aşıq Hüseyn Bozalqanlı adına Aşıq Sənəti Dövlət və Tarix-Diyarşünaslıq muzeylərinin bədii tərtibat işlərinin aparılması və Cəbrayıl rayonu Cocuq Mərcanlı kəndində Multimedia və İnformasiya Muzey Mərkəzinin yaradılması ilə bağlı layihələr hazırlanmışdır.

1990-cı il 20 yanvar faciəsinin 29-cu ildönümü ilə bağlı respublikanın muzey və Heydər Əliyev Mərkəzlərində silsilə tədbirlər keçirilmişdir. Tədbirlərdə sərgilər, mühazirələr, tarix dərsləri, faciənin şahidləri ilə görüşlər keçirilmiş, şəhidlər xiyabanı, abidələr ziyarət edilmişdir.

Xocalı Soyqırımının 27-ci ildönümü ilə bağlı Bakı şəhərində fəaliyyət göstərən Azərbaycan Milli İncəsənət, Azərbaycan Xalça, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət, Azərbaycan İstiqlal muzeylərində, habelə Heydər Əliyev mərkəzlərində sərgilər, görüşlər, tədbirlər keçirilmişdir.

Cari ilin 7 fevral – 4 avqust tarixində YARAT Müasir İncəsənət Məkanı İctimai Birliyinin təşkilatçılığı ilə XX-XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində rəssam Əşrəf Muradın retrospektiv sərgisində Azərbaycan Milli İncəsənət Muzeyinin fonduna məxsus Əşrəf Muradın “Atom müharibəsinə yox deyək” (1967-1968), “Funikulyor” (1967-1968), “Oktyabrın 50 illiyi” (1967), “Ağ geyimli qadınlar” (1970), habelə rəssama aid arxiv materialları, müxtəlif rəylər və fotoşəkillər nümayiş olunmuşdur.

Türkmənistanın “Türkmənhalı” Dövlət Birliyi tərəfindən 15 fevral 2019-cu il tarixində Azərbaycan Xalça Muzeyində türkmən dekorativ-tətbiqi sənət nümunələrindən ibarət “Türkmən əl işi xalçası, Türkmənistanın zərgərlik məmulatları və tekstil məhsullarının sərgisi” təşkil olunmuşdur.

Cari ilin 15 mart tarixində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun, Türkiyənin Azərbaycandakı Səfirliyinin iştirakı ilə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinə hədiyyə etdiyi 12 ədəd türk musiqi alətinin təqdimat mərasimi keçirilmişdir.

Azərbaycan Milli İncəsənət Muzeyi mart ayında az yaşlı tamaşaçılar üçün "Novruz Rəngləri" adlı maarifləndirici və əyləncəli proqram təşkil etmişdir.

Hesabat ilinin aprel ayının 29-da Azərbaycan milli rəngkarlıq sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Əzim Əzimzadənin Bakı şəhərindəki xatirə muzeyinin təmirdən sonra açılış mərasimi olmuşdur. Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə eksponatların bərpası və ekspozisiyada yeni bədii tərtibat işləri həyta keçirilmişdir.

2019-cu ilin may ayının 2-3-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında 5-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycan mədəniyyətini və incəsənətini əks etdirən xalça və xalq tətbiqi sənəti nümunələri, milli musiqi alətləri, mis məmulatlarından ibarət sərgi təşkil olunmuşdur.

Cari ilin 10 may tarixində Azərbaycan Xalça Muzeyi və Yeni Azərbaycan Partiyasının Səbail rayon şöbəsinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması, Azərbaycan mədəniyyətinin inkişafı sahəsində həyata keçirdiyi irimiqyaslı işlər haqqında məlumat verilmiş, tədbirin bədii hissəsində ulu öndərin sevdiyi mahnı və musiqi parçaları ifa olunmuşdur.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə cari ilin 12-18 may tarixində "Muzeylər və Nəsimi İrsi" adlı proqram üzrə muzey həftəsi təşkil olunmuşdur.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bakı Yunus Emre İnstitutu, Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşəbbüsü və Türk Hava Yollarının dəstəyi ilə 2019-cu ilin 14 may tarixində Azərbaycan Milli İncəsənət Muzeyində "Türkiyədən Əsən Meh" adlı sərgi təşkil olunmuşdur. Müasir Türk mədəni irsini Azərbaycanda tanıtmaq məqsədi ilə keçirilən sərgidə Rauf Tuncer, Hüseyin Elmas, Erkin Keskin kimi  peşəkar türk rəssamlarının əsərləri təqdim olunmuşdur.

Qazaxıstanın Almatı şəhərində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 2019-cu ilin 15 may tarixində ölkəmizin milli musiqi alətləri olan tar, kamança, qaval, balaban və tütək İxlas adına Xalq Musiqi Alətləri muzeyinə rəsmi şəkildə hədiyyə edilməsi ilə bağlı təntənəli tədbir keçirilmişdir.

Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsinin təşkilatçılığı ilə cari ilin 17-19 may tarixində Park Bulvar Ticarət Mərkəzində Beynəlxalq Muzeylər Gününə həsr olunmuş "Muzeylər mədəniyyət mərkəzləri kimi ənənələrin gələcəyi" adlı tədbir keçirilmişdir. Tədbirdə 12 muzey: Azərbaycan Milli İncəsənət, Azərbaycan Xalça, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət, Azərbaycan Dövlət Teatr, Azərbaycan İstiqlal, Azərbaycan Gömrük Tarixi, Milli Azərbaycan Tarixi muzeyləri və Bülbülün Memorial, Üzeyir Hacıbəylinin, Səməd Vurğunun, L. Və M.Rostropoviçlərin ev-muzeyləri tərəfindən 3 gün ərzində konsert, tamaşa, interaktiv əyləncəli proqramlar, sərgi və ustad dərsləri təşkil olunmuşdur.

Həmçinin "Beynəlxalq Muzeylər Günü" ərəfəsində cari ilin 17 may tarixində Azərbaycan Milli İncəsənət Muzeyinin birinci korpusunun əsaslı təmir və yenidənqurmadan sonra içtimaiyyət üçün açılışı və nazirlik tərəfindən Respublika muzeylərinə həsr olunmuş "museums.az" internet bələdçisinin təqdimat mərasimi təşkil olunmuşdur.

Cari ilin 23 may tarixində Azərbaycan Xalça Muzeyində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Xalça Muzeyi və "Söz" ədəbi layihəsi ilə birgə, "GülSam" Əlillərin Reabilitasiya İctimai Birliyi, Azərbaycan Gözdən Əlillər Cəmiyyəti və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin iştirakı ilə fiziki məhdudiyyətli insanlara həsr olunmuş "Həyat gözəldir" adlı musiqili-ədəbi gecə təşkil olunmuşdur.

2019-cu ilin 30 may tarixində Rusiya Federasiyasının Moskva şəhərində "Manej" mərkəzinin sərgi zalında "Peşəkarların dialoqu" mövzusunda XXI Beynəlxalq "İntermuzey" Festivalında ölkəmizi Azərbaycan Xalça və Qara Qarayevin ev muzeylərinin nümayəndələri təmsil etmişlər.

Cari ilin 1 iyun tarixində Azərbaycan Milli İncəsənət Muzeyində "Uşaqların Beynəlxalq Müdafiəsi Günü"nə həsr olunmuş xüsusi proqramı təqdim olunmuşdur. Proqramda kiçik ziyarətçilər muzeyin ekspozisiyasında sərgilənən Azərbaycan mədəniyyətinin milli-mədəni sərvətləri ilə tanış olub, təsviri sənətin müxtəlif janrlarını kəşf etmiş və bir-birindən fərqli ustad dərslərində iştirak etmişlər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Xalça Muzeyi və 4KİDS ailə portalının təşkilatçılığı, Türkiyə, Ukrayna, Çernoqoriya, Çin, Mərakeş, Hindistan, İndoneziya səfirlikləri, “ZADAGAN” Azərbaycan tekstil brendinin,“Söz” ədəbi layihəsi və Bakı Avropa Məktəbinin dəstəyi ilə 1 iyun 2019-cu il tarixində Azərbaycan Xalça Muzeyində Uşaqların Beynəlxalq Müdafiəsi gününə həsr olunmuş festival keçirilmişdir.

4 iyun 2019-cu il tarixində Azərbaycan Milli İncəsənət Muzeyində “Alman incəsənəti Azərbaycan Milli İncəsənəti Muzeyinin kolleksiyasından” adlı sərginin açılış mərasimi keçirilib. Sərgi ekspozisiyasında Almaniyanın Meysen manufakturasının, Falken və Potsşapel Time zavodlarının və Berlin Kral çini manufakturasının çeşidli boşqab və vazları, məişət əşyaları və dekorativ fiqurları geniş şəkildə təqdim olunmuşdur.

Hesabat ilinin 20 iyun tarixində Belarus Respublikasının Minsk şəhərində II Avropa Oyunlarının keçirildiyi dövrdə yaradılmış Fan-zonada “Azərbaycan Günü” keçirilmişdir. Fan-zonada 1 gün ərzində Azərbaycan mədəniyyətini və incəsənətini əks etdirən musiqi alətləri, xalça və xalq tətbiqi sənəti nümunələri, milli geyim, milli suvenirlər və I Avropa Oyunlarını əks etdirən foto-sərgi nümayiş etdirilmiş və 2 saatlıq konsert proqramı təşkil olunmuşdur.

Cari ilin 30 iyun–10 iyul tarixində Bakı şəhərində keçirilən UNESKO -nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil edilmiş Azərbaycanın mədəni və təbii irsinə həsr olunmuş digital və bədii foto sərgisi sessiya iştirakçıları tərəfindən böyük maraqla qarşılanmışdır.

Yaponiyanın Kioto şəhərində “Muzeylər mədəniyyət mərkəzləri kimi: ənənələrin gələcəyi” devizi altında 2019-cu ilin 1-7 sentyabr tarixində İCOM–un növbəti 25-ci Baş Konfransında ölkəmiz təmsil olunmuşdur.

Cari ilin 19 sentyabr tarixində Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı çərçivəsində Azərbaycan Milli Xalça Muzeyində “Üzeyir Hacıbəyli yaradıcılığının xalçalarımızda tərənnümü” adlı tədbir keçirilmişdir.

2019-cu ilin 28 sentyabr tarixində Azərbaycan Milli Xalça Muzeyində, Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən II Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində böyük mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş Beynəlxalq xalça eskizi müsabiqəsinin yekun sərgisi təşkil olunmuşdur.

Cari ilin 24 oktyabr tarixində Azərbaycan Milli İncəsənət Muzeyində “Mədəni sərvətlərin silahlı münaqişələrin və digər fövqəladə halların mümkün təsirlərindən qorunması” adlı layihənin təqdimatı keçirilmişdir. Layihə Mədəniyyət Nazirliyinin dəstəyi ilə UNESKO-nun 2018-2019-cu illər üçün İştirak Proqramı çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyi tərəfindən reallaşdırılmışdır. Layihənin məqsədi silahlı münaqişələr və fövqəladə hallarda mədəni sərvətlərin qorunması üçün strateji planlaşdırma, preventiv kompleks tədbirlərin keçirilməsi, habelə təhlükəsiz evakuasiyasını təmin etmək üçün müvafiq hədəf auditoriyasını təlimatlandırmaq və bu sahədə mövcud beynəlxalq təcrübəni tətbiq etmək idi.

2019-cu ilin 30 oktyabr tarixində Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində Asiya Milli Muzeylər Assosiasiyasının (ANMA) 7-ci konfransında Azərbaycan Milli İncəsənət Muzeyi Asiya Milli Muzeylər Assosiasiyasına üzv qəbul edilmişdir.

Cari ilin 6 noyabr tarixində Azərbaycan Milli İncəsənət Muzeyində Çingiz Fərzəliyevin “Zamanın pillələri ilə” adlı fərdi sərgisi açılmışdır. Sərgi professor Çingiz Fərzəliyevin yaradıcılıq fəaliyyətinin 50 illiyinə və Azərbaycan Respublikası Prezidenti tərəfindən təsviri sənətinin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilməsinə həsr olunmuşdur.

2019-cu ilin 8 noyabr tarixində Azərbaycan Milli Xalça Muzeyinin fiziki imkanları məhdud şəxslərə uyğunlaşdırılmış ikinci mərtəbəsinin açılış mərasimi keçirilmişdir. Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin təşkilatçılığı ilə keçirilən tədbir fiziki məhdudiyyətli

insanların ictimai-mədəni mühitdə bərabərliyinin təmin olunması, onlara psixoloji və mənəvi dəstək məqsədi daşımışdır.

Avstriyanın paytaxtı Vyana şəhərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyəti Mərkəzində Xalq rəssamı Səttar Bəhlulzadənin 110 illik yubileyinə həsr olunmuş sərginin təşkili məqsədilə Azərbaycan Milli İncəsənət Muzeyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyalarında qorunub saxlanılan əsərlər cari ilin noyabr ayının 15-dən 2020-ci ilin yanvar ayının 15-dək sərgidə nümayişi təmin olunmuşdur.

Cari ilin 18 noyabr tarixində görkəmli yazıçı-dramaturq, publisist, naşir, ictimai xadim Cəlil Məmmədquluzadənin Ev-Muzeyinin renovasiyasından sonra açılış mərasimi keçirilmişdir. Bakı Şəhər Mədəniyyət Baş İdarəsi tərəfindən binada cari təmir və möhkəmləndirmə işləri aparılmış, ekspozisiyada müasir dövrün tələblərinə uyğun bədii tərtibat işləri həyata keçirilmişdir.

2019-cu ilin 22 noyabr tarixində Bakı Kitab Mərkəzində Azərbaycan Milli Xalça Muzeyinin 50 illik yubileyinə həsr olunmuş “Azərbaycan Xalça Muzeyi” kitabının təqdimat mərasimi keçirilmişdir.

Cari ilin 22 noyabr tarixində Azərbaycan Milli İncəsənət Muzeyində “Azərbaycan muzeylərində audio-bələdçi” və "Sənə hekayəmi danışmaq istəyirəm" layihələrinin təqdimat mərasimi keçirilmişdir. "Sənə hekayəmi danışmaq istəyirəm" layihəsi paytaxtımızın muzeylərində saxlanılan unikal eksponatlar haqqındadır. Layihədə Azərbaycan Milli İncəsənət və Azərbaycan Milli Xalça muzeylərindən seçilmiş eksponatların hekayəsi təqdim edilmişdir. Muzey sahəsində ilk dəfə olaraq 2019-cu ildə dövlət tərəfindən ayrılmış xüsusi vəsait hesabına Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən tamaşaçılara yüksək səviyyəli ekskursiyaların təşkili üçün Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi və Qobustan Dövlət tarixi-bədii qoruğuna 5 dildə : azərbaycan, rus, ingilis, fransız, ərəb dillərində audiogidlər alınmışdır. Avadanlıqlar 2 formada təqdim edilir: Orpheo mikro LX və Orpheo touch. Audiogidlərin mətnləri müxtəlif yaşa malik olan insanlar üçün, uşaq və böyüklər üçün hazırlanmışdır.

Hesabat dövrünün 25 noyabr tarixində MDB-nin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun maliyyə və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə Milli İncəsənət Muzeyində “Sərhədsiz incəsənət” adlı beynəlxalq seminar keçirilmişdir. Layihə mədəniyyət müəssisələrinin fiziki və əqli cəhətdən qüsurlu insanlar daxil olmaqla bütün ziyarətçilər üçün əlverişliliyinin təmin edilməsinə və aparıcı muzeylərinin təcrübəsinin öyrənilməsinə yönəldilmişdir.

Rusiyanın "Proxorovskoye Pole" Dövlət Hərbi Tarixi Muzey-Qoruğunda 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi çərçivəsində "Azərbaycanın müharibə dövründə verdiyi töhfələr" adlı sərgidə nazirlik təmsil olunmuşdur.

Cari ilin 26 noyabr tarixində Azərbaycan Milli Xalça Muzeyində “Kəlağayı: ipək qanadlar” adlı sərginin açılışı olmuşdur. Sərgi kəlağayı sənətinin “Kəlağayı simvolizmi və ənənəvi sənəti” adı ilə UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin beş illiyinə həsr edilmişdir.

Tovuz Tarix-Diyarşünaslıq Muzeyi üçün yerli icra hakimiyyəti tərəfindən yeni inşa edilmiş binanın ekspozisiya sahəsində müasir, interaktiv, digitallaşdırılmış bədii tərtibat işləri həyata keçirilmişdir.

Xızı rayonunda fəaliyyət göstərən Cəfər Cabbarlının Ev-Muzeyinin binasında rekonstruksiya, əsaslı təmir işləri aparılmış, inzibati və fond otaqları üçün yeni bina tikilmişdir.

Tovuz rayonunda fəaliyyət göstərən Aşıq Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyi üçün nazirlik tərəfindən müasir memarlıq üslubunda 3 mərtəbəli yeni bina inşa edilmiş və müasir muzey işinin tələblərinə uyğun bədii, digital, elektron avadanlığı və proqramlarla təchiz edilmiş, interaktiv ekspozisiya təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi “Setline” şirkəti ilə birlikdə Rayon (şəhər) Heydər Əliyev mərkəzlərinin informasiya portalı hazırlanmış və cari ilin 8 may tarixində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ərəfəsində Bakı şəhər

Heydər Əliyev Mərkəzində portalın təntənəli təqdimatı keçirilərək ictimaiyyətə açıq elan edilmişdir.

2019-cu ilin 19 iyun tarixində keçirilmiş ən yaxşı internet layihələri, əhəmiyyətli veb-resurslar və informasiya texnologiyaları sahəsində peşəkarları seçən NETTY 2019 Azərbaycanın Milli internet mükafatının 15-ci mükafatlandırma mərasimində dövlət internet saytları üzrə nominasiyada Azərbaycanın qeyri-maddi mədəni irs nümunələri, onların daşıyıcıları və təşkilatlar haqqında məlumatı, mədəniyyət sahəsində qəbul olunmuş milli və beynəlxalq sənədləri, qeyri-maddi irs sahəsində yenilikləri, UNESKO siyahısındakı Azərbaycan mədəni irs nümunələrini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair lazımi elmi ədəbiyyatı, foto və videomaterialları özündə ehtiva edən “Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri” – www.intangible.az portalı qalib elan olunmuşdur.

Hesabat dövründə “Muzey əşyalarının daimi mühafizə portalı” yaradılmış, onun proqram təminatı təkmilləşdirilmişdir. Hazırda respublikada fəaliyyət göstərən şəhər (rayon) Heydər Əliyev mərkəzləri, aparıcı muzeylər, ev və xatirə muzeyləri, şəhər (rayon) tarix-diyarşünaslıq muzeyləri tərəfindən muzey fondlarında qorunub saxlanılan eksponatlar həmin portala daxil edilməkdədir. “AdZone” şirkəti tərəfindən “Muzey əşyalarının daimi mühafizə portalı”nın yenilənmiş proqram təminatının izah edilməsi məqsədilə cari ilin 20 iyun tarixində Qəbələ rayon Heydər Əliyev Mərkəzində İsmayıllı, Şəki, Kürdəmir, Sumqayıt və Xaçmaz regional idarələrinin, 15 iyul tarixində Şəmkir rayon Heydər Əliyev Mərkəzində Ağstafa, Şəmkir, Gəncə, Bərdə, Ağcabədi regional mədəniyyət idarələrinin, 22 iyul tarixində Lənkəran şəhər Heydər Əliyev Mərkəzində Ağdaş, Sabirabad, Biləsuvar, Masallı, Lənkəran regional mədəniyyət idarələrinin və 25 iyul tarixində Azərbaycan Milli İncəsənət Muzeyində Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin və bilavasitə nazirliyin tabeliyində olan Heydər Əliyev mərkəzlərinin və muzeylərin direktor, baş mühafiz və portalla işləyən operatorlarının iştirakı ilə təqdimat – treninqlər təşkil olunmuşdur. 26 noyabr tarixində Gəncə şəhər Heydər Əliyev Mərkəzində Kürdəmir, Ağstafa, Şəmkir, Gəncə, Bərdə, Ağcabədi, Ağdaş, Şəki regional idarələrinin, 29 noyabr tarixində Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində Sumqayıt, Xaçmaz, İsmayıllı, Sabirabad, Biləsuvar, Masallı və Lənkəran regional mədəniyyət idarələrinin tərkibinə daxil olan, habelə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin və bilavasitə nazirliyin tabeliyində olan Heydər Əliyev mərkəzlərinin və muzeylərin direktor, baş mühafiz və portalla işləyən operatorlarının iştirakı ilə təqdimat – treninqlər təşkil olunmuşdur.

Cari ilin 29 oktyabr tarixində daşınar mədəni sərvətlərin və məhsulların idarə olunmasının təkmilləşdirilməsi ilə əlaqədar, Mədəniyyət Nazirliyinin Azərbaycan Milli İncəsənət, Azərbaycan Milli Xalça, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət muzeylərində və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında fəaliyyət göstərən ekspert komissiyalarının nümayəndələrinin iştirakı ilə iclas keçirilmiş, “Daşınar mədəni sərvətlərin və məhsulların idarə olunmasının təkmilləşdirilməsinə dair Tədbirlər planı” hazırlanmışdır.

## KİNEMATOQRAFİYA

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında” 1 mart 2019-cu il tarixli, 1007 nömrəli Sərəncam imzalamışdır. Sərəncamın 1-ci bəndində Mədəniyyət Nazirliyinə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının və digər aidiyyəti qurumların təkliflərini nəzərə almaqla “Azərbaycan kinematoqrafiyasının inkişaf Konsepsiyası”nın hazırlanması tapşırılmışdır. Bu məqsədlə tanınmış kino mütəxəssislərindən, bu sahədə fəaliyyət göstərən ictimai təşkilatların və müstəqil prodüser mərkəzlərinin nümayəndələrindən, dövlətin kino sahəsinə məsul şəxslərindən ibarət İşçi Qrupu yaradılmışdır. Ölkədə kinematoqrafiya sahəsində uğurlu fəaliyyət göstərən dövlət və özəl kino istehsalı, eləcə də nümayişi müəssisələrinə, bu sahədəki ictimai təşkilatlara müvafiq məktublar göndərilərək sözügedən Konsepsiya ilə bağlı təkliflərini Nazirliyə təqdim etmək xahiş olunmuşdur. Təqdim olunan

təkliflər vaxtaşırı olaraq müəlliflərin iştirakı ilə İşçi Qrupu tərəfindən müzakirə edilmişdir. Bundan əlavə, Konsepsiyanın hazırlanmasında beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə İşçi Qrupunun üzvləri Litva, Macarıstan və Gürcüstanda səfərlərdə olmuş, bu ölkələrin kino sənayesinin iştirakçıları ilə görüşlər keçirmiş, kinematoqrafiya sahəsindəki vergi, gömrük və digər imtiyazlarla bağlı təcrübələrini təhlil etmişlər. Bütün təkliflər nəzərə alınmaqla hazırlanan “Azərbaycan kinematoqrafiyasının inkişaf Konsepsiyası”nın layihəsi ölkə başçısına təqdim olunmuşdur. Daha sonra Nazirlər Kabinetinin müvafiq tapşırığı ilə Konsepsiya layihəsinə aidiyyəti dövlət qurumlarında baxılmış, rəy və təkliflər verilmişdir. Sözügedən rəy və təkliflər nəzərə alınaraq aidiyyəti qurumlarla razılaşdırılmış “Azərbaycan kinematoqrafiyasının inkişaf Konsepsiyası” layihəsi Nazirlər Kabinetinə təqdim edilmişdir.

Sözügedən Sərəncamın 2-ci bəndinə əsasən dövlət sifarişi ilə film istehsalını həyata keçirmək, həmçinin milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən şəxslərə dəstək olmaq, onların yaradıcılığını stimullaşdırmaq və yeni yaradıcı qüvvələri kinodramaturgiya sahəsinə cəlb etmək məqsədilə mart ayının 20-dən iyun ayının 20-dək bədii, sənədli və animasiya filmi ssenariləri müsabiqəsi keçirilmiş, müsabiqəyə hər hansı janr məhdudiyyəti olmadan vətənpərvərlik, milli mənəvi və ümumbəşəri dəyərlər, uşaq və gənclər, eləcə də, müasir həyatın digər prioritet mövzularında ssenarilər qəbul edilmişdir. Hazırda müsabiqəyə təqdim olunan 200-dək film layihəsindən Münsiflər heyəti tərəfindən seçilmiş qalib senarilər əsasında filmlərin istehsalına başlanılmışdır.

Noyabr ayının 1-dən isə növbəti bədii və animasiya film ssenariləri müsabiqəsi elan olunmuşdur. Müsabiqəyə ssenari qəbulu başa çatmış və təqdim edilən 80-dək layihənin qiymətləndirilməsi üzərində işlər davam etdirilir.

Hesabat dövründə Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında “Daxildəki ada” tammetrajlı, “Rəqs”, “Soraq” (“Salam”), “Estakada”, “Naməlum dahi”, “Dan yeli” (“Protez”) qısametrajlı bədii filmlərinin, “Yadelli nağıllar” (“Azərbaycan musiqisi və erməni plagiatı”) sənədli filminin, “Salnaməfilm” studiyasında “20 Yanvar” (“Silahdaşlar”), “Memar” (“Azərbaycan memarı Elbay Qasımzadə”), “Şəki” və “Saxurlar” sənədli filmlərinin, 3D formatda olan “Cırtdan və Sehrli xalat” cizgi filminin, “Mozalan” studiyasında isə “Əlvida, Şmidt!” tammetrajlı bədii filminin istehsalı başa çatdırılmışdır.

“Azərbaycanfilm”də “Quyu”, “Titrəmə” və “Sizə məktub var” qısametrajlı bədii filmlərinin, “Salnaməfilm” studiyasında “Köç” sənədli filminin, “Azərbaycanın Milli Qəhrəmanları” sənədli filmlər silsiləsindən növbəti filmlərin istehsalı davam etdirilmişdir.

Bundan əlavə, “Azərbaycanfilm” kinostudiyasında “Manpası qutusu”, “Yüksəliş. Yaradanın adı ilə... “Xoş sonluqlu faciə”, “Məryəm”, “Molla Nəsrəddin – çətin günlərimin dostu”, “Kariatida”, “Görmə qüsuru” adlı tammetrajlı bədii filmlər, “Salnaməfilm” studiyasında “Mirzə Cəlilin Azərbaycanı”, “Yaradanlar”, “Malakanlar”, “Ləzgilər”, “Ulduzların keşikçiləri” (Rusiya ilə birgə), “Ada” sənədli filmləri, “Azanfilm” studiyasında “Oğurlanmış Bahar”, “Tıq-tıq və dostları möcüzələr axtarışında” animasiya filmləri, “Debüt” studiyasında isə “Ailəvi şəkil” qısametrajlı bədii filmi istehsala buraxılmışdır.

Gənc nəslin milli təfəkkürünü formalaşdırmaq, onlara vətənpərvərlik ruhunu aşılamaq və tariximizi yaxından tanıtmaq məqsədilə, həmçinin 20 yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar yanvarın 14-dən 18-dək keçirilən “Vətənpərvərlik kinosu həftəsi” çərçivəsində dövlət sifarişi ilə “Azərbaycanın Milli Qəhrənamları” silsiləsindən çəkilmiş “Dəmir atlı”, “Həsrətlə cənnətə qovuşanlar”, ”Bizim zaman qəhrəmanları”, “Cavanşir”, “Ömrün qırx anı”, “Döyüşə tələbələr gedir”, “Tarixdə adı qalan”, “Ən yüksək zirvə”, “Ovçu” kimi bir çox sənədli filmlərin Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan mədəniyyət müəssisələrində nümayişləri təşkil olunmuşdur.

Yanvarın 28-də Milli Aviasiya Akademiyasında Azərbaycanın Milli Qəhrəmanı Viktor Seryoqinin xatirə gecəsi və qəhrəman haqqında çəkilmiş “Əbədiyyata uçuş” sənədli filminin təqdimatı, aprelin 3-də Heydər Əliyev adına Ali Hərbi Məktəbində Aprel döyüşlərinə həsr olunmuş tədbir və “Aprel yüksəklikləri” sənədli filminin təqdimatı, iyunun 14-də isə Daxili İşlər

Nazirliyinin Polis Akademiyasında Azərbaycanın Milli Qəhrəmanı Əli Məmmədova həsr olunmuş "Taleyin sınağında" sənədli filminin təqdimatı keçirilmişdir.

Bununla yanaşı, Azərbaycanın Milli Qəhrəmanı Seymur Məmmədovun xatirəsinə həsr olunmuş “Qartal yuvası” sənədli filminin mayın 26-da Füzuli rayonunun 3-cü Zobucuq qəsəbəsində, mayın 27-də isə Füzuli rayon Muğam Mərkəzində, Mikayıl Cəbrayılov haqqında çəkilmiş İki əsgər” sənədli filminin isə aprelin 29-da Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində təqdimatı olmuşdur.

Azərbaycan və İtaliya arasında mövcud olan mədəni əlaqələri inkişaf etdirmək məqsədilə İtaliyanın Azərbaycandakı Səfirliyi, bu ölkənin “İmago Group”, “United Cultures” və “Sandro Teti Editore” şirkətləri ilə birgə yanvarın 25-dən 30-dək Nizami Kino Mərkəzində İtaliya-Azərbaycan Film Festivalı keçirilmişdir. Festival çərçivəsində hər iki ölkənin kino mütəxəssislərindən ibarət Münsiflər heyəti tərəfindən seçilmiş filmlər nümayiş olunmuş və müxtəlif nominasiyalar üzrə mükafatlandırılmışdır.

2 fevral – Gənclər günü ilə əlaqədar keçirilən “Gəncliyin səsi” festivalı çərçivəsində fevralın 2-də Quba “Asan həyat” Kompleksində “Usta Yusifin Kamançası”, “Ayaqqabı əməliyyatı”, fevralın 4-də Masallı “Asan həyat” Kompleksində isə “Yol ayrıcında qalmış taksi”, “Onun atası” qısametrajlı bədii filmlərinin təqdimatları təşkil olunmuş, sözügedən filmləri çəkmiş gənc rejissorlarla görüşlər keçirilmişdir.

İyul ayının 31-də Milli Kino Günü ilə əlaqədar olaraq Şağan qəsəbəsindəki 3 saylı fiziki və əqli qüsurlu uşaqlar üçün İnternat Evində və Şüvəlandakı Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli xüsusi İnternat Məktəbində xeyriyyə görüşləri və yeni cizgi filmlərinin nümayişləri təşkil olunmuşdur.

Nizami Kino Mərkəzində fevralın 19-da 20 Yanvar hadisələri zamanı faciəni lentə almış “Azərbaycanfilm” kinostudiyasının əməkdaşlarının fəaliyyətindən bəhs edən “Silahdaşlar” sənədli filminin, fevralın 26-da Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar, Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidova həsr edilən “Aprel yüksəklikləri” sənədli filminin, martın 6-da Belarusun Azərbaycandakı Səfirliyi ilə birgə bu ölkənin istehsalı olan “Kainin kodu” bədii filminin, aprelin 19-da “Əlvida, Şmidt” bədii filminin, mayın 21-də “Qartal yuvası” sənədli filminin, mayın 22-də yenilənmiş versiyada “Mateo Falkone” qısametrajlı bədii filminin, mayın 23-də “Mənim balaca şahzadəm” cizgi filminin, avqustun 2-də Milli Kino Günü ilə əlaqədar tədbirdə “Dan yeli”, “Soraq”, “Oturacaqlar” qısametrajlı bədii filmlərinin, dekabrın 3-də bərpa edilmiş “Ulduz”, dekabrın 20-də isə “Nəsimi” bədii filmlərinin təqdimatları olmuşdur.

Eyni zamanda Kino Mərkəzində film təqdimatları ilə yanaşı bir çox kino tədbirləri keçirilmişdir. Belə ki, may ayının 8-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı il dönümü ilə əlaqədar “Heydər Əliyev və Azərbaycan kinosu” mövzusunda konfrans, sentyabrın 26-dan 30-dək “Rusiya Kinosu Həftəsi”, noyabrın 15-də “Dublyajda səs çələngi” adlı filmlərin dublyajı və subtitr tərcüməsi ilə məşğul olan mütəxəssislər üçün təşkil olunan kursların yekunları ilə bağlı bədii gecə, noyabrın 17-dən 24-dək Azərbaycanda “Özbək Kinosu Günləri” keçirilmişdir.

Azərbaycanda multikultural dəyərlərə hörmət və ölkəmizdə yaşayan milli azlıqlara həsr edilmiş “Hapıtlar” sənədli filminin martın 5-də Hapıtların yaşadığı İsmayıllı rayonunda, “Saxurlar” sənədli filminin isə apelin 26-da Saxurların yaşadığı Zaqatala rayonunda təqdimatı keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli kinorejissor, Xalq artisti Tofiq Tağızadənin 100 illik yubileyinin keçirilməsi haqqında 24 yanvar 2019-cu il tarixli, 900 nömrəli Sərəncam imzalamışdır. Sərəncamın icrasını təmin etmək məqsədi ilə müvafiq qurumların təklifləri nəzərə alınmaqla hazırlanmış Tədbirlər Planına uyğun olaraq martın 1-də Muzey Mərkəzində Tofiq Tağızadənin 100 illik yubiley tədbiri təşkil olunmuşdur.

Aprelin 21-də Beynəlxalq Muğam Mərkəzində görkəmli kinorejissor, Xalq artisti, Tofiq İsmayılovun 80 illik, Nizami Kino Mərkəzində oktyabrın 29-da SSRİ və Azərbaycanın Xalq artisti, görkəmli kinorejissor Əjdər İbrahimovun 100 illik, noyabrın 28-də dünya şöhrətli ABŞ

və İngiltərə rejissoru, aktyoru, ssenari müəllifi və bəstəkarı Çarli Çaplinin 130 illik, dekabrın 19-da isə Xalq rəssamı Kamil Nəcəfzadənin 90 illik yubiley gecəsi keçirilmişdir.

Bununla yanaşı, Azərbaycan Dövlət Film Fondunda mayın 24-də Xan Babayevin 100, iyunun 14-də Məlik Dadaşovun 95, iyunun 21-də Amaliya Pənahovanın 74, sentyabrın 10-da Niyazi Bədəlovun 110, oktyabrın 11-də Şamil Mahmudbəyovun 95, dekabrın 16-da Fikrət Əliyevin 80 illiyi ilə əlaqədar anım tədbirləri keçirilmişdir.

Nazirliyin dəstəyi ilə müstəqil ictimai təşkilatlar tərəfindən sentyabrın 2-dən 5-dək “Salam” Beynəlxalq Yeniyetmə Film Festivalı, noyabrın 6-dan 9-dək 10-cu Bakı Beynəlxalq Qısa Filmlər Festivalı, noyabrın 18-dən 20-dək II ANİMAFİLM Beynəlxalq Animadiya Festivalı təşkil olunmuşdur.

Kinomuzun beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi istiqamatində də müvafiq işlər görülmüş, sentyabrının 21-dən 28-dək Özbəkistanda Azərbaycan Kinosu Günləri təşkil olunmuş, son illər çəkilən bədii, sənədli və animasiya filmlərimiz beynəlxalq kino festivallarında ölkəmizi təmsil etmişdir. Belə ki, hesabat dövründə “Nar bağı” bədii filmi Rusiyada 15-ci Kazan Beynəlxalq Müsəlman Filmləri Festivalında ("Ən yaxşı aktrisa" mükafatı qazanıb), “Çölçü” bədii filmi Hindistanda keçirilən “CROWN WOOD INTERNATIONAL” Film Festivalında (“Ən yaxşı bədii film” və “Ən yaxşı rejissor” mükafatlarına layiq görülmüşdür), ABŞ-da keçirilən “Depth of Field International Film Festival Competition 2019” Film Müsabiqəsində (“Art-House” proqramında “Möhtəşəm mükafat”a – (“EXCEPTIONAL MERIT” layiq görülüb) və “Accolade Global 2019” Film Müsabiqəsində (“Merit Special Mention” mükafatına layiq görülüb), İsraildə keçirilən “Near Nazareth Festival 2019” beynəlxalq film festivalında (“Ən yaxşı aktyor heyəti” və “Ən yaxşı rejissor” mükafatlarına layiq görülmüşdür), İtaliyada “Florence Film Awards 2019” festivalında (“Ən yaxşı bədii film” mükafatı qazanıb) və “Oniros Film Awards 2019” festivalında (“Ən yaxşı bədii film” mükafatı qazanıb), İndoneziyada “European Screen Awards 2019” festivalında (“Ən yaxşı bədii film” mükafatı qazanıb), Hindistanda “Mahul Woods International Film Festival”da (“Ən yaxşı bədii film” və “Ən yaxşı operator” mükafatlarına layiq görülmüşdür), “Üçüncü günün adamı” bədii filmi Bolqarıstanda keçirilmiş 11-ci Sofia MENAR Beynəlxalq Film Festivalında, “Balaca” qısametrajlı bədii filmi isə İtaliyada keçirilən “Cortisonici” Beynəlxalq Film Festivalında, İranda Fərc Beynəlxalq Film Festivalında, “Soraq” və “Dan yeli” qısametrajlı bədii filmləri 10-cu Bakı Beynəlxalq Qısa Filmlər Festivalında (“Soraq” “Ən yaxşı bədii film”, “Dan yeli” “Ən yaxşı ssenari” mükafatı qazanmışdır), "Şəki" sənədli filmi Türkiyədə IV İstanbul Beynəlxalq Turizm Filmləri Festivalında ("Ölkə filmləri" kateqoriyasında "Ən yaxşı film" mükafatına layiq görülmüşdür), “Mənim balaca şahzadəm” animasiya filmi Türkiyədə “Universal Kids” Beynəlxalq Film Festivalında, “Azərbaycan xalçası”, Azərbaycan muğamı”, “Azərbaycan mətbəxi”, “Çovqan”, “İz...Qala”, “Şəki”, “Bakı əsrlərin aynasında”, “Azərbaycan mətbəxinin rəngləri” sənədli filmləri İranda 9-cu Vareş Beynəlxalq Film Festivalında iştirak etmişdir.

Hesabat dövründə özəl kino şirkətləri tərəfindən istehsal edilmiş "Qızqaçırtma 2", "Qaynana 2018", "Əfsanə qayıdır", "Kişi ol", "Adsız yüksəkliklər", "Taksi Liza", "Miras", "Düşərgədə", "Mən səninləyəm, Ana Vətən" "Dalan", "Qız qalası", "Vəziyyət rusca", "Məhəllə 3", “Kino, kino”, "818 Həsənqaya əməliyyatı", "Müstəqil vətənin memarı", “Qeyri-adi format”, “Adam”, “Şərab”, “Arsız”, “Səbət gilas”, “Mesenat”, “Vəd olunmuş gün”, “Qatar mənzili”, “Vüqarlı dağlar”, “Ağacdələn”, “Sonuncu pərdə”, “Nataşa Mı Prişla”, “Niyə 3”, “Aporia”, “ŞaBaş”, “Qış nağılı”, Qızqaçırtma 3” kimi bədii və sənədli filmlər Dövlət Reyestrində qeydə alınaraq Yayım vəsiqələri ilə təmin olunmuşdur.

**XALQ YARADICILIĞI VƏ MƏDƏNİ MARŞRUTLARIN İNKİŞAFI**

Hesabat dövrü ərzində nazirliyin müəyyən edilmiş İş Planına müvafiq olaraq xalq yaradıcılığı və mədəni marşrutlar sahələrində mövcud vəziyyət öyrənilmiş və təhlil edilmişdir. Təhlillər nəticəsində xalq yaradıcılığı və mədəni marşrutların inkişafının təmin edilməsi, bu

sahədə müasir, innovativ yeniliklərin tətbiqi istiqamətində pioritet istiqamətlər müəyyən edilmiş və bu sahədə mühüm tədbirlər həyata keçirilmişdir.

**Xalq yaradıcılığı**

Cari ilin müvafiq dövrü ərzində nazirlik tərəfindən xalq yaradıcılığı sahəsində mütəmadi həvəsləndirmə tədbirləri həyata keçirilmiş, mədəniyyət sahəsinin inkişafındakı xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətlərinə görə bir sıra mədəniyyət işçiləri mükafatlandırılmışdır.

Azərbaycan xalqının qeyri-maddi mədəni irsinin ayrılmaz hissəsi olan aşıq sənətinin qorunub saxlanılması, milli mədəniyyətimizin inkişafında rolunun artırılması, tanıdılması və təbliğ edilməsi, ustad aşıqların zəngin irsinin öyrənilməsi, gənc nəslin aşıq sənətinə olan marağının artırılması məqsədilə nazirlik ilə Azərbaycan Aşıqlar Birliyi tərəfindən mütəmadi tədbirlər həyata keçirilir.

25 yanvar 2019-cı il tarixində “Azərbaycan Xalq Yaradıcılığının 2019-2023-cü illər üzrə İnkişafına dair Strateji Fəaliyyət Planı”na müvafiq olaraq Azərbaycan Aşıqlar Birliyində “Aşıq sənəti və gənclik” mövzusunda geniş dəyirmi masa təşkil edilmişdir.

Cari ilin 29 yanvar tarixində ustad aşıq Əməkdar Mədəniyyət İşçisi Yanvar Bədəlovun İsmayıllıda xatirə məclisi təşkil olunmuş, 11 mart tarixində Akademik Dövlət Filarmoniyasında Əməkdar İncəsənət Xadimi ustad aşıq Ədalət Nəsibovun 80 illiyinə həsr edilmiş tədbir və konsert, 15-16 mart tarixində Gəncə şəhərində gənc aşıqların Aşıq Şəmşir adına müsabiqə, 18 mart tarixində Aşıqlar Birliyi ilə birgə AMEA-da Novruz bayramı münasibəti ilə tədbir, 19 mart tarixində Akademik Dövlət Filarmoniyasında aşıq sənətinin UNESKO-ya daxil edilməsinin 10 illiyi ilə bağlı “Sazın səsi haqq səsidir” adlı yubiley tədbiri və konsert keçirilmişdir.

Aşıqlar Birliyi və Az TV-nin birgə layihəsi olan “Saz-söz axşamı” verilişi hər həftə davam etmiş, “Çağdaş Azərbaycan aşıqlarının şeir antologiyası” kitabı nəşr olunmuşdur.

Aşıqlar Birliyinin təşkilatçılığı ilə cari ilin 2 may tarixində ustad aşıq Mikayıl Azaflının 95 illiyi ilə bağlı Tovuzda geniş tədbir və konsert keçirilmiş, 17 may tarixində Azərbaycan Aşıqlar Birliyinin Sumqayıt bölməsinin açılışı olmuş və bu münasibəti ilə bölmənin iqamətgahında saz-söz məclisi təşkil olunmuş, 23 may tarixində Azərbaycan aşıqları Özbəkistanda keçirilən Beynəlxalq baxış müsabiqəsində iştirak etmiş və ikinci yerə layiq görülmüşlər.

Cari ilin 10 iyun tarixində “Aşıq Pəri məclisi”nin 35 illiyi ilə bağlı Heydər Əliyev Sarayında böyük yubiley tədbiri və konsert təşkil olunmuşdur. Aşıqlar Birliyinin sədri M.Qasımlı Aşıq Pəri məclisinin sənət yolunu təhlil edərək yubiley münasibəti ilə onları təbrik etmişdir. Sonra xanım aşıqların sənət yoluna həsr edilmiş geniş konsert verilmişdir.

10-12 oktyabr 2019-cu ildə Aşıqlar Birliyinin katibi Musa Nəbioğlunun rəhbərliyi ilə aşıq Fağfur Ağbabalı, Solmaz Kosayeva, Əşrəf Qəriboğlu Türkiyənin Qars şəhərində saz-söz festivalında iştirak etmişlər.

Cari ilin 28 noyabr tarixində Gədəbəydə İlyas Tapdığın 85 illik yubileyində Bakıdan ezam olunan aşıqlar konsert vermiş, 29 noyabr tarixində Qazaxda ustad aşıq Camoy Qurbanovun 65 illik yubeliyi keçirilmişdir.

UNESKO -nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmiş, BMT Baş Assambleyası tərəfindən beynəlxalq status verilmiş Novruz bayramı ilə əlaqədar martın 12-də Türkiyənin Bakıdakı səfirliyində Azərbaycanda fəaliyyət göstərən türkdilli ölkələrin və Novruz bayramını qeyd edən dövlətlərin səfirliklərinin birgə təşəbbüsü ilə Yel çərşənbəsi və Novruz adətlərinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Novruz adət ənənələrimiz, mətbəx nümunələrimiz nümayiş olunmuş və konsert proqramı təşkil olunmuşdur. Eyni zamanda Respublikanın bütün rayonlarında şəhər (rayon) mədəniyyət mərkəzləri (filialları ilə birlikdə), digər mədəniyyət evləri və klubların təşkilatçılığı ilə Novruz bayramı şənlikləri keçirilmişdir.

Cari ilin müvafiq dövrü ərzində respublikadakı bütün şəhər (rayon) mədəniyyət mərkəzləri (filialları ilə birlikdə), digər mədəniyyət evləri və klublarda 20 yanvara, Xocalı soyqırımına, 31 mart - Azərbaycanlıların Soyqırımı Gününə, 9 may-Faşizm üzərində Qələbə gününə, 28 may-Respublika gününə, 15 iyun- Azərbaycan xalqının Milli Qurtuluş gününə, 18 oktyabr Dövlət

Müstəqilliyi gününə, 9 noyabr Dövlət Bayrağı gününə və 17 noyabr Milli Dirçəliş gününə həsr edilmiş tədbirlər keçirilmişdir.

Hesabat dövrünün 14 mart tarixində Azərbaycan Milli Elmlər Akademiyasında “Azərbaycan-Türkiyə müştərək xalq oyunları və ənənələri” adlı panel keçirilmişdir. Tədbir Mədəniyyət Nazirliyi, Bakı Yunus Əmrə İnstitutu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin Bakı nümayəndəliyi, Qeyri-Maddi Mədəni İrs Dərnəyi və AMEA-nın Folklor İnstitutunun birgə təşəbbüsü ilə reallaşmışdır.

Azərbaycanda xalq yaradıcılığının inkişafı, qorunması və təbliğinə dəstək məqsədilə nazirlikdə “Azərbaycan Xalq Yaradıcılığının 2019-2023-cü illər üzrə inkişafına dair Strateji Fəaliyyət Planı” hazırlanmış və təsdiq edilmişdir. Həmin fəaliyyət planında xalq teatrlarının əhalinin estetik zövqünün formalaşdırılması və asudə vaxtının səmərəli təşkilində rolunun artırılması üçün sistemli işlərin, o cümlədən festival, müsabiqə, forum və digər tədbirlərin təşkili nəzərdə tutulmuşdur.

Xalq teatrlarının fəaliyyətinin dəstəklənməsi, Bakı şəhərində, xüsusən regionlarda mədəni həyatın təşkilində rolunun artırılması məqsədilə 2019-cu ilin aprel ayının 1-dən 28-dək III Respublika Xalq Teatrları Festivalının Bakı şəhəri və bölgələrdə seçim mərhələsi keçirilmişdir. 2019-cu ilin 23-25 iyun tarixində Bakı şəhərində III Respublika Xalq Teatrları Festivalının final mərhələsi, bağlanış mərasimi və I Respublika Xalq Teatrları Konfransı keçirilmişdir.

Xalq yaradıcılığının qorunması, inkişafı, təbliği istiqamətində uzunmüddətli və səmərəli fəaliyyət göstərmiş kollektivlərə “xalq” statusunun verilməsi ənənəsinə müvafiq olaraq və “Xalq özfəaliyyət kollektivlərinin nümunəvi Əsasnaməsi”ni rəhbər tutaraq İsmayıllı rayonunun “Lahıc folklor kollektivi”nə, Lənkəran rayonunun “Nənələr folklor kollektivi”nə, Şamaxı rayonunun “Şirvan” folklor qrupuna “xalq kollektivi” statusu verilmişdir.

Ölkəmizdə əl işləri sənətinin qədim və çoxşaxəli ənənələri vardır. Tarixin bütün inkişaf proseslərində Azərbaycan sənətkarlığı özünəməxsusluğu ilə seçilmiş, müxtəlif sənət sahələrinin texnologiyaları digər ölkələrə də məhz Azərbaycandan yayılmışdır. Respublikamızda xalq yaradıcılığının dinamik tərəqqidən proaktiv fazaya keçməsini stimullaşdıran və proqnozlaşdıran “Azərbaycan Xalq Yaradıcılığının 2019-2023-cü illər İnkişafına dair Strateji Fəaliyyət Planı”nda qarşıda duran beş il ərzində əl sənətkarlığının inkişafı məqsədilə tədbirlər planı müəyyənləşdirilmişdir. Həmin tədbirlər planında sənətkarlığın mədəni sənaye səviyyəsinə çatdırılması, sənətkarlıq məhsullarından milli mədəniyyətimizin tanıdılması məqsədilə istifadə edilməsi, gənc nəslə qədim sənət növlərinin sirlərinin öyrədilməsi, sənətkarlara emal və satış şəraitlərini yaxşılaşdırması üçün dəstək göstərilməsi nəzərdə tutulmuşdur. “Azərbaycan Xalq Yaradıcılığının 2019-2023-cü illər İnkişafına dair Strateji Fəaliyyət Planı” və Mədəniyyət Nazirliyinin 2019-cu ili üçün İş Planına uyğun olaraq cari ili 4-9 iyul tarixində milli sənətkarlıq nümunələrimizin sərgi və satışının təşkil olunduğu I Respublika Sənətkarlıq Festivalı keçirilmişdir.

Festivalda respublikamızın paytaxtı və regionlarından olan sənətkarların iştirakının təmin olunması məqsədilə sənətkarlığın müxtəlif istiqamətləri ilə peşəkar səviyyədə məşğul olan sənətkarlar dəvət edilmişdir. İnsanların festivala daha rahat gəlmələri üçün tədbir Nizami küçəsində açıq səma altında, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının qarşısındakı meydanda təşkil edilmişdir. Tədbir festival-yarmarka və karnaval formasında keçirilmişdir. Festival müddətində  tədbirin keçirildiyi ərazidə hər gün konsert proqramı və canlı musiqi təqdim edilmişdir. Festivalın keçirilməsi üçün 40 müxtəlif formalı, müasir tərtibatlı və hər birində 2-3 sənətkarın öz işlərini sərgilədiyi stendlər quraşdırılmışdır.

Tədbirə Bakı və Sumqayıt şəhəri, habelə Abşeron yarımadasının digər yerlərində fəaliyyət göstərən təxminən 60 sənətkar, bölgələrdən 40-a yaxın sənətkar, həmçinin, sənaye nümayəndəri- Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, “I love Baku” mağazalar şəbəkəsi, “Türbət” Yaradıcılıq Evi, ”Yasamal Əlillər Cəmiyyəti” İctimai Birliyi, Azəripək QSC, “Libraff” mağazalar şəbəkəsi və Bakı Milli Geyim Evi dəvət edilmişdir. Tədbirin keçirildiyi ərazidə məlumat mərkəzləri yaradılmışdır. Festival ərəfəsində əl işlərinin marketinqi sahəsində müasir,

innovativ üsulların istifadəsi, həmçinin milli dəyərlərin yaşadılması istiqamətində mütəxəssislərin və sənətkarların iştirakı ilə konfrans keçirilmişdir.

Festivalda gənc nəslə, ziyarətçilərə əl işləri sənətinin texnologiyasının öyrədilməsi, nümayiş etdirilməsi məqsədilə ustad dərsləri təşkil edilmişdir. Yeni, əl işləri sənətinin nümunələrinin təqdim olunması və onlara dəstək göstərilməsi üçün “wall art” və “street art” üçün şərait yaradılmışdı.

Festivalın cəlbediciliyinin artırılması üçün “şəhərcik” plan-quruluşundan istifadə edilmişdi. Belə ki, uyğun və ya yaxın sənətkarlıq istiqamətləri eyni stenddə yerləşdirilmiş və bu stendlər simvolik olaraq sənətkarlıq kəndini, qəsəbə və məhəlləni formalaşdırırdı. Beləliklə, festivalı ziyarət edən şəxslər “xalçaçılar kəndi”, “dulusçular məhəlləsi”, “misgərlər qəsəbəsi” və s. ilə tanış olmuşdurlar. Festival barədə kitabçalar və kataloqlar nəşr olunmuşdur.

Son illər xalq yaradıcılığının əhəmiyyətli istiqaməti olan folklor adət və ənənələrimizin yaşadılması, təbliği istiqamətində davamlı işlər görülmüşdür. Həmin işlərin daha da dayanıqlı xarakter alması, sistemli və silsilə addımların atılması məqsədilə “Azərbaycan Xalq Yaradıcılığının 2019-2023-cü illər üzrə İnkişafına dair Strateji Fəaliyyət Planı”nın bir fəsli milli folklorun növbəti beş ildə qorunması və təbliğinə həsr edilmişdir.

Respublikanın paytaxt və bölgələrində faəliyyət göstərən folklor kollektivlərinə dəstək göstərilməsi məqsədilə 2019-cu ilin sentyabr ayının 17-dən oktyabr ayının 31-dək Ənənəvi Respublika Folklor Festivalının Bakı şəhəri və bölgələrdə seçim mərhələsi keçirilmişdir.

2019-cu ilin 1 noyabr tarixində Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Ənənəvi Respublika Folklor Festivalının final mərhələsi və bağlanış mərasimi keçirilmişdir. Seçim mərhələsində regionlardan uşaq və böyüklərdən ibarət 70-dən artıq kollektiv iştirak etmişdir. Onlar arasında 21 kollektiv seçilərək final mərhələsinə dəvət edilmişdir. Festivalın qalib kollektivlərinə diplomlar təqdim edildi. Birinci yerə “Xəmsə” xalq kollektivi, ikinci yerə “Mel" kollektivi, üçüncü yerə “Zopu-zopu” kollektivi layiq görülmüşdür. Festivalda həmçinin ozan-aşıq sənətinin ən uğurlu nümayişi, multikultural dəyərlərin ən uğurlu nümayişlərinə görə fərqlənən kollektivlərə fəxri fərmanlar təqdim edilmişdir.

Dekabrın 4-də Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında nümayiş olunmuş, Kürdəmir Regional Mədəniyyət İdarəsi Beyləqan rayon Mədəniyyət Mərkəzinin “Gənclik” xalq teatrının hazırladığı “Mən bu cahana sığmazam” adlı tamaşaya təşkilatı və maliyyə dəstəyi göstərilmişdir.

Ənənəvi olaraq hər il Balakən rayonunda xurma, Zaqatala rayonunda fındıq, qoz və şabalıd, Göyçay rayonunda nar festivallarının və Quba rayonunda alma bayramının keçirilməsinə təşkilatı dəstək verilmişdir.

**Mədəni marşrutların inkişafı və marketinq**

Cari ilin 13-16 mart tarixində Yunanıstanın Loutra Pozar şəhərində Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasının (EHTTA) növbəti Baş Assambleyası keçirilmişdir.

İclasda Qəbələ şəhərinin 2019-cu ildə EHTTA ya üzv seçilməsi ilə bağlı layihənin koordinatoru Günel Aslanova tərəfindən təqdimat keçirilmişdir. EHTTA-nın üzv ölkələrinin və elmi komitənin nümayəndələrinin iştirak etdiyi təqdimat mərasimində həm Qəbələ rayonunun termal infrastruktur imkanları, həm də “Qəbələ Dövlət Tarixi Bədii Qoruğu” haqqında geniş məlumat verilmişdir. Təqdimatdan sonra çıxış edən EHTTA-nın prezidenti Cüzeppe Bellandi Azərbaycanın son illər təşkilatda aktiv fəaliyyətini bəyəndiyini va görülən işlərin, əməkdaşlığın bundan sonra da davam edəcəyini qeyd etdi. Xüsusən 2018-ci ildə Qalaaltıda keçirilmiş EHTTA-nın Baş Assambleyası haqqında məlumat vermişdir.

Avropa Şurasının Mədəni Marşrutları ilə ölkəmizin uğurlu əməkdaşlığını və Azərbaycanın “Zeytun ağacları mədəni marşrutu”na üzv olması baxımından əhəmiyyətini nəzərə alaraq cari ilin 10-11 aprel 2019-cu il tarixində Lüksemburq şəhərində Avropa Şurasının Mədəni Marşrutlar üzrə İdarə Heyətinin keçirilən növbəti iclasında nazirlik təmsil olunmuşdur. Qeyd olunan tədbirdə Avropa Şurasının 10 təsdiq edilmiş mədəni marşrutunun və sertifikatlaşdırma üçün

yeni namizədlərin, qiymətləndirilməsi aparılmışdır. Eyni zamanda Azərbaycanın "Zeytun ağacları mədəni marşrutu"na üzv olması üçün danışıqlar davam etdirilmişdir.

Nazirliyin 16 mart 2019-cu il tarixli 34-e nömrəli əmrinə əsasən Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsinin əməkdaşları və xalq dekorativ-tətbiqi və təsviri sənət ustalarından ibarət nümayəndə heyəti 24 aprel - 1 may 2019-cu il tarixində İtaliyanın Florensiya şəhərində keçirilmiş Beynəlxalq Əl İşləri Sərgisində iştirak etmişlər. Sərgidə dünyanın 50-ə yaxın ölkəsindən təqribən 600-ə qədər stend quraşdırılmışdır. Qeyd olunan sərgidə iştirak həm beynəlxalq mədəni təcrübə mübadiləsinə səbəb olmuş, həm də sənətkarlıq məhsullarının satışa çıxarılması sənətkarların stimullaşdırılmasına şərait yaratmışdır.

Nazirliyin müvafiq əmrinə əsasən "Zeytun ağacları" mədəni marşrutunun 4 eksperti (Georgios Karampatos – "Zeytun ağacları" mədəni marşrutunun Prezidenti və İcraçı Direktoru, Kanella Katsilieri - "Zeytun ağacları" mədəni marşrutunun Planlaşdırma və İnkişaf İdarəsinin rəhbəri, Edouard DeLaubrie - Avropa Mədəniyyətlər Muzeyinin direktoru, Aralıq dənizi hövzəsinin "Kənd təsərrüfatı və ərzaq" sahəsi üzrə eksperti, Louise Karapidaki - "Zeytun ağacları" mədəni marşrutunun Elmi Komitəsinin üzvü, ekspert) 20-24 may 2019-cu il tarixində Azərbaycanda səfərdə olmuşlar. Səfərin əsas məqsədi Azərbaycanın zeytunçuluq sahəsində mövcud təcrübəsinin və "Zeytun ağacları" mədəni marşrutuna qoşulmasının mümkünlüyünün araşdırılması olmuşdur.

Ekspert qrupunun səfərindən sonra onlar tərəfindən hazırlanmış hesabat Avropa Şurasına təqdim olunmuş və Azərbaycanın bu mədəni marşruta qoşulması yekdilliklə qəbul olunmuşdur.

Eyni zamanda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Avropa Şurasının "Zeytun ağacları" beynəlxalq mədəni marşrutu arasında Razılaşma sənədi imzalanmışdır. Beləliklə, adıçəkilən mədəni marşruta qoşulmaq üçün aparılan işlərin məntiqi nəticəsi kimi Azərbaycan cari ilin iyun ayının 12-də Avropa Şurasının "Zeytun ağacları" beynəlxalq mədəni marşrutuna daxil edilmişdir.

Nazirliyin müvafiq əmrinə əsasən Qazaxıstanın paytaxtı Nursultan şəhərində 28-30 iyun 2019-cu il tarixində "Kazakh tourism"-in təşkilatçılığı ilə keçirilmiş "Koşpəndilər Aləmi" adlı 2-ci Beynəlxalq Etnofestivalında Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. 16 ölkənin milli komandaların iştirakı ilə baş tutan etnofestivalda türk xalqlarının köçəri həyatı, adət-ənənələləri, rəqs, folklor, sənətkarlıq və ifa nümunələri nümayiş olunmuşdur. Azərbaycanı adiçəkilən etnofestivalda Lahıc folklor qrupu, 3 sənətkar, 2 çapar və 2 aşıq təmsil etmişdir.

Milli mədəniyyətimizin müxtəlif sahələrinin marketinqinin həyata keçirilməsi ilə bağlı hər birindən 200 (iki yüz) ədəd olmaqla "Azerbaijan Ashug Art", "Carpet Weaving Art", "Novruz Holiday", "Examples of Azerbaijan Heritage In UNESKO Lists", "Music Capital of the East", "National Clothes of Azerbaijan", "Azerbaijani Decorative-Applied and Visual Arts", "International Cultural Routes", "Azerbaijan Folk Art", "Museums and Galleries" adlı çap məhsulları hazırlanmış (ingilis dilində) İtaliyanın Florensiya şəhərində keçirilmiş Beynəlxalq Əl İşləri Sərgisində sərgi iştirakçılarına paylanılmışdır.

Ölkəmizin mədəniyyətinin tanıdılması və təbliği məqsədilə dünyada məşhur xarici televiziya kanalları olan "CNN" və "Euronews" telekanalları ilə əməkdaşlıq davam etdirilir. Belə ki, 2019-cu ildə mədəniyyətimizin müxtəlif sahələrinin tanıdılması və təbliği məqsədilə yeni videoçarxların nümayiş olunması ilə bağlı müqavilələr imzalanmışdır.

Bununla yanaşı, milli mədəniyyətimizin bir çox sahələrini əks etdirən müxtəlif məzmunlu videoçarxlar "Cinex LTD" ilə bağlanmış müqavilə əsasında cari ilin oktyabr-dekabr ayları ərzində "Dubai TV" televiziyasında yayımlanmış, "Calm Medya Reklamcılık İletişim Danışmanlık Ltd.Şti" şirkəti arasında imzalanmış müqaviləyə əsasən, adıçəkilən şirkət tərəfindən cari ilin iyul-dekabr ayları ərzində Türkiyənin "TV8", "Show TV", "KanalD" telekanallarında reklam kampaniyası aparılmışdır. Həmçinin GCP, S.L. Beynəlxalq Layihələr Alyansı ilə bağlanılmış müqavilə əsasında İspaniyanın "Radio Mediodia Cope" radio-kanalında Azərbaycanın mədəniyyətindən bəhs edən xüsusi radio proqramlar yayımlanmışdır.

10-15 sentyabr 2019-cu il tarixində Özbəkistanın Kokand şəhərindəki qədim Xudayar Xan sarayında Birinci Beynəlxalq Xalq Tətbiqi İncəsənət Festivalı təşkil olunmuşdur. Ölkəmizin müxtəlif bölgələrindən olan sənətkarlar tərəfindən hazırlanmış əl işləri və yeni sənətkarlıq nümunələrinin nümayiş etdirildiyi festivalda 70-ə yaxın ölkə iştirak etmişdir. Festival çərçivəsində əl işlərinin müxtəlif nominasiyalar üzrə müsabiqəsi keçirilmiş, beynəlxalq münsiflər heyəti tərəfindən 70-ə yaxın ölkədən iştirakçı sənətkarların əsərləri qiymətləndirilmişdir. Azərbaycan təmsilçiləri təsis edilmiş 11 nominasiya içərisində qaliblər sırasında olmuşlar. Ölkəmizi təmsil edən sənətkarın əl işləri "Ən canlı sənət işi" nominasiyası üzrə qalib sayılmış və mükafata layiq görülmüşdür.

Cari ilin 2-4 oktyabr Rumıniyanın Sibiu şəhərində Avropa Şurası Mədəni Marşrutlarının IX İllik Məşvərət Forumu keçirilmişdir. Sözügedən tədbirdə təmsil olunma ilə bağlı ilkin qərar Avropa Şurasının Mədəni Marşrutlar üzrə İdarə Heyətinin 9-12 aprel 2019–cu il tarixində Lüksemburq şəhərində keçirilmiş iclasın yekunlarına uyğun olaraq verilmişdir.

Hazırda Azərbaycan Avropa Şurasının 5 mədəni marşrutu - Yəhudi irsi üzrə Avropa marşrutu, Şərab Yolu, Qədim Qayaüstü İncəsənət İzləri, Avropa Tarixi Termal Şəhərləri, Zeytun ağacları mədəni marşrutu üzrə təmsil olunur.

Yerli və xarici ziyarətçilərin daha çox olduğu küçə, meydan və ictimai yerlərdə- Xətai prospekti, Azadlıq prospeskti, Parlament prospekti ilə M.Müşviq küçəsinin kəsişməsi, S.Vurğun küçəsi ilə Nizami küçəsinin kəsişməsi, Z.Əliyeva küçəsi ilə S.Vurğun küçəsinin kəsişməsi, S.Vurğun küçəsi ilə Bakıxanov küçəsinin kəsişməsi, R.Behbudov küçəsi (Xarici Dillər Universitetinin qarşısı), Təbriz küçəsi ilə Ə.Rəcəbli küçəsinin kəsişməsi, Azadlıq prospektində (28 Mall-ın qarşısı) yerləşən monitorlarda Azərbaycan mədəniyyətinin təbliği məqsədi ilə müxtəlif məzmunlu reklam-çarxlar nümayiş olunmuşdur.

## KİTAB DÖVRİYYƏSİ VƏ NƏŞRİYYATLARLA İŞ

Hesabat dövründə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən ölkədə kitaba, mütaliəyə marağın daha da artırılması, yaradıcı şəxslərin həyat və yaradıcılığının ətraflı şəkildə öyrənilməsi məqsədilə ardıcıl olaraq incəsənət və ədəbiyyat xadimləri, mədəniyyət müəssisələri haqqında nəşr layihələri, dövlətin mədəniyyət siyasətinə uyğun müxtəlif mövzularda yüksək məzmunlu kitabların çapı, görkəmli yazıçı və şairlərin yubileylərinin, kitab sənəti ilə bağlı tədbirlərin təşkili və digər bu kimi mühüm işlərin icrası həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında", "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında", "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında", "Cəfər Cabbarlının 120 illiyinin qeyd edilməsi haqqında", "İsmayıl Şıxlının 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamlarına əsasən tədbirlər planı hazırlanmış və icrası təmin edilmişdir.

Hesabat dövrü ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə həsr olunan "İnkişaf – məqsədimizdir" kitabının 76-86-cı cildlərinin nəşri "Azərnəşr" tərəfindən başa çatdırılmışdır.

"Azərbaycan" qəzeti redaksiyasının "Azərbaycan qədər əbədi" silsiləsindən nəşr etdirdiyi kitab təkmilləşdirilmiş və genişləndirilmiş II cilddə Azərbaycan və ingilis dillərində Mədəniyyət Nazirliyinin dəstəyi ilə çap edilmişdir. Kitab ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər ərzində çoxsaylı insanın həyatında oynadığı rolu əks etdirir.

Mədəniyyət Nazirlliyinin dəstəyi ilə Kəmaləxanım Əsədullayeva "Heydər Əliyev haqqında Oda", Üzeyir Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları", "Qara Qarayevin "Yeddi gözəl" baleti. Səhnə həyatının tarixi" (rus dilində), Sabir Mustafa "Poeziya çələngi" (ingilis dilində), Rafiq Hacıyev "Əhsən sənə, Əhsən", Vaqif İsaqoğlu "Tovuzuz saz, söz dünyası", Allahverdi Eminov "Professor Nizami Xudiyevin həyat və yaradıcılıq yolu", İ.Şıxlı "Mir moy umerşiy", Səməd Mənsur "Şeirlər, felyetonlar, pyeslər", Kəmalə Cahangirova "Qanun məktəbi", Mirali Mirkasimov "Jizn i tvorçestvo",Elçin "Baş", Elçin "Daha dərin qatlara (seçilmiş məqalə və esselər)", Elçin "Qırx Beş (seçilmiş hekayələr)", Məhərrəm Qasımlı "Azərbaycan aşıq

ədəbiyyatı", Nizaməddin Şəmsizadə "İdrakın üfüqləri", Qəzənfər Paşayev "Nəsimi: edamdan sonrakı həyat", "Məmmədağa Umudov", İslam Sadıq "Azərbaycanda kitab mədəniyyəti", Musa Yaqub "Gərək bu sözümü daşlara yazım", "Belarus uşaq antologiyası", R.Qəmbərov, A.Novruzov "Foto kompozisiya", E.İsgəndərov "Azərbaycan violoçel məktəbi inciləri" I cild, "Xarici ölkə bəstəkarlarının əsərlərindən ibarət köçürmələr", Gülniyar Qurban qızı "Vətən fədailəri", "Vətən haqqında nəğmələr", Metodiki tövsiyə "Dövlət qilluğu haqqında", "Mədəniyyət Nazirliyinin nomenklaturasına aid olan əməkdaşlar haqqında statistik toplu", Q.Z.Taqiyev "Neotlojniye nujdı neftyanoy promışlennosti", U.Qadjibekov "İskusstvo Azerbaydjana", Ü.Hacıbəyov "Vətən, millət, ordu", N.Gəncəvi "Xarəzm gözəlinin hekayəti", N.Gəncəvi "Slavyan gözəlinin hekayəti", N.Qyandjevi "Priyezd İskendera v Bardu i vstreça eqo s Nuşaboy", N.Qyandjevi "Povest o Nuşiravane i yevo vizire", M.Fizuli "Spor plodov", R.Rza "Çöl quşları", Q.Qasımzadə "Şəfa çantası", E.Mejelaytis "Dovşan oğlan", E.Borçalı "Şah və qoca", S.Məmmədzadə "Nənəmin nağılı", "Boz pişik və qara pişik" kitabları, görkəmli mədəniyyət xadimlərinin 45 adda portretləri işıq üzü görmüşdür.

Almaniyada Azərbaycan musiqisinin geniş təbliği, Avropalı gənc nəslə Azərbaycan musiqisinin parlaq simalarını tanıtmaq məqsədilə Nazirliyin dəstəyi və Avropa Mədəniyyətlərarası Əməkdaşlıq Forumunun təşkilatçılığı ilə Almaniyada "Bellmann" musiqi nəşriyyatında "Qara Qarayev – Seçilmiş fortepiano əsərləri" kitabı çap olunmuşdur. Alman dilində şərhlərlə nəşr olunan kitaba, həmçinin Azərbaycanın Əməkdar artisti Elnarə İsmayılovanın ifasında Qara Qarayevin fortepiano əsərlərindən ibarət audio disk daxil edilmişdir.

Cari ilin əvvəlində "Zengin Yayıncılık" nəşriyyatı ilə bağlanmış müqaviləyə əsasən görkəmli şairlərimiz Nizami Gəncəvinin 5 kitabdan ibarət "Xəmsə"sinin və İmadəddin Nəsiminin şeirlərindən ibarət 1 kitabın türk dilində yüksək keyfiyyətlə çapı və Türkiyədəki təhsil müəssisələrində, kitabxanalarda, dərnəklərdə yerləşdirilməsi işinə başlanılmışdır. Layihə üzrə Nizami Gəncəvinin "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" və "İ.Nəsimi. İraq divanı" (hər kitab 2 000 tirajla), N.Nərimanovun "Bahadır və sona", akademik Nizami Cəfərovun "Azərbaycan ədəbiyyatı tarixinin etüdləri" kitablarının nəşri başa çatdırılmışdır. Bu layihə çərçivəsində bu günə kimi 30 müəllifin 46 adda kitabı (ümumilikdə 212 000 min nüsxə) türk dilində nəşr edilərək Türkiyəli oxucuların diqqətinə təqdim olunmuşdur.

"Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2019-cu il tarixli Fərmanının 1-ci bəndinə əsasən Mədəniyyət Nazirliyinin tabeliyindəki kitabxanalar ləğv edilmişdir. Fərmanın 2-ci bəndinə əsasən isə Mədəniyyət Nazirliyinin tabeliyində yeni, mütərəqqi və ölkənin bütün ərazisini əhatə edəcək kitabxana sisteminin yaradılması məqsədilə Komissiya yaradılmışdır. Eyni zamanda Fərmanda Komissiyaya 6 ay müddətində informasiya-kommunikasiya texnologiyalarının imkanları, habelə mövcud tələbat nəzərə alınmaqla yeni kitabxana sisteminin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tapşırılmışdır.

Fərmanın icrası ilə bağlı Azərbaycan Respublikası Mədəniyyət nazirinin əmrinə əsasən geniş tərkibdə işçi qrupu yaradılmış, müvafiq sahə üzrə ekspertlərin də iştirakı ilə Azərbaycan xalqının elmi, ədəbi və informasiya tələbatının yüksək səviyyədə ödənilməsini təmin etmək məqsədilə yeni kitabxana sisteminin layihəsi hazırlanmışdır. Layihədə ölkəmizdə müasir kitabxana şəbəkəsinin qurulması, səmərəli kitabxana informasiya xidmətlərinin formalaşdırılması, müfəssəl kitab fondunun komplektləşdirilməsi, qabaqcıl beynəlxalq təcrübəyə və müasir metodologiyaya əsaslanan kitabxana fəaliyyətinin təmin edilməs öz əksini tapmışdır. Layihə Komissiyanın iclasında müzakirə edilmiş bütün rəy və təkliflər nəzərə alınmaqla yenidən işlənərək Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilmişdir.

Ölkədə kitaba, mütaliəyə marağın daha da artırılması, Azərbaycan oxucusunun yerli və xarici nəşr məhsulları ilə yaxından tanışlığı, eyni zamanda yerli və xarici nəşriyyatlar, kitab

evləri arasında yeni əməkdaşlıq imkanlarının yaradılması məqsədilə ənənəyə uyğun olaraq cari ilin 27-29 sentyabr tarixində Bakı İdman Sarayında VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçirilmişdir. Sərgi-yarmarka böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilmişdir. Ötən sərgilərdə olduğu kimi, bu dəfə də 6 kv.m. həcmində sərgi sahəsi və stend avadanlıqları iştirakçılara ödənişsiz verilmiş, naşirlərlə, müəlliflərlə oxucuların görüşü, kitabsevərlərin tələbatının ödənilməsi üçün sərgi ziyarətçilər üçün tam açıq olmuşdur. VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasında 22 ölkədən 40 xarici və 81 yerli nəşriyyat-poliqrafiya müəssisəsi, aidiyyəti təşkilatlar özlərinin müxtəlif nəşr məhsullarını nümayiş etdirmişdir. Sərginin davam etdiyi üç gün ərzində həm Mədəniyyət Nazirliyinin, həm də müstəqil nəşriyyatların və digər qurumların təşkilatçılığı ilə 72 tədbir (beynəlxalq konfranslar, təqdimat mərasimləri, yubileylər, yazıçı-şairlərlə görüşlər, imza günləri və s.) keçirilmişdir. Sentyabrın 27-də sərginin açılış mərasimində yüksək vəzifəli şəxslər, rəsmi qonaqlar, ölkəmizdəki səfirlər, diplomatik nümayədəliklərin əməkdaşları, ziyalılar, ictimaiyyət təmsilçiləri iştirak etmişdir. Ötən sərgilərdən fərqli olaraq VI sərgi-yarmarkada ölkənin aparıcı nəşriyyatları olan “Şərq-Qərb”, “Təhsil”, “TEAS Press”, “Max Offset” xüsusi dizaynlı stendlə kitabsevərlərin görüşünə gəlmişdir. İştirakçılara fəxri diplomlar verilmiş, Nazirliyin və ictimaiyyətin nümayəndələrindən ibarət komissiyanın sərgi müddətində apardığı təhlillərə əsasən sərgi-yarmarkanın “Ən yaxşı nəşriyyat” və “Ən yaxşı kitab” mükafatlarının qalibləri müəyyənləşdirilmişdir. “Ən yaxşı nəşriyyat” mükafatına “Teas Press” nəşriyyatı, “Ən yaxşı kitab” mükafatına isə Şərəf Cəlillininin "Seyid İmadəddin Nəsimi: həqq idi, həqq söylədi, həqq dedi" kitabı layiq görülmüşdür. Sentyabrın 27-də M.F.Axunzadə adına Azərbaycan Milli Kitabxanasında “Kitabxanalar mobil informasiya mərkəzi kimi” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində təşkil olunan konfransda 14 ölkədən 26 kitabxana işi üzrə mütəxəssis, eləcə də yerli kitabxanaların əməkdaşları iştirak etmişdir.

Xalq teatrlarının repertuarlarını kiçik həcmli tamaşalarla zənginləşdirmək, ədəbi-bədii və mövzu baxımından yüksək dəyərə malik dram əsərlərinin yazılmasına stimul vermək, yeni nəsil dramaturqların ədəbi yaradıcılığını dəstəkləmək, tamaşaçıların estetik və mənəvi zövqünün ödənilməsi üçün birpərdəli pyeslər əsasında müasir tamaşaların hazırlanmasını təmin etmək məqsədilə “Birpərdəli pyeslər” müsabiqəsi təşkil edilmişdir. Müsabiqəyə təqdim olunan 29 pyes komissiyanın 9 üzvü tərəfindən mövzu, bədii və teatral baxımdan dəyərləndirilmiş və əsərlərə hər bir üzv tərəfindən 10 ballıq şkala əsasında qiymət verilmişdir. “Birpərdəli pyeslər” müsabiqəsinin komissiyasının fərdi qiymətləndirmə cədvəlinə əsasən alınmış ümumi nəticəyə müvafiq olaraq Firuz Mustafanın “Payız meşəsində vals” pyesi I yer, Cavid Zeynallının “Ölümə gedən” pyesi II yer, Sevinc Nuruqızının “Al çobanyastığı ləçəkləri” pyesi III yer tutmuşdur. Aprelin 30-da Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Mədəniyyət Nazirliyi tərəfindən elan olunan “Birpərdəli pyeslər” müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi keçirilmişdir. Müsabiqənin I yer üzrə qalibinə 2000 (iki min), II yer üzrə qalibinə 1500 (bir min beş yüz), III yer üzrə qalibinə 1000 (bir min) manat məbləğində pul mükafatı və nazirliyin xüsusi diplomu təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən 2018-2019-cu illər üzrə yüksək bədii və sənətkarlıq keyfiyyətlərinə malik ədəbi əsərlərin dəyərləndirilməsi, təbliği, istedadlı ədiblərin səmərəli yaradıcılıq axtarışlarına zəmin yaradılması məqsədi ilə təsis edilmiş “Qızıl Kəlmə” Ədəbi Mükafatına əsərlərin qəbulu aparılmışdır. Müsabiqəyə 5 nominasiya üzrə 58 əsər təqdim edilmişdir. Akademik Nizami Cəfərov, Xalq şairi Sabir Rüstəmxanlı, Azərbaycan Yazıçılar Birliyinin katibi, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, professorlar Nizaməddin Şəmsizadə, Telman Cəfərov, filologiya elmləri doktoru, tənqidçi Vaqif Yusifli, “Ədəbiyyat qəzeti”nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Azər Turan və filologiya üzrə fəlsəfə doktoru Elnarə Akimovadan ibarət mükafat komissiyası tərəfindən bütün əsərlər oxunmuş və hər nominasiya üzrə qiymətləndirilmişdir. 2018-2019-cu illər üçün “Qızıl Kəlmə” Ədəbi Mükafatının qalibləri nəsr nominasiyası üzrə Şərif Ağayarın “Arzulardan sonrakı şəhər” və Mübariz Örənin “Balıq gülüşü” kitabları, poeziya nominasiyası üzrə Salam Sarvanın “Heykəl

tənhalığı", Vaqif Bəhmənlinin "Qansız savaş" və İbrahim İlyaslının "Şair olmaq zülümdü" kitabları, ədəbi tənqid və publisistika nominasiyası üzrə Yaqub Babayevin "Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər)" və Abid Tahirlinin "Mətbuat: millətin dili, gücü və güzgüsü" kitabları, orijinaldan bədii tərcümə nominasiyası üzrə Vilayət Hacıyevin tərcüməsində Haynrix Böllün "Kişisiz ev" və Seyfəddin Hüseynlinin tərcüməsində Culian Barnsın "Aqibət duyğusu" romanları, uşaqlar üçün yazılmış bədii əsərlər nominasiyası üzrə Reyhan Yusifqızının "Dostum Mimi", Solmaz Amanovanın "İlmənin macəraları" və Rafiq Yusifoğlunun "Nağıl qapısı" kitabları olmuşdur. Bunlarla yanaşı, Şahanə Müşfiqin "Şahanənin nağılı" və Sadıq Qarayevin "Sahibsiz kölgələr" kitabları "Qızıl Kəlmə" Ədəbi Mükafatı çərçivəsində "Şans" ödülünə layiq görülmüşdür. 17 may tarixində Beynəlxalq Muğam Mərkəzində mükafatlandırma mərasimiz keçirilmiş, qaliblərə diplom, pul mükafatı və xüsusi plaket hədiyyə edilmişdir.

Cari ilin 31 yanvar tarixində paytaxtın Suraxanı rayonunun Əmircan qəsəbəsindəki Mədəniyyət evində Mədəniyyət Nazirliyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə görkəmli şair Səməd Mənsurun (1879-1927) 140 illiyinə həsr olunmuş "Həpsi rəngdir" adlı ədəbi-bədii tədbir keçirilmişdir. Tədbir çərçivəsində Azərbaycan Milli Kitabxanasının nəşr etdirdiyi "Səməd Mənsur. Biblioqrafiya", Yadigar Əsgərovanın "Səməd Mənsur. Həyatı və yaradıcılığı" və akademik Nizami Cəfərovun Türkiyədə çap olunan "Samed Mansurun şiiri" kitablarının təqdimatı olmuşdur.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin dəstəyi ilə 2019-cu ildə Dördüncü Buktreyler Festivalına start verilmişdir. 2 Fevral Gənclər Günündən start götürən festival 23 aprel Beynəlxalq Kitab Günündə başa çatmışdır. Buktreylerlər 1 aprel tarixinə kimi qəbul edilmişdir. Festival Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Kitabı tanıdın, kitabla tanının!" devizi altında keçirilmişdir. Mayın 1-də Beynəlxalq Muğam Mərkəzində IV Buktreyler Festivalı qaliblərinin mükafatlandırılma mərasimi keçirilmişdir. Eybulla Ağadadaşov (buktreyler "Üçüncü addım. Rəqəmsal meşə", yazar – Qaraqan) I yerə, Ruslan Zeynalov ("Bakıdan sevgilərlə", Samid Ağayev), Rəşad Hüseynov ("Gəncsən? Başla!", Nadir Adilov) II yerə layiq görüldülər. Şövkət Məhərrəmova ("6:45 qatarı", Ramiz Rövşən) və Vüsal Həmdullayev ("Dünənəm! Bu günəm! Gələcəyəm mən!", Xəlil Rza Ulutürk) üçüncü yerin sahibi oldular. Bundan əlavə, "Tamaşaçı simpatiyası" nominasiyasında Gülşən Quliyeva ("Anamın portreti", Gülzar İbrahimova) və "Ən yaxşı mobil buktreyler" nominasiyasında Sadiq Fərzəlibəyli "On dördüncü adam", Elxan Elatlı) mükafatlandırılmışdır.

Cari ilin 6-10 fevral tarixində Belarusda keçirilmiş XXVI Minsk Beynəlxalq Kitab Sərgi-Yarmarkasında Nazirliyin təşkilatçılığı və "Azərnəşr"in iştirakı ilə 8 kv.m. sahədə milli ekspozisiya qurulmuş, respublikamızda işıq üzü görmüş nəşr məhsulları nümayiş etdirilmişdir.

14 Fevral – "Beynəlxalq kitab bağışlama günü" münasibətilə Respublika Uşaq Kitabxanası 5 saylı "ASAN Xidmət" mərkəzində kitab bağışlama aksiyası, Milli Kitabxananın nəzdində fəaliyyət göstərən "Açıq kitabxana"da isə tədbir keçirilmişdir.

Hesabat dövrünün 22 fevral tarixində Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Söz" ədəbi layihəsinin növbəti tədbiri keçirilmişdir. Tədbirin qonağı tanınmış yazıçı Varis Yolçuyev olmuşdur. Layihə çərçivəsində mayın 24-də daha bir tədbir təşkil edilmişdir. Tədbirin qonaqları Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və gənc müəlliflər olmuşdur.

Cari ilin fevral ayının 15-də Milli Kitabxanada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli alimi, pedaqoqu, elm və təhsil təşkilatçısı, ictimai xadim, Dövlət mükafatı laureatı, fizika-riyaziyyat elmləri doktoru, akademik Arif Mir Cəlal oğlu Paşayevin 85 illik yubileyi ilə əlaqədar olaraq "Akademik Arif Paşayev" adlı geniş kitab sərgisinin açılış mərasimi olmuşdur.

TÜRKSOY-un Ankaradakı mənzil qərargahında 2019-cu ilin 6 mart tarixində "Nəsimi ili"nin açılış mərasimi keçirilmişdir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, TÜRKSOY və Azərbaycan Milli Kitabxanası tərəfindən birgə təşkil olunmuş mərasimdə nazirlər, digər ali vəzifəli şəxslər, səfirlər, diplomatik korpusun məsul əməkdaşları, görkəmli ədəbiyyatçılar, QHT və KİV təmsilçiləri iştirak etmişdir. Mərasimin rəsmi hissəsində TÜRKSOY-un baş katibi Düsen Kaseinov, mədəniyyət naziri Əbülfəs Qarayev, Türkiyə Prezidentinin Baş müşaviri Yalçın

Topçu və Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Əhməd Haluk Dursun çıxış etmiş, panel hissəsində isə Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov, Türk Şurası Ağsaqqallar Məclisinin üzvü, Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı, professor Mustafa İsen, professor Ahmed Bican Ercilasun Nəsiminin həyat və yaradıcılığına dair fikir və mülahizələrini bölüşmüşdür. Mərasim Türkiyə Prezidenti Administrasiyasının Simfonik Orkestrinin geniş konsert proqramı ilə davam etmişdir.

Türkiyədə "Nəsimi ili" çərçivəsində martın 7-də İstanbulda Türk Ədəbiyyat Vəqfində Azərbaycanın dahi şairi İmadəddin Nəsimi yaradıcılığına həsr olunmuş tədbir keçirilmişdir.

Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış yazıçı, dramaturq, publisist, ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illiyi münasibətilə Respublika Gənclər Kitabxanasında "Cəlil Məmmədquluzadə - 150" adlı kitab sərgisi açılmış, martın 12-də "Cəlil Məmmədquluzadə irsi" adı altında mühazirə təşkil olunmuşdur.

AMEA-nın Elmi Kitabxanasının Konfrans zalında cari ilin 14 mart tarixində F.Köçərli adına Respublika Uşaq Kitabxanası və Ukrayna Milli Uşaq Kitabxanası arasında "Sərhəd bilməyən incəsənət" lahiyəsi çərçivəsində skayp vasitəsilə "Milli geyimlər və folklor" adlı virtual görüş keçirilmişdir.

Hesabat dövrünün 1-4 aprel tarixində İtaliyanın Bolonya şəhərində keçirilən, 55 illik tarixə və beynəlxalq nüfuza malik Bolonya Beynəlxalq Uşaq Kitab Sərgisində Nazirlik təmsil olunmuşdur. Yerli nəşriyyatlarımız – "Şərq-Qərb", "Qələm", "Altun kitab" və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşlarının da iştirak etdiyi sərgi zamanı xüsusi dizaynda hazırlanmış Azərbaycan stendində 4 gün boyunca Azərbaycan mədəniyyəti, kitab sənəti, xüsusi ilə Azərbaycan uşaq ədəbiyyatı tanıdılmış, kitab təqdimatları təşkil edilmiş, nəşriyyat və poliqrafiya sahəsində xarici tərəfdaşlarla əlaqələr qurulmuşdur.

Cari ilin 19 aprel tarixində Azərbaycan Milli Kitabxanasında ölkə başçısının müvafiq Sərəncamına əsasən Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı nasir, tanınmış ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, Xalq yazıçısı İsmayıl Şıxlının 100 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbir çərçivəsində "İsmayıl Şıxlı. Biblioqrafiya" kitabının və "İsmayıl Şıxlı – 100" elektron məlumat bazasının da təqdimatları olmuşdur.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikasının Macarıstandakı Səfirliyinin, Yunus Emre İnstitutunun və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə 2019-cu il 24 aprel tarixdə Budapeşt şəhərində, Yunus Emre İnstitutunda böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-musiqili tədbir keçirilmişdir.

Heabat ilinin Aprel ayının 26-da Milli Kitabxanada Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 96-cı ildönümü münasibətilə "Zərifə Əliyeva – qaranlığa nur saçan zəka" adlı geniş kitab sərgisi açılmışdır.

May ayının 8-də Milli Kitabxanada Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş tədbir və "Azərbaycanın özü qədər əbədi olan şəxsiyyəti - Heydər Əliyev" adlı sərginin açılış mərasimi keçirilmişdir.

Respublika Gənclər Kitabxanasında 2019-cu ilin 21 may tarixində Cəfər Cabbarlının anadan olmasının 120 illiyi münasibəti ilə "Mən bir susmaz duyğuyam ki..." adlı ədəbi-bədii gecə keçirilmişdir.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında 2019-cu ilin 24 may tarixində Xalq şairi Vaqif Səmədoğlunun xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir. Əvvəlcə teatrın foyesində şairin kitabları, haqqında dövrü mətbuatda yazılan məqalələrdən ibarət sərgiyə baxış olmuşdur. Sonra Xalq şairi Vaqif Səmədoğlunun "Generalın son əmri" əsəri əsasında hazırlanan eyniadlı ikihissəli tragikomik tamaşası nümayiş etdirilmişdir.

İyul ayının 11-də Milli Kitabxanada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişinin 50-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.

Sentyabrın 28-də Milli Kitabxanada TÜRKSOY Beynəlxalq Təşkilatı ilə birgə VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində Başqırdıstan Respublikasının Xalq şairi Mustay Kərimin anadan olmasının 100 illiyinə həsr olunmuş konfrans və “Mustay Kərimin əsərləri türk dillərində” kitabının təqdimat mərasimi keçirilib. Tədbirdən öncə Azərbaycan Milli Kitabxanası ilə Qazaxıstan Akademik Milli Kitabxanası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır.

MDB-nin “Dövri mətbuat, kitab nəşri, yayımı və poliqrafiya sahəsində əməkdaşlıq üzrə Dövlətlərarası Şura”sının 28-29 noyabr 2018-ci ildə Düşənbədə keçirilmiş 23-cü iclasında Əsasnaməyə uyğun olaraq 2019-cu ildə Azərbaycan Respublikasının Şuraya sədrliyi haqqında qərar qəbul edilmişdir. Sədrlik çərçivəsində 30 may 2019-cu ildə Bakıda Azərbaycan Milli Kitabxanasında MDB-nin XVI “Kitab sənəti” Beynəlxalq müsabiqəsinin münsiflər heyətinin iclası keçirilmişdir. Müsabiqədə Azərbaycanla yanaşı, Rusiya Federasiyasının, Qazaxıstan, Qırğız, Belarus və Tacikistan Respublikalarının, Türkmənistanın nəşrləri müxtəlif nominasiyalar üzrə mükafatlar üçün yarışmışdır. Münsiflərin iclasında iştirak üçün Rusiya Federasiyasından, Qazaxıstan, Qırğız, Belarus və Tacikistan Respublikalarından nümayəndələr Bakıya gəlmişdir. Budəfəki müsabiqəyə Azərbaycandan 9 nominasiya üzrə 14 adda kitab təqdim olunmuşdur. Səsvermənin nəticələrinə əsasən, Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasının nəfis tərtibatlı nəşri (“Şərq Qərb” nəşriyyatı) müsabiqənin Qran-pri mükafatına layiq görülmüşdür. Bununla da ölkəmiz növbəti dəfə bu müsabiqənin baş mükafatını qazanmışdır. Bundan əlavə, “Birlik” nominasiyası üzrə “Qara Qarayevin “Yeddi gözəl” baletinin səhnə həyatının tarixi” nəşri (Natalya Dadaşova) I yerə, Mir Cəlalın “Publisistika” və “Ədəbi tənqid” kitabları xüsusi diplomla, “Ölkəm” nominasiyasında “Vətənim Azərbaycan” (Aydın Aslanov və Rauf Hüseynzadə) kitabı II yerə, “Uşaqlar və gənclər üçün kitab” nominasiyası üzrə “Klassiklərin əsərlərindən seçmələr” seriyası I yerə, “İllüstrasiya sənəti” nominasiyası üzrə “Yuxunun sehri” (Aytən Yadigarlı) II yerə, “Mədəni dialoq” üzrə “Dədə Qorqud kitabı” (Vatikan nüsxəsi) II yerə, “Elm və innovasiya” nominasiyasında Əhəd Canəhmədovun “Mühəndisliyin fəlsəfəsi” kitabı I yerə, Şəmil Sadiqin “İsa Muğanna yaradıcılığı “İdeal” işığında” kitabı xüsusi diploma, “Məktəbli ədəbiyyatı və təhsil” nominasiyasında Müşfiq Xanın “6-11-ci siniflər üçün “Biologiya” nəşri I yerə, “Məktəblinin kitabxanası” seriyasından “Koroğlu” və “Dədə Qorqud” kitabları isə xüsusi diploma, müsabiqənin “Art kitab” nominasiyası üzrə Çingiz Qacarın “Köhnə Şuşa” kitabı II yerə layiq görülmüşdür.

Cari ilin 30 may tarixində Şamaxıda Azərbaycanın görkəmli yazıçıları və şairlərin iştirakı ilə “Sabir poeziya günləri”nə start verilmişdir. “Sabir poeziya günləri” Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin birgə layihəsi əsasında keçirilmişdir. “Sabir poeziya günləri” çərçivəsində mayın 31-də Rəşid Behbudov adına Mahnı Teatrında poeziya axşamı təşkil edilmişdir. Tanınmış şair və yazıçıların iştirak etdiyi tədbirlərdə Mirzə Ələkbər Sabir poeziyasının bənzərsizliyindən söhbət açılmış, konsert proqramı təqdim olunmuşdur.

2019 cu ilin 3 iyul tarixində Milli Kitabxananın nəzdində fəaliyyət göstərən Açıq Kitabxanada UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil olunmuş 1-ci Respublika Sənətkarlıq Festivalı münasibətilə “Azərbaycan Xalq Sənətkarlığı” adlı geniş kitab sərgisi təşkil olunmuşdur.

Cari ilin 16 iyul tarixində Beynəlxalq Muğam Mərkəzində Əməkdar memar, Dövlət mükafatı laureatı, akademik Rasim Əliyevin 85 illiyi və ona həsr olunmuş “Keçmişdən gələcəyə” adlı kitabın təqdimat mərasimi keçirilmişdir.

2019-cu il avqust ayının 26-da Milli Kitabxanada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESKO və İSESKO-nun

xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ictimai fəaliyyətinə həsr olunmuş "Milli mənəvi dəyərlərimizin təəssübkeşi" adlı tədbir keçirilmişdir.

Hesabat dövrünün 4-8 sentyabr tarixində 32-ci Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasında ölkəmiz Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 36 kv.m. sahədə xüsusi dizaynlı stendlə və 200 adda, 400 nüsxədən çox kitabla təmsil olunmuşdur. Mədəniyyət Nazirliyi ilə yanaşı "Azərnəşr" və "Şərq-Qərb" nəşriyyatları və "Azərkitab" kitab ticarəti mərkəzi sərgidə iştirak etmişdir. Sərgi çərçivəsində sentyabrın 6-da MDB-nin "Kitab sənəti" beynəlxalq müsabiqəsinin qalibləri diplomlarla təltif olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Hüseyn İbrahimovun 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamına əsasən oktyabrın 8-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq yazıçısı Hüseyn İbrahimovun 100 illik yubileyi qeyd olunmuşdur.

R.Behbudov adına Dövlət Mahnı Teatrında cari ilin 15 oktyabr tarixində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, "Samur" Ləzgi Milli Mədəniyyət Mərkəzi və "Samur" qəzeti redaksiyasının təşkilatçılığı ilə Dağıstan poeziyasının görkəmli nümayəndələrindən biri Süleyman Stalskinin anadan olmasının 150 illiyinə həsr olunmuş təntənəli gecə keçirilmişdir.

Hesabat ilinin 16-20 oktyabr tarixində Frankfurtda keçirilən 71-ci beynəlxalq kitab sərgisində ölkəmiz Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 56 kv.m. sahədə xüsusi dizaynlı stendlə təmsil olunmuşdur. Sərgi çərçivəsində Azərbaycan Milli Kitabxanası ilə Humboldt adına Berlin Universiteti arasında əməkdaşlıq haqqında Memorandum imzalanmışdır. Oktyabrın 17-də milli pavilyonda "Məndə sığar iki cahan-mən bu cahana sığmazam" adlı ədəbi-bədii tədbir baş tutmuşdur.

Cari ilin 22-30 oktyabr tarixində Mədəniyyət Nazirliyinin dəstəyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə "Uşaq kitab karvanı – Bölgələrdə" layihəsi çərçivəsində səyyar kitab sərgisi Azərbaycanın (Zərdab, Göyçay, Ağdaş, Ucar, Mingəçevir, Yevlax, Bərdə və Tərtər) şəhər və rayonlarında baş tutdu.Tədbir ərəfəsində Karvanla bölgələrə yola düşən uşaq yazarlarının da imza saatları təşkil edilmişdir.

2019-cu ilin 2-10 noyabr tarixində İstanbulda keçirilən 38-ci beynəlxalq kitab sərgisində ölkəmiz 300 adda, 600 nüsxədən çox nəşr məhsulu ilə təmsil olunmuşdur. Eyni zamanda Mədəniyyət Nazirliyinin "Azərbaycan kitabının dünyada tanıdılması" layihəsi çərçivəsində türk dilinə çevrilən 46 adda Azərbaycan ədəbiyyatı da ziyarətçilərə təqdim edilmişdir.

Hesabat ilinin noyabr ayının 5-də Milli Kitabxanada Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə Azərbaycanın görkəmli şərqşünas alimi, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 80 illik yubileyi münasibətilə Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr etdirdiyi "Aida İmanquliyeva. Biblioqrafiya" kitabının və "Aida İmanquliyeva – 80" adlı Elektron məlumat bazasının təqdimat mərasimi keçirilib.

2019-cu ilin 18 noyabr tarixində Mədəniyyət Nazirliyi, TÜRKSOY, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə görkəmli ədib və ictimai xadim Cəlil Məmmədquluzadənin 150 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. Konfrans çərçivəsində Milli Kitabxananın "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr etdiyi "Cəlil Məmmədquluzadə. Biblioqrafiya" kitabı və "Cəlil Məmmədquluzadə - 150" elektron məlumat bazasının təqdimatı olmuşdur. Konfransda Bolqarıstan, Polşa, Türkiyə, Özbəkistandan dəvət olunmuş Cəlil Məmmədquluzadə tədqiqatçıları, böyük ədəbin nəslinin davamçıları – nəticəsi Martin Cavanşiri və kötücəsi Przemislav Cavanşiri iştirak etmişdir.

MDB-nin Dövri mətbuat, kitab nəşri, kitab yayımı və poliqrafiya sahəsində əməkdaşlıq üzrə Dövlətlərarası Şuranın 24-cü iclası Şuraya Azərbaycanın sədrliyi çərçivəsində noyabrın 21-də Bakıda keçirilmişdir. Azərbaycan Milli Kitabxanasında baş tutan iclasda Azərbaycan Respublikasının, Qazaxıstan Respublikasının, Qırğız Respublikasının, Rusiya

Federasiyasının, Tacikistan Respublikasının, MDB İcraiyyə Komitəsinin, Müstəqil dövlətlərin kitabyayıcıları Assosiasiyasının nümayəndələri və digər şəxslər iştirak etmişdir. İclasda müxtəlif məsələlər müzakirə edilmiş, bir sıra qərarlar qəbul olunmuşdur.

2019-cu ilin 22 noyabr tarixində Azərbaycan Milli Kitabxanasında Xalq yazıçısı Elçinin yeni işıq üzü görən kitablarının təqdimatı keçirilmişdir. Mədəniyyət Nazirliyi və Milli Kitabxanasının birgə təşkilatçılığı ilə keçirilən mərasimdə görkəmli yazıçının “Baş” romanı, “Qırx beş. Seçilmiş hekayələr”, “Daha dərin qatlara. Seçilmiş məqalə və esselər” və “Mənə niyə gülürlər” kitabları təqdim olunmuşdur.

2019-cu ilin 23 noyabr tarixində R. Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında görkəmli yazıçı, dramaturq, nasir və ictimai xadim Cəfər Cabbarlının 120 illiyinə həsr edilmiş tədbir keçirilmişdir. Tədbir ədibin anadan olmasının 120 illiyinin qeyd edilməsi haqqında ölkə başçısının müvafiq Sərəncamına əsasən Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Cəfər Cabbarlı həftəsi” çərçivəsində reallaşmışdır.

Cari ilin 27 noyabr tarixində Dövlət Mahnı Teatrında Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi, professor Rəfiq Zəka Xəndanın 80 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin “Xəmsə”sinin də ("Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə") layihə çərçivəsində Türkiyə türkcəsində nəşri başa çatdırılmışdır. Dekabrın 6-da M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında yeni işıq üzü görən “Xəmsə”nin təqdimat mərasimi keçirilmişdir. Tədbirdə rəsmilər, tanınmış elm və ədəbiyyat xadimləri, millət vəkilləri, ictimaiyyət nümayəndələri iştirak etmişdir.

Dekabrın 19-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Azərbaycan Yazıçılar Birliyinin 85 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.

Dekabrın 25-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadənin 150 illiyi münasibətilə tədbir keçirilmişdir. Mərasimdə dövlət rəsmiləri, ədəbiyyat, mədəniyyət, incəsənət və ictimaiyyət nümayəndələri iştirak etmişdir.

## MƏDƏNİ İRSİN QORUNMASI, İNKİŞAFI VƏ BƏRPASI

Hesabat ili ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 dekabr 2013-cü il tarixli 195 nömrəli Sərəncamı ilə təsdiqlənən “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”nın tədbirlər Planına uyğun olaraq işlər davam etdirilmişdir. Dövlət Proqramının həyata keçirilməsi üzrə hazırlanan “Tədbirlər Planı”nın 2.1.1 yarımbəndinin (abidələrin yeni siyahısının tərtib edilməsi) icrasının təmin olunması məqsədi ilə cari il ərzində respublikanın 33 şəhər və rayonunda yerləşən 1796 daşınmaz tarix və mədəniyyət abidəsinin, eyni zamanda 855 ədəd yeni aşkar olunmuş abidənin monitorinqi aparılmışdır. Monitorinq olunan abidələrin texniki vəziyyəti barədə müvafiq qeydlər aparılmış, coğrafi koordinatları GPS vasitəsilə təyin edilmiş, fotoşəkillər çəkilmiş, albom hazırlanmış və aidiyyəti sənədlər tərtib edilmişdir.

Bakı şəhərində yerləşən 28 tarixi və memarlıq əhəmiyyətli tikilinin dövlət qeydiyyatına götürülməsi məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasından müvafiq rəylər alınmış və təsdiq olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir. Nəticədə 2 abidə Nazirlər Kabinetinin müvafiq qərarı ilə dövlət qeydiyyatına götürülmüşdür.

Dövr ərzində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.12.2012-ci il tarixli 374s nömrəli Sərəncamına əsasən “Xəzər rayonu Şağan qəsəbəsində Mədəniyyət Mərkəzinin (kitabxana daxil olmaqla) tikintisi və texniki təchizatı” obyekti, Sabunçu rayonu, Maştağa qəsəbəsində H.Abbasov adına Mədəniyyət Mərkəzinin (13 nömrəli kitabxana filialı daxil olmaqla) əsaslı təmiri və texniki təchizatı” obyekti, o cümlədən Qaradağ rayonu, Qızıldaş qəsəbəsində yerləşən Mədəniyyət Mərkəzinin (kitabxana daxil olmaqla) tikintisi və texniki

təchizatı” obyektləri üzrə işlər tam başa çatdırılmış, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə müraciət olunaraq istismara hazırlıq aktları alınmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.07.2016-cı il tarixli, 445s nömrəli Sərəncamı ilə icra olunmuş “Şəki şəhəri, Ə.Haqverdiyev küçəsində 40 yerlik uşaq bağçasının tikintisi” obyektində işlər tam yekunlaşdırılmış və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə müraciət olunaraq istismara hazırlıq aktı alınmışdır.

“Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il tarixli, 3593 nömrəli Sərəncamında Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi üzrə adları qeyd olunan layihələrin icrası istiqamətində müvafiq işlər davam etdirilmişdir:

- “Azərbaycan Milli İncəsənət Muzeyinin Niyazi 9 ünvanında yerləşən binasında təmir-bərpa və yenidənqurma işləri” obyektində işlər tam başa çatdırılmş və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyindən istismara hazırlıq aktı alınmışdır;
- Gəncə şəhərində “Şah Abbas Karvansarayı”nın bərpası obyektində işlər başa çatdırılmış, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyindən istismara hazırlıq aktı alınmışdır;
- Qazax rayonu “Sınıq körpü” abidəsində (inventar №-7) bərpa-konservasiya işləri davam etdirilmiş;
- Şəki şəhərində yerləşən “Gileyli məscidinin minarəsi (XVIII əsr)” abidəsində yaranmış qəza vəziyyətinin qarşısının alınması məqsədilə minarədə zəruri bərpa-gücləndirmə işlərinin aparılması üzrə işlər tam yekunlaşıb. Qəbul komissiyasının aktları hazırlanaraq təsdiqlənmişdir;
- Şuşa Dövlət Musiqili Dram Teatrının fəaliyyət göstərdiyi Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mikrorayon S.S.Axundov küçəsi, 6 ünvanındakı binanın əsaslı təmiri və yenidənqurulması üzrə işlər başa çatdırılmış;
- Bakı şəhəri, Binəqədi rayonunda yeləşən “İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasında əsaslı təmir və yenidənqurma işləri” davam etdirilmiş.

O cümlədən“Çıraqqala” abidəsində möhkəmləndirmə, bərpa-konservasiya işlərinin görülməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti tərəfindən 13 mart 2019-cu il tarixli, 1041 nömrəli Sərəncam imzalanmışdır. Sərəncamın icrasının təmin edilməsi məqsədilə müvafiq bərpa-konservasiya işləri davam etdirilir.

“Tovuz rayonu Aşıq Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin tikintisi” nin başa çatdırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 06 mart 2019-cu il tarixli, 1017 nömrəli Sərəncamına əsasən qeyd olunan obyektdə tikinti və muzey tərtibatı işləri yekunlaşdırılmış, istismara hazırlıq aktının alınması üçün müvafiq sənədlər hazırlanmışdır.

Quba rayonunda yerləşən, 4637 inventar nömrəsi ilə yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına götürülmüş “Yerfi kənd məscidin”də sahibkar dəstəyi ilə aparılan yenidənqurma və bərpa işləri davam etdirilmişdir.

Hesabat dövründə Quba rayonunun Birinci Nügədi kəndində məscidin, Qobustan rayonunda Diri Baba türbəsinin, Balakən rayonunda Qala divarlarının, Hacıqabul rayonunda Pir Hüseyn Xanəgahının, Qax rayonunda İlisu Dövlət tarix-mədəniyyət qoruğu ərazisindəki Qalanın, Gəncə şəhərində Tatlar məscidinin, Gədəbəy şəhərinin 3 km-də yerləşən Kilsənin, Şamaxı şəhərində yerləşən Şaxəndan türbəsinin və Lənkəran şəhərində yerləşən Dairəvi qalanın müvafiq olaraq bərpası, konservasiyası və gücləndirilməsi üçün layihə-smeta sənədlərinin hazırlanması, həmçinin Şəki şəhəri Cümə məscidi və Gəncə şəhəri Şahsevənlər məscidində elmi-tədqiqat işlərinin aparılması üzrə işlər yekunlaşdırılmışdır.

Cari ilin aprel ayında Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti ilə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) arasında Böyük Mərdəkan qəsri və Tuba şah məscidinin bərpası haqqında Niyyət Məktubu imzalanmış və hazırda TİKA və yerli mütəxəssislərin iştirakı ilə layihələndirmə işləri aparılır. Eyni zamanda

Şamaxı rayonunda Pir Ömər Ziyarətgahında tikinti-abadlaşdırma üzrə layihə işləri yekunlaşmışdır.

Qorunma işinin kompleks şəkildə təmin edilməsi məqsədilə ötən ilin ikinci yarısında Dövlət Xidmətinin sifarişi ilə icrasına başlanılmış daşınmaz tarix və mədəniyyət abidələri üzrə 38 mühafizə zonasının və 21 pasport layihəsinin hazırlanması yekunlaşdırılmış, bunlardan mühafizə zonaları üzrə layihələr müvafiq rayon-şəhər icra hakimiyyətləri və Əmlak Məsələləri Dövlət Komitəsi ilə, abidə pasportları isə Azərbaycan Milli Elmlər Akademiyası ilə razılaşdırılaraq təsdiqlənmişdir.

Cari ilin ikinci yarısından abidələrin mühafizə zonalarının müəyyən edilməsi üçün 72 layihənin, pasportlaşdırılması üçün isə 110 layihənin hazırlanması üzrə müvafiq təşkilatla qanunvericiliyə uyğun olaraq müqavilələr bağlanmışdır. Qeyd olunmalıdır ki, cari ildə pasportlaşdırılması nəzərdə tutulan abidələrdən 15-i Azərbaycanın işğal altında qalmış tarix-memarlıq abidələri üçün nəzərdə tutulmuşdur ki, bu da müstəqilliyimizin bərpasından sonra işğal altında qalmış abidələrimizə veriləcək ilk pasportlar olacaq. Növbəti ildə abidələrin pasportlaşdırılması və mühafizə zonalarının müəyyən edilməsi işlərinin davam etdirilməsi məqsədilə abidələrin siyahısı tərtib edilmişdir.

“Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2019-cu il tarixli Fərmanının 7.1-ci bəndinin icrası üçün müvafiq təkliflər hazırlanaraq təqdim edilmiş və nəticədə Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında” 22 oktyabr 2019-cu il tarixli, 844 nömrəli Fərmanı ilə Dövlət Xidmətinin beş regional idarəsi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin “Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında” 22 oktyabr 2019-cu il tarixli 1498 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Şəmkir rayonunun tarixi ərazisi “Qədim Şəmkir Şəhəri” Dövlət Tarix-Mədəniyyət Qoruğu, Azərbaycan Respublikasının Ağsu rayonunun tarixi ərazisi “Orta Əsr Ağsu Şəhəri” Dövlət Tarix-Mədəniyyət Qoruğu, “Çıraqqala” və “Şabran şəhəri” tarixi qoruqlarının ərazisi “Çıraqqala–Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilmişdir.

Hesabat dövründə daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizəsi ilə əlaqədar müvafiq işlər davam etdirilmişdir. Dövlət Xidməti tərəfindən respublika ərazisində yerləşən bir çox abidəyə müdaxilə hallarının aradan qaldırılması məqsədilə yerli icra hakimiyyəti və hüquq mühafizə orqanları ilə birgə iş aparılmış və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərinə uyğun olaraq tədbirlər görülmüşdür. Abidələrin icarədarları, mülkiyyətçiləri olan aidiyyəti hüquqi və fiziki şəxslərlə görüşlər keçirilmiş, abidələrin qorunması istiqamətində müxtəlif təbliğat və təşviqat işləri aparılmış, törətdikləri xətalara görə xəbərdarlıq edilmiş və qanunamüvafiq tədbirlər görülmüşdür. Abidələrə olunmuş müdaxilələrlə bağlı 16 akt tərtib edilmişdir. Həmçinin Dövlət Xidməti tərəfindən respublika ərazisində yerləşən abidələrin mülkiyyətçisi və ya istifadəçiləri olan fiziki və hüquqi şəxslər ilə abidələrin qorunması və onlardan istifadə qaydalarına dair 85 mühafizə müqaviləsi bağlanmışdır.

Bir sıra abidələr üzrə sonrakı idarəetmənin həyata keçirilməsi məqsədilə həmin abidələrin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin balansına verilməsi ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsinə müraciət edilmiş və cavab məktubunda siyahıda qeyd olunan bəzi abidələrin balansa götürülməsi ilə bağlı müsbət rəy verilmişdir.

Dövr ərzində respublika ərazisində təbii təsirlər (yağış və sel sularının təsiri və s.), habelə insan fəaliyyəti nəticəsində üzə çıxmış arxeoloji abidələrin və digər maddi mədəniyyət nümunələrinin qorunması və tədqiqi üçün Azərbaycan Milli Elmlər Akademiyası ilə birgə müvafiq tədbirlər görülmüşdür. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Qanunun 20-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının rayonları ərazisində arxeoloji qazıntı işləri aparılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və

Etnoqrafiya İnstitutu tərəfindən verilmiş 59 vəkalətnamə Dövlət Xidmətində qeydiyyatdan keçirilmiş və aparılan qazıntı işlərinə aidiyyəti üzrə yerli abidə mühafizəçiləri tərəfindən mütəmadi olaraq nəzarət təşkil edilmişdir.

Eyni zamanda cari ildə qoruq ərazilərinin öyrənilməsi məqsədilə daimi olaraq elmi-tədqiqat və arxeoloji işlər aparılır. 2016-cı ildən başlayaraq Qobustan Milli Tarix-Bədii Qoruğunda “Yeni baxış” adlı layihə çərçivəsində aparılan çöl-tədqiqat işləri nəticəsində ölkədə ilk dəfə 3D üsulundan istifadə olunaraq yeni qayaüstü rəsmlər aşkar olunmuş, Cingirdağda yerləşən petroqliflərin rəqəmsal məlumat bazası yaradılmışdır.

Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu və Yaponiyanın Tokio Universiteti arasında imzalanmış üçtərəfli beynəlxalq memorandum əsasında “Avey” qoruğunda Azərbaycan-Yaponiya beynəlxalq arxeoloji ekspedisiyası, “Seba” Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyi və Qəbələ qoruğunun birgə fəaliyyəti nəticəsində Azərbaycan-Koreya arxeoloji ekspedisiyası tərəfindən Qədim Qəbələ şəhərində arxeoloji tədqiqat işləri aparılmışdır.

Müvafiq Dövlət Proqramına uyğun olaraq mədəni irs obyektlərinin qorunması və tədqiqində peyk təsvirlərinin imkanlarından istifadə olunması istiqamətində işlərin aparılması üçün “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri ilə hər iki təşkilatda görüşlər və təqdimatlar keçirilmiş, ilkin olaraq Gədəbəy rayonu üzrə pilot layihənin həyata keçirilməsinə başlanılmışdır. “Azərkosmos” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Gədəbəy abidələrinə dair tərtib olunmuş məlumat bazasına Veb üzərindən giriş təmin edilmiş, müvafiq istifadəçi məlumatları təqdim edilmişdir. Gədəbəy rayonu üzrə mədəni irs obyektlərinin coğrafi məlumat bazasında yığılması, atributiv məlumatların daxil edilməsi, Veb GİS-ə inteqrasiyası və nəticələrə dair hesabat və təqdimatın ilkin variantları hazırlanmışdır.

İşğal altında yerləşən torpaqlardakı tarix-mədəniyyət abidələrinin yeni siyahısının hazırlanması, dəymiş ziyanın müəyyən olunması, bu istiqamətdə təbliğat və tədqiqat işlərinin genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən “Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı” İctimai Birliyi ilə birgə “Azərbaycanın işğal altındakı mədəni irs nümunələrinin Beynəlxalq Hüququn tələblərinə uyğun qorunmasının təşkili, Ermənistan Respublikası tərəfindən abidələrin dağıdılmasının və ya mənimsənilməsinin qarşısının alınması tədbirlərinin gücləndirilməsinə dair 2020-2030-cu illər üzrə Dövlət Proqramı”nın layihəsi hazırlanmışdır.

Şəki şəhərinin tarixi hissəsinin “Xan sarayı” ilə birgə UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə əlaqədar ölkəmizə dəvət edilmiş beynəlxalq ekspertlərlə birgə “Restavrasiya Təlimatları” hazırlanmışdır. Görülən məqsədyönlü işlərin nəticəsi olaraq Şəki şəhərinin tarixi hissəsi “Xan sarayı” ilə birgə UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir.

2019-cu ildə Bakıda keçirilmiş UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ərəfəsində qeyd olunan təşkilatın jurnalında dərc olunması üçün “Azərbaycanda qayaüstü incəsənət”, “Dünya mədəni irs abidələrinin təqdimatı: Qobustan qaya sənəti mədəni landşaftı” və “Azərbaycan mədəni irsinin təsviri” adlı 3 məqalə hazırlanmışdır. UNESKO-nun sessiyası çərçivəsində Qobustan və Qəbələ qoruqlarında dünyanın 30 ölkəsini təmsil edən 30 gənc irs mütəxəssisinin iştirakı ilə “Dünya irsi. Gənc Peşəkarlar Forumu” təşkil olunmuşdur. Bundan başqa sessiya çərçivəsində Portuqaliyanın UNESKO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilmiş qayaüstü incəsənət abidəsi olan Foz Koa qoruğunun Qobustan Milli Tarix-Bədii Qoruğunun muzeyində sərgisi keçirilmişdir.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nümayəndə heyəti martın 1-dən 5-dək İtaliyanın Florensiya şəhərində keçirilən Romualdo del Bianko Fondunun Baş Assambleyası və “Planet üçün İrs–2019” adlı simpoziumda iştirak etmişdir. Beynəlxalq tədbir çərçivəsində Dövlət Xidməti ilə Romualdo del Bianko Fondu arasında anlaşma memorandumu imzalanmışdır

Beynəlxalq əməkdaşlıq çərçivəsində cari ilin may ayında V Dünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək məqsədi ilə ölkəmizdə səfərdə olan Avropada Əlamətdar

Qəbiristanlıqlar Assosiasiyasının (The Association of Significant Cemeteries in Europe – ASCE) prezidenti xanım Lidiya Pliberşek səfəri çərçivəsində Dövlət Xidmətində görüş təşkil olunmuş və Avropada Əlamətdar Qəbiristanlıqlar Assosiasiyası və Avropa Qəbiristanlıqları Marşrutuna üzv olması məqsədilə Bakıdakı "Fəxri xiyaban", "Şəhidlər xiyabanı" və Qubadakı "Soyqırım Memorial Kompleksi" təklif olunmuşdur.

Cari ilin may ayında Qazaxıstan Respublikasının Almatı şəhərində keçirilən Xəzər dənizi regionunun Sualtı Mədəni İrsinin Mühafizəsi üzrə UNESKO-nun ilk Regional Görüşündə Dövlət Xidmətinin əməkdaşı iştirak etmiş və Azərbaycanın sualtı mədəni irsinin təqdimatı keçirilmişdir.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyası çərçivəsində Beynəlxalq "İpək Yolu" layihəsinin nümayəndə heyəti ilə görüş keçirilib və Azərbaycanın həmin layihəyə qoşulması müzakirə olunub.Böyük İpək Yolu layihəsi çərçivəsində abidələrin ilkin inventarizasiyasını aparmaq məqsədi ilə UNESKO və İCOMOS-un İpək Yolu sahəsində çalışan eksperti UNESKO-nun Beynəlxalq Mərkəzi Asiya Tədqiqatları İnstitutunun direktoru Dr. D.Voyakin  Azərbaycana dəvət olunmuş, yerli ekspertlətin iştirakı ilə Azərbaycan ərazisində yerləşən tarix-mədəniyyət abidələinə səfər etmiş, ilkin araşdırma və inventarizasiya işi həyata keçirilmişdir.

Cari ilin oktyabr ayında Fransa Respublikasının Strasburq şəhərində Avropa Şurası və Avropa Birliyinin birgə təşkil etdiyi "Avropa İrs Günləri" (European Heritage Days) layihəsinin Milli koordinatorlarının görüşünün 2019-cu ilə həsr edilmiş növbəti iclası keçirilmişdir. İclasda 2019-cu il ərzində "Avropa İrs Günləri" layihəsi çərçivəsində həyata keçirilmiş tədbirlərin, eləcə də Avropa Komissiyasının və Avropa Şurasının "İrs və Təhsil: Gələcək nəsillərlə bölüşmək" layihəsinə dair müzakirələr aparılmışdır. Dövlət Xidməti tərəfindən respublika ərazisində "Avropa İrs Günləri" çərçivəsində qoruqlarda "açıq qapı" günü təşkil olunaraq, mədəni irsimizin qorunmasına həsr olunmuş sərgilər nümayiş etdirilmiş, tarix və mədəniyyət abidələrinin qorunması məsələlərinə geniş ictimaiyyətin diqqəti cəlb edilərək milli mədəni irsimiz təbliğ olunmuşdur.

Dövr ərzində mədəni irsimizin təbliği ilə bağlı bir sıra respublika əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər sırasında cari ilin 31 mart tarixində Mədəniyyət Nazirliyi, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Quba şəhərindəki Soyqırımı Memorial Kompleksində azərbaycanlıların soyqırımının 101-ci ildönümünə həsr olunmuş anım mərasimi və konfrans keçirilmişdir.

Hesabat dövrünün 18 aprel tarixində Dövlət Xidmətinin təşkilatçılığı ilə Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbir zamanı Mədəniyyət Nazirliyi, "Paşa Həyat Sığorta" ASC və "IRS Publishing House"un 2013-cü ildən birgə həyata keçirdiyi "İrs" silsiləsi layihəsi çərçivəsində "Daş keşikçilər" kitabının və nazirliyin təsis etdiyi "Milli irs mükafatı"nın təqdimat mərasimi olmuşdur. Həmçinin respublikanın şəhər və rayonlarında 18 aprel "Beynəlxalq  Abidələr və Tarixi Yerlər Günü" münasibətilə silsilə tədbirlər keçirilmiş, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunmuş, tarix-mədəniyyət qoruqlarında "açıq qapı" günü elan olunmuşdur.

2019-cu ilin 16 dekabr tarixində Azərbaycan mədəni irsinin, adət-ənənələrinin, çoxsaylı abidələrinin beynəlxalq miqyasda tanıdılması və təbliği məqsədilə "İrs" silsiləsi layihəsi çərçivəsində "Azərbaycan inciləri", "Gəncə - Nizami yurdu" və "Qədim və gözəl Qarabağ" adlı kitabların təqdimatı keçirilmişdir.

## REGİONAL SİYASƏT

2019-cu il mart ayının 12-də Cəbrayıl Rayon İcra Hakimiyyəti ilə birgə rayonun Cocuq Mərcanlı kəndində mədəniyyət və incəsənət ustalarının iştirakı ilə Novruz bayramına həsr olunmuş konsert proqramı təşkil edilmişdir.

Cari il mart ayının 19-da Bakı şəhərində keçirilmiş Novruz bayramı şənliklərində Nazirliyin Regional Mədəniyyət idarələrinə daxil olan şəhər və rayonlar "Şərq bazarı", milli mətbəx

guşələrində və tədbirin bədii hissəsində fəal iştirak etmişlər. Bununla yanaşı regional idarələr tərəfindən bütün bölgələrdə Novruz bayramına həsr olunmuş silsilə tədbirlər keçirilmiş, bayram tədbirlərində kollektivlərin və sənət adamlarının qarşılıqlı mübadiləsi əsasında onların regional idarələrə daxil olan rayonlarda çıxışları təşkil olunmuşdur.

Hesabat ilinin 28 mart - 24 may tarixlərində "Bölgələrdən bölgələrə" II Yaradıcılıq Festivalı keçirilmişdir. Respublikanın Gəncə şəhər, Ağstafa, Ağdaş, Saatlı, Neftçala, Ağcabədi, Tərtər, Xaçmaz, Abşeron, Lerik, Masallı, Kürdəmir, Şəmkir, Şamaxı, Balakən rayonlarında keçirilmiş festival çərçivəsində 80-ə yaxın musiqi kollektivi (folklor, rəqs, musiqi ansamblı, xor və s.), 50-dən çox incəsənət ustası müxtəlif janrlar üzrə (muğam, aşıq musiqisi, estrada, instrumental, vokal ifa və s.) çıxış etmiş, xalq sənətkarlıq nümunələri, rəssamların əl işlərinin sərgi-yarmarkaları təşkil edilmişdir. İyun ayının 18-də paytaxtın Xəzər rayonunun Mərdəkan Mədəniyyət sarayında "Bölgələrdən bölgələrə" II Yaradıcılıq Festivalının yekun tədbiri təşkil edilmişdir. Yekun tədbirdə festivalın təşkilinə yüksək dəstək göstərmiş rayon icra hakimiyyəti başçıları, festivalda fəal iştirak edən regional mədəniyyət idarələri, sənətkarlar, musiqi kollektivləri, incəsənət ustaları nazirliyin fəxri fərmanı ilə təltif olunmuşlar.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin regional mədəniyyət idarələrinin bölgələrdə mədəniyyətin qorunmasına, inkişafına və təşviqinə dair gördükləri tədbirlərin, idarələrin aparatlarında çalışan işçilərin, rayonlarda fəaliyyət göstərən nümayəndələrin və mədəniyyət müəssisələrinin nazirlik tərəfindən onlara həvalə edilmiş vəzifələrinin icra vəziyyətinin təhlil olunması məqsədilə 2019-cu ilin oktyabr - noyabr aylarında regional mədəniyyət idarələrində monitorinqlər həyata keçirilmişdir.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların səyyar qəbulu cədvəlinə əsasən 25 yanvar tarixində Xızı, 8 fevral tarixində Tovuz, 15 mart tarixində Cəbrayıl, 7 may tarixində Lənkəran, 24 may tarixində Şamaxı, İsmayıllı, Ağsu, 21 iyun tarixində Balakən, Şəki, Qax, 26 iyul tarixində Quba, Xaçmaz, Şabran, 8 avqust tarixində Salyan, Neftçala, Biləsuvar, 20 sentyabr tarixində Naftalan, Gəncə, Goranboy, 25 oktyabr tarixində Ucar, Göyçay, Ağdaş, 15 noyabr tarixində Kürdəmir, Ağcabədi, Ağdam, 17 dekabr tarixində Saatlı, Hacıqabul və 24 dekabr tarixində Şirvan şəhər və rayonlarında qəbulların keçirilməsi ilə bağlı müvafiq təşkilati işlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "2 fevral - Gənclər günü kimi qeyd olunması haqqında" Sərəncamına, habelə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına əsasən 2019-cu il 1-5 fevral tarixində ənənəvi "Gəncliyin səsi" festivalı keçirilmişdir. Gənc istedadların üzə çıxarılması, bilik və bacarıqlarının, yaradıcılıq nailiyyətlərinin dəstəklənməsi, yeni simaların aşkar olunması məqsədilə keçirilən festival çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə Bakı, Sumqayıt, şəhərlərində, Abşeron, Quba, Masallı və İmişli rayonlarında bir sıra tədbirlər təşkil edilmişdir. 1 fevral 2019-cu il tarixində Beynəlxalq Muğam Mərkəzində festivalın açılış mərasimi baş tutmuşdur. Festival günlərində C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında gənc yazarlar İntiqam Yaşar, Emil Rasimoğlu, Tural Turan, ASAN Könüllülük Məktəbinin məzunu Xülya Cəfərova ilə görüşlər, Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbində gənc musiqiçilərin konserti təşkil edilmişdir. Abşeron rayon Xırdalan şəhər Heydər Əliyev Mərkəzində Prezident təqaüdçülərinin konserti, Sumqayıt Dövlət Dram Teatrında ASAN Könüllülərin iştirakı ilə Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının tamaşası nümayiş etdirilmişdir. Quba, Masallı və İmişli "ASAN Həyat" Komplekslərində gənclərin foto əsərlərindən ibarət sərgilər təşkil edilmiş, gənc rejissorlarla görüş keçirilmiş, onların çəkdikləri qısametrajlı filmlər nümayiş etdirilmişdir. Masallıda Murad Quliyev və Zamin Məmmədov "Yol ayrıcında qalmış taksi", "Onun atası" filmlərini, Qubada Pərviz Həsənov və Ruslan Hüseynov "Ayaqqabı əməliyyatı", "Usta Yusifin kamançası" filmlərini təqdim etmişlər. İmişli regional "Asan həyat" Kompleksində "ASAN Könüllüləri"nin təqdimatında "Olmadı elə, oldu belə" tamaşası nümayiş etdirilmişdir. 5 fevral 2019-cu il tarixində Azərbaycan Dövlət Musiqili Teatrında festivalın bağlanış mərasimi

keçirilmiş və ASAN Könüllüləri"nin təqdimatında "Vəfalı Səriyyə" tamaşasının premyerası olmuşdur.

2019-cu ilin 21-22 may tarixində Azərbaycan Dövlət Filarmoniyasında gənc Prezident təqaüdçülərinin konsert-festivalı, habelə cari ilin 15 noyabr tarixində Ağdaş şəhərində konserti keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 iyun tarixli 463 s nömrəli Sərəncamı ilə Bakı şəhər 3 nömrəli Uşaq İncəsənət Məktəbinə Azərbaycan milli musiqi ifaçılıq sənətinin görkəmli nümayəndəsi, tanınmış bəstəkar, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Gülarə Əliyevanın adı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 15 yanvar tarixli 472 nömrəli Fərmanının müvafiq bəndinin müddəalarını rəhbər tutaraq, uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin fəaliyyətinin təkmilləşdirilməsi üzrə təkliflər (2019-2024-cü illər) hazırlanmışdır.

Sözügedən Fərmana müvafiq olaraq məktəblərin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə maddi-texniki bazası və fəaliyyəti qənaətbəxş olmayan məktəblərin yenidən təşkili nəzərdə tutulur. İlkin olaraq Bakı şəhəri Sabunçu rayonunda yerləşən 32 nömrəli Uşaq Musiqi Məktəbinin 10 nömrəli Uşaq Musiqi Məktəbinə birləşdirilməsi yolu ilə sözügedən təhsil müəssisələrinin yenidən təşkili və gələcəkdə 10 nömrəli Uşaq Musiqi Məktəbi kimi fəaliyyətini davam etdirməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Kollegiyasının 8 noyabr 2018-ci il tarixli qərarı ilə uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin Nümunəvi Əsasnaməsi təsdiq edilmişdir. Cari ildə Ağcabədi şəhər Ü. Hacıbəyli adına Qarabağ Muğam Mərkəzinin, Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzinin, Gədəbəy Aşıq Məktəbinin əsasnamələri hazırlanmış və Nazirliyin 11 mart 2019-cu il tarixli qərarı ilə təsdiq edilmişdir.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində tədris işinin təşkilinin, habelə sənədlərlə işin səviyyəsinin yüksəldilməsi məqsədilə tədris prosesində istifadə olunan, məktəblərin fəaliyyətini tənzimləyən vahid formalı normativ sənədlər toplusu yenidən işlənilib hazırlanmışdır. 35 adda normativ sənədlər (jurnallar, cədvəllər, protokollar, qeydiyyat kitabları və s.), şagirdlər üçün musiqi gündəliyi üzərində iş aparılmış, istifadədə olan sənədlər təkmilləşdirilmiş və yeni sənədlər tərtib edilmişdir. Sözügedən normativ sənədlərin çap edilərək məktəblərə çatdırılması işi təşkil edilmişdir.

Mədəniyyət Nazirliyi sistemindəki uşaq musiqi, incəsənət, rəssamlıq məktəb və mərkəzlərində təhsilin keyfiyyətinin yüksəldilməsi, kadrlara olan tələb-təklif prinsiplərinin gözlənilməsi, bilikli və bacarıqlı ixtisaslı kadrların bərabərhüquqlu, şəffaf və sağlam rəqabət şəraitində seçilib yerləşdirilməsi məqsədi ilə 2015/2016-cı tədris ilindən etibarən məktəblərə müəllimlərin işə qəbulu vakant yerlər əsasında müsabiqə yolu ilə aparılır. 2019/2020-ci tədris ili üçün pedaqoji kadrların işə qəbulu üzrə VI müsabiqə elan edilmiş, 2019-cu il 20 iyun-1 iyul tarixlərində müsabiqənin I mərhələsi (elektron ərizələrin qəbulu və qiymətləndirilməsi), 5-20 iyul tarixində isə II mərhələsi (müsahibə) keçirilmişdir. Müsabiqəyə çıxarılmış 258 vakant yerə 530 elektron ərizə qəbul olunmuş və müsahibəyə 433 nəfərin ərizəsi buraxılmışdır. Yekun nəticəyə görə müsahibədə iştirak edən 356 nəfərdən 123 nəfəri (təxminən 34,5%) məktəb və mərkəzlərdə işləmək hüququ qazanmışdır ki, onlardan 38 nəfər (təxminən 30,9%) ali təhsillidir.

Təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkili vəziyyətinin öyrənilməsi, təhlil edilməsi və müvafiq tədbirlərin görülməsi məqsədilə regionlar üzrə məktəb və mərkəzlərin monitorinqləri aparılır. Bununla əlaqədar 2019-cu ildə Bakı şəhər 10 və 32 nömrəli, Qazax şəhər 1 və 2 nömrəli, Tovuz şəhər Aşıq Əsəd Rzayev adına, Goranboy rayon Səfikürd kənd uşaq musiqi məktəblərində monitorinqlər keçirilmiş, pedaqoji kollektivlərə lazimi dəstək göstərilmişdir.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi, tədrisin səviyyəsinin yüksəldilməsi, müəllimlərin təcrübələrinin artırılması və onlara metodiki köməklik göstərilməsi məqsədilə respublikanın aparıcı təhsil müəssisələrinin

təcrübəli müəllimlərinin, tanınmış incəsənət xadimlərinin iştirakı ilə şəhər, rayon uşaq musiqi və incəsənət məktəblərinin şagird və müəllimləri üçün ustad dərsləri təşkil edilir.

Cari ilin 1-5 may tarixində Azərbaycan Respublikasının Əməkdar artisti Təranə Vəli-zadə tərəfindən Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbində, Bakı şəhər T.Quliyev adına 12 nömrəli və M.Maqomayev adına 26 nömrəli onbirillik musiqi məktəblərində müəllim və şagirdlər üçün ustad dərsləri təşkil edilmişdir.

15-27 may 2019-cu il tarixində İsmayıllı, Şəki, Gəncə, Bərdə, Lənkəran, Quba şəhər və rayonlarında Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Azərbaycan Respublikasının Xalq artisti Ramiz Quliyev (tar), Abşeron rayon Xırdalan şəhər Onbirillik Musiqi Məktəbinin direktoru, respublikanın Əməkdar müəllimi İkram Manafov (kamança) Azərbaycan Milli Konservatoriyasının dosenti Mübariz Əliyev (saz) uşaq musiqi və incəsənət məktəblərinin müəllim və şagirdləri üçün müvafiq ixtisaslar üzrə ustad dərsləri keçirmişlər.

Cari ilin 27 may-3 iyun tarixlərində Ağstafa, Salyan, Zaqatala, Yevlax, Şamaxı, Qusar şəhər və rayonlarında fortepiano ixtisası üzrə ustad dərsləri təşkil edilmişdir. Ustad dərslərini Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti Tofiq Bədirxanov və Bakı şəhər 11 nömrəli Onbirillik Musiqi Məktəbinin direktoru Rövşən Məmmədov aparmışlar.

2019-cu il 20-21 noyabr tarixində Ağdaş və Göyçay şəhərlərində Azərbaycan Respublikasının xalq artisti Ramiz Quliyev (tar) və respublikanın Əməkdar müəllimi İkram Manafov (kamança) tərəfindən Ağdaş, Ucar, Zərdab, Göyçay rayon uşaq musiqi və incəsənət məktəblərinin müəllimləri üçün ustad dərsləri keçirilmişdir.

19 dekabr 2019-cu il tarixində Bakı şəhər R.Behbudov adına 2 nömrəli Onbirillik Musiqi Məktəbində tar ifaçılığı və tədrisinin problemlərinə həsr olunmuş seminar keçirilmişdir. Seminarda Azərbaycan Respublikasının Xalq artisti, professor Ramiz Quliyev, paytaxtın və bütün regionlardan uşaq musiqi və incəsənət məktəblərinin tar müəllimləri, orta ixtisas və ali təhsil müəssisələrinin sahə üzrə mütəxəssisləri, Beynəlxalq Muğam Mərkəzinin, Bəstəkarlar İttifaqının nümayəndələri iştirak etmişlər. Tədbirin sonunda Ramiz Quliyevin tar üçün işlədiyi "Azərbaycan bəstəkarlarının əsərləri" kitabından 1000 nüsxə uşaq musiqi və incəsənət məktəblərinə hədiyyə edilmişdir.

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsi, gənc istedadların üzə çıxarılması, onların peşəkar inkişafının istiqamətləndirilməsi, müəllimlərin yaradıcılıq fəaliyyətinin aktivləşdirilməsi məqsədilə Mədəniyyət Nazirliyi mütəmadi olaraq festivallar, müsabiqələr, sərgilər təşkil edir. Hesabat dövründə respublika miqyaslı 2 müsabiqə keçirilmişdir.

2019-cu ilin may-iyun aylarında Uşaq və gənclər arasında xalq çalğı alətləri ifaçılarının IV Respublika müsabiqəsi təşkil edilmişdir. Müsabiqənin birinci turu 15-31 may 2019-cu il tarixində Bakı, İsmayıllı, Şəki, Gəncə, Bərdə, Lənkəran, Quba şəhərlərində, ikinci turu 7-11 iyun 2019-cu il tarixində Bakı şəhərində keçirilmişdir. Tar, kamança, qanun, saz, balaban, qarmon, nağara ixtisasları üzrə 3 yaş qrupunda (I qrup 9-12, II qrup 13-15, III qrup 16-18) keçirilən müsabiqədə respublikanın musiqi təhsili müəssisələrindən 800-ə yaxın şagird və tələbə iştirak etmişdir. Müsabiqənin yekun konserti 27 iyun 2019-cu il tarixində Beynəlxalq Muğam Mərkəzində baş tutmuşdur.

2019-cu ilin may-iyun aylarında Gənc pianoçuların IV respublika müsabiqəsi keçirilmişdir. Müsabiqədə 3 yaş qrupu (I qrup 8-11, II qrup 12-14, III qrup 15-18) üzrə respublikada fəaliyyət göstərən musiqi təhsili müəssisələrindən 350 şagird və tələbə iştirak etmişdir. Müsabiqənin birinci turu 2019-cu il 23 may-3 iyun tarixlərində Bakı, Şamaxı, Zaqatala, Yevlax, Ağstafa, Salyan, Qusar şəhərlərində, ikinci turu isə 11-12 iyun 2019-cu il tarixində Bakı şəhərində təşkil edilmişdir. Müsabiqənin yekun konserti 28 iyun 2019-cu il tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilmişdir.

Milli mədəniyyətimizin tanıdılması, habelə istedadlı gənclərin yaradıcılıq bacarıqlarının inkişafı məqsədilə ölkəmizin müxtəlif beynəlxalq tədbirlərdə təmsil olunmasının əhəmiyyətini nəzərə alaraq, əməkdaşların, uşaq və gənclərin xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə iştirakı üçün Nazirlik tərəfindən maliyyə və təşkilati dəstək göstərilir.

Bakı şəhər R.Hacıyev adına 15 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi Cəmil Sədizadə 2019-cu il 21-24 yanvar tarixində Rusiyanın Sankt-Peterburq şəhərində keçirilmiş Pianoçuların Vladimir Kraynev adına III Moskva beynəlxalq müsabiqəsinin II turunda iştirak etmişdir.

Abşeron rayon Xırdalan şəhər Onbirillik Musiqi Məktəbinin müəllim və şagirdləri cari ilin 18-20 mart tarixində Gürcüstandakı M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin təşkilatçılığı ilə Tbilisi və Marneuli şəhərlərində Novruz bayramı münasibətilə keçirilmiş tədbirlərdə iştirak etmişdir.

Ağcabədi şəhər Uşaq İncəsənət Məktəbinin “Qarabağ” rəqs ansamblı 2019-cu il 6-8 aprel tarixində Gürcüstanın Tbilisi şəhərində keçirilmiş “Qafqaz Kuboku” adlı rəqs yarışmasında uğurla iştirak etmiş, 2 nominasiya üzrə I dərəcəli diplom və kuboklarla təltif olunmuşdur.

Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin klarnet ixtisası üzrə şagirdi Asim Rzazadə 2019-cu il 12-18 may tarixində Fransanın Annemasse şəhərində keçirilmiş Adilə Əliyeva adına gənc ifaçıların XIV beynəlxalq müsabiqəsində uğurla iştirak edərək I dərəcəli Diploma layiq görülmüşdür.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Avropa Musiqi Məktəbi Birliyinə üzvlüyü məsələsinin müzakirə olunması, Azərbaycanda musiqi təhsilinin təşkilinə dair təqdimatın keçirilməsi, habelə 30 may-2 iyun tarixlərində keçirilmiş Musiqi Məktəbi Forumunda iştirak etmək məqsədilə idarənin əməkdaşları Ülkər Mütəllimova və Gülnar Məlikova Bolqarıstanın Sofiya şəhərinə ezam olunmuşlar.

Ağcabədi şəhər Uşaq İncəsənət Məktəbinin “Qarabağ” rəqs ansamblı 2019-cu ilin 30 iyun-5 iyul tarixlərində Gürcüstanın Ureki və Batumi şəhərlərində keçirilmiş “Qızıl Ulduz-2019” adlı rəqs yarışmasında iştirak etmiş, 2 nominasiya üzrə I dərəcəli diplom və kuboklarla təltif olunmuşdur.

2019-cu il 9 oktyabr tarixində “Kainat” Gənclik Mərkəzinin təşkilatçılığı, Mədəniyyət, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə Beynəlxalq Muğam Mərkəzində XI Beynəlxalq Uşaq Muğam Festivalının final mərhələsi və qaliblərin mükafatlandırılması mərasimi keçirilmişdir. Mərasim çərçivəsində “Fərqli ifa manerasına görə”, “Ən yaxşı etnik folklor nümunəsinin ifasına görə” və “Yüksək milli koloritin nümayişinə görə” üç nəfər əcnəbi iştirakçı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xüsusi diplomları ilə mükafatlandırılmışdır.

Bakı şəhər L. və M. Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdləri 4-8 noyabr 2019-cu il tarixində Bolqarıstanın Stara Zaqora şəhərində keçirilmiş Gənc truba ifaçılarının X Beynəlxalq müsabiqəsində uğurla iştirak etmiş, X sinif şagirdi Səid Rəsulov II yerə, IX sinif şagirdi Tamerlan Qafarov III yerə layiq görülmüşlər.

İstedadlı gənclərin dəstəklənməsi və müvafiq sahələr üzrə yüksək ixtisaslı kadrların hazırlanması çərçivəsində görülən işlərin davamı olaraq gənc musiqiçilərin xarici ölkələrin tədris müəssisələrində təhsil almaları və tanınmış mütəxəssislərin ustad dərslərində iştirak etmələri üçün Nazirlik tərəfindən maliyyə dəstəyi göstərilir. Hesabat dövründə gənc pianoçu, Prezident mükafatı laureatı, Prezident təqaüdçüsü Nərmin Nəcəflinin Almaniyada Musiqi, Dram və Media Universitetində magistr pilləsində, habelə Bakı şəhər T.Quliyev adına 12 nömrəli Onbirillik Musiqi Məktəbinin fortepiano ixtisası üzrə məzunu, beynəlxalq və respublika müsabiqələri laureatı Ayan Məmmədlinin Avstriyanın F.Şubert adına Vyana Konservatoriyasında bakalavriat pilləsində təhsil almaları, Bakı şəhər G.Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin fortepiano ixtisası üzrə şagirdi Ləman Seyidovanın 1-15 iyul 2019-cu il tarixində Xorvatiyanın Trogir şəhərində keçirilmiş “Con Spirito İnternational Summer Music School” yay məktəbində iştirakı üçün maddi dəstək göstərilmişdir.

Uşaq musiqi və incəsənət məktəblərində fortepiano alətinin təmiri, köklənməsi və nizamlanması üzrə mütəxəssislərə böyük ehtiyac olduğunu nəzərə alaraq, nazirlik tərəfindən Bakı şəhərində müvafiq təlim kursları təşkil edilir. 2016-2018-ci illərdə keçirilmiş təlim kurslarında Bakı, Naftalan, Sumqayıt, Şəki şəhər, Abşeron, Ağdam, Ağdaş, Ağstafa, Ağsu, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Cəlilabad, Göyçay, İsmayıllı, Hacıqabul, Xaçmaz, Xızı, Xocalı, Kəlbəcər, Qax, Qobustan, Laçın, Masallı, Neftçala, Oğuz, Şamaxı, Ucar, Zərdab rayon

uşaq musiqi və incəsənət məktəblərindən fortepiano alətinin təmiri və köklənməsi sahəsində səriştəsi olan 46 müəllim iştirak etmiş, onlara Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzinin müvafiq vəsiqələri verilmişdir. Bu işin davamı olaraq 2019-cu ilin may-iyun aylarında keçirilmiş növbəti təlim kurslarında Bakı, Şirvan şəhər, Ağcabədi, Cəbrayıl, Daşkəsən, Füzuli, İmişli, Kürdəmir, Qazax, Qobustan, Saatlı, Zəngilan rayon uşaq musiqi və incəsənət məktəblərindən 12 müəllim iştirak etmişdir.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ İNNOVATİV İNKİŞAF

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən davamlı və dayanıqlı dövlət siyasətində mədəniyyətin müxtəlif sahələrində beynəlxalq əlaqələrin qurulması və inkişaf etdirilməsi əsas prioritet istiqamətlərdən hesab edilir. Ölkə rəhbərliyi tərəfindən dünya dövlətləri ilə müxtəlif sahələrdə qurulan əməkdaşlıq, qarşılıqlı siyasi-mədəni əlaqə və yaranan etimad, dostluq mühiti, multikultural və humanizm dəyərlərlərinə bağlılığın nəticəsi kimi qiymətləndirilməlidir. Bu mənada, hesabat dövründə nazirlik tərəfindən Azərbaycan Respublikasının mədəniyyət sahəsində xarici siyasət strategiyasına uyğun olaraq beynəlxalq ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin qurulması, inkişaf etdirilməsi məqsədi ilə mühüm layihələr və tədbirlər həyata keçirilmişdir.

Hesabat ili ərzində Çin Xalq Respublikası, İran İslam Respublikası, Qətər Dövləti, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Yaponiya, Qırğızıstan, Özbəkistan, Gürcüstan, Qazaxıstan, Monteneqro, Xorvatiya, Rusiya Federasiyası və digər ölkələrlə Hökumətlərarası Komissiyanın iclas protokollarının mədəniyyət sahəsində əməkdaşlıqla bağlı hissələrinin razılaşdırılması istiqamətində müvafiq işlər aparılmışdır. Komissiyaların ekspertlərinin, həmçinin Komissiya üzvlərinin görüşlərində iştirak təmin olunmuşdur.

Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzinin və Türkiyə Respublikasında Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması ilə bağlı tələb olunan müvafiq sənədlər hazırlanaraq Azərbaycan Respublikasının Baş Nazirinə təqdim edilmişdir.

2019-cu ilin 12-16 fevral tarixində nazir Əbülfəs Qarayevin Böyük Britaniyanın Koventri və London şəhərlərinə səfərləri olmuşdur. Səfər çərçivəsində Koventri Universitetin Sülh, Etimad və Sosial Münasibətlər Mərkəzində qurumun icraçı direktoru Professor Mayk Hardi ilə keçirilən görüşdə “Bakı Prosesi” çərçivəsində həyata keçirilən layihələr və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ətrafında müzakirə aparılmışdır. Həmçinin Koventri Universitetinin İncəsənət və Humanitar Elmlər Fakültəsi ziyarət edilmiş və fakültənin rəhbər heyəti ilə keçirilmiş görüşlərdə teatr, musiqi və digər incəsənət sahələri ilə yanaşı əsasən yaradıcı sənaye sahələrində uğurlu təcrübələrin tətbiqinə dair fikir mübadiləsi baş tutmuşdur. Görüşün sonunda birgə əməkdaşlıq üçün qısamüddətli proqramın hazırlanması qərara alınmışdır. Əbülfəs Qarayev universitetin fəxri doktoru və ziyarətçi professoru kimi, həmçinin UNESKO-nun Ümumdünya İrs Komitəsinin sədri qismində tələbələr qarşısında “Dəyişikliklər və münaqişə dövründə mədəniyyəti qoruyaq: İnsan təhlükəsizliyi üçün mədəniyyət və irsin dəyərləri və ənənələrinin əhəmiyyəti” mövzusunda mühazirə ilə çıxış etmişdir.

Səfər çərçivəsində Britaniya Kitabxanasına ziyarət və kitabxanada Azərbaycan ədəbiyyatına aid olan müxtəlif qədim nümunə və əlyazmalarla tanışlıq baş tutmuş, kitabxananın Avropa və Amerika kolleksiyalarının rəhbəri, Türk kolleksiyalarının kuratoru və digər məsul şəxslərinin iştirakı ilə görüş keçirilmişdir.

Bununla yanaşı Əbülfəs Qarayev Böyük Britaniya Baş nazirinin ticarət elçisi Baroness Nikolson, Rəqəmsal, Mədəniyyət, Media və İdman Departamentində Dövlət naziri, incəsənət, irs və turizm üzrə Parlament Dövlət katibinin müavini Maykl Ellis və British Council-ın rəhbəri Kristofer Rodriges ilə görüş keçirmişdir.

British Council ilə keçirilən görüş çərçivəsində Britaniya Şurası (British Council) ilə Əməkdaşlıq haqqında Memorandum imzalanmışdır. Memoranduma əsasən, Azərbaycanda mədəniyyət və yaradıcılıq sahələrinin inkişafı ilə əlaqədar siyasət səviyyəsində xarici uğurlu təcrübənin tətbiqi və Azərbaycanda mədəniyyət və yaradıcılıq sahələrinin inkişafı üçün

strategiya və fəaliyyət planının hazırlanması ilə əlaqədar müvafiq tədbirlər nəzərdə tutulmuşdur.

2019-cu ilin 14-16 noyabr tarixində VIII Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda iştirak etmək məqsədilə Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 13-dən 17-dək Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində səfərdə olmuşdur. Azərbaycan nümayəndə heyəti Forum çərçivəsində müxtəlif mövzulara həsr olunmuş panellərdə iştirak etmişdir. Səfər müddətində Rusiya Federasiyasının mədəniyyət sahəsində səlahiyyətli dövlət rəsmiləri ilə ikitərəfli görüşlər keçirilmiş, əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. 2020-ci ildə keçiriləcək IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda Azərbaycanın "qonaq ölkə" fəxri statusunda iştirakı ilə bağlı silsilə mədəni proqramların təşkili istiqamətində danışıqlar aparılmışdır. Azərbaycan nümayəndə heyətinin VIII Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda məhsuldar işi, fəal iştirakı, həmçinin teatr sahəsində gələcək əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə Rusiya teatr tamaşalarının yazılarının hədiyyə edilməsi haqqında protokol imzalanmışdır.

Mədəniyyət Nazirliyinin Aparatının rəhbəri Fikrət Babayev Azərbaycan Respublikası Dövlət Bayrağı Günü münasibətilə 2019-cu ilin 8 noyabr tarixində Ukraynanın Xarkov şəhərində Azərbaycan Mədəniyyət Mərkəzinin təntənəli açılış mərasimində və 2019-cu ilin 22-23 noyabr tarixində Rusiya Federasiyasının Moskva şəhərində keçirilən 10-cu Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak etmişdir.

2019-cu il ərzində Azərbaycan Respublikasının Mədəniyyət Naziri Əbülfəs Qarayev tərəfindən Latviya, Almaniya, İndoneziya, İordaniya, Yunanıstan, Meksika, Argentina, Əfqanıstan, ABŞ, Böyük Britaniyanın Azərbaycandakı səfirləri qəbul edilmişdir. Bununla yanaşı, Rusiya Federasiyasının Sverdlovsk vilayətinin Mədəniyyət naziri Svetlana Uçaykinanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbüılfəs Qarayev tərəfindən qəbul edilmişdir.

2019-cu ildə ikitərəfli əlaqələrin müqavilə-hüquq bazasının genişləndirilməsi istiqamətində mühüm işlər həyata keçirilmişdir. 2019-cu ilin 26-27 fevral tarixində Pekin şəhərində keçirilmiş Azərbaycan-Çin 7-ci Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının iclası çərçivəsində "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2019-2023-cü illər üçün mədəni əməkdaşlıq haqqında Protokol" imzalanmışdır.

Əfqanıstan İslam Respublikası Prezidentinin 2019-cu ilin mart ayında ölkəmizə rəsmi səfəri çərçivəsində 14 mart 2019-cu il tarixində "Azərbaycan Respublikası Hökuməti ilə Əfqanıstan İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

Azərbaycan Respublikasının mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin Budapeşt şəhərinə səfəri çərçivəsində 24 aprel 2019-cu il tarixində "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Macarıstanın İnsan Resursları Nazirliyi arasında mədəniyyət sahəsində Əməkdaşlıq Proqramı" imzalanmışdır.

30 iyun – 10 iyul 2019-cu il tarixində Bakı şəhərində keçirilmiş YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək məqsədilə Bolqarıstanın Mədəniyyət naziri cənab Boil Banovun başçılığı altında nümayəndə heyəti ölkəmizə səfər etmiş və tədbir müddətində 4 iyul 2019-cu il tarixində "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Bolqarıstan Respublikasının Mədəniyyət Nazirliyi arasında 2019-2023-cü illər üzrə mədəniyyət sahəsində əməkdaşlıq haqqında Proqram" imzalanmışdır.

İordaniya Haşimilər Krallığının Kralı II Abdullanın 2019-cu ilin dekabr ayında ölkəmizə rəsmi səfəri çərçivəsində 10 dekabr 2019-cu il tarixində "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İordaniya Haşimilər Krallığının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

“Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Monteneqronun Mədəniyyət Nazirliyi arasında 2019-2022-ci illər üçün mədəniyyət sahəsində Əməkdaşlıq Proqramı” layihəsi Monteneqro tərəfi ilə razılaşdırılmışdır və imzalanmağa hazırdır.

**Beynəlxalq təşkilatlarla əməkdaşlıq:**

2019-cu il mədəniyyət sahəsində UNESKO, İSESKO, BMT Sivilizasiyalar Alyansı, İƏT, TÜRKSOY, QDİƏT, MDB və digər beynəlxalq qurumlarla çoxşaxəli əməkdaşlıq həyata keçirilmidir.

**UNESKO**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və UNESKO yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə Novruz bayramının UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyi münasibətilə təşkilatın baş qərargahında təntənəli tədbir keçirilmişdir. Tədbirdə Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyevanın rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmiş, Xalq artisti Alim Qasımovun ifasında muğam parçaları səsləndirilmiş və böyük ekranda Azərbaycanın miniatür sənət nümunələri nümayiş etdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” 9 avqust 2018-ci il tarixli 392 nömrəli Sərəncam imzalamışdır.

Sözügedən tədbirlə bağlı hazırlıq işləri və təşkilati məsələlərin həlli, vəzifə bölgüsünün aparılması məqsədilə 14 sentyabr 2018-ci il, 4 mart və 13 iyun 2019-cu il tarixlərində Təşkilat Komitəsinin iclasları, 20 may tarixində isə Nazirliyin və digər məsul qurumların nümayəndələrinin iştirakı ilə görüş keçirilmişdir. 27 mart 2019-cu il tarixində Mədəniyyət naziri Əbülfəs Qarayevin Parisə səfəri çərçivəsində Azərbaycan Respublikasının Hökuməti və UNESKO arasında Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı Saziş imzalanmışdır.

30 iyun tarixində Heydər Əliyev Mərkəzində sessiyanın təntənəli açılış mərasimi keçirilmişdir. Mərasimin rəsmi hissəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESKO-nun Xoşməramlı Səfiri xanım Mehriban Əliyeva, UNESKO-nun baş direktoru xanım Odre Azuley və təşkilatın İcraiyyə Şurasının sədri Li Byonq-Hyun çıxış etmişdirlər. Daha sonra mərasim Azərbaycanın mədəniyyətinə həsr olunmuş və baş rejissoru Rusiyanın məşhur prodüseri Andrey Baltenkonun, müəllifi dünyaca məşhur Azərbaycanlı müğənni Sami Yusifin olduğu mədəni proqramla davam etmişdir.

10 iyul tarixinədək davam edən sessiyada dünyanın 180-dən artıq ölkəsindən 2500-dən çox nümayəndə iştirak etmişdir.

UNESKO səviyyəsində ən nüfuzlu tədbir hesab olunan sessiya çərçivəsində 7 iyul tarixində Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş “Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi” nominasiyası UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Bu, Azərbaycanın Ümumdünya İrs Siyahısında yer alan sayca 3-cü maddi irs nümunəsidir.

Sessiya zamanı 28-i mədəni, 6-sı təbiət və 2-si qarışıq olmaqla 36 nominasiya nəzərdən keçirilmiş, onlardan 29-u Komitənin müvafiq qərarları ilə Ümumdünya İrs Siyahısına daxil edilmişdir. Bununla da, siyahıdakı irs nümunələrinin sayı 869-u mədəni, 213-ü təbiət və 39-u qarışıq olmaqla 1121-ə çatmışdır.

Sessiya çərçivəsində müxtəlif ölkələr və beynəlxalq təşkilatlar tərəfindən 53 paralel tədbir keçirilmişdir. Bu tədbirlərin bir neçəsi UNESKO, İKOMOS, Dünya Vəhşi Təbiət Fondu, Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyi (IUCN), IKKROM və digər beynəlxalq qurumlar tərəfindən təşkil olunmuşdur. Bundan əlavə Türkiyə, Gürcüstan, Qırğızıstan, Qazaxıstan, Çin və digər ölkələrin muzeyləri tərəfindən sərgilər keçirilmişdir.

Sessiya çərçivəsində Azərbaycan iki beynəlxalq foruma - “Ümumdünya İrsi üzrə Gənc Peşəkarlar Forumu” və “Ümumdünya İrsi üzrə Abidə Menecerləri Forumu”na ev sahibliyi etmişdir.

Dünyanın 30 ölkəsini təmsil edən 30 gənc irs mütəxəssisinin iştirak etdiyi Gənc Peşəkarlar Forumu 24 iyun - 2 iyul tarixində keçirilmişdir. Forumun bu ilki mövzusu "Ümümdünya irsi: qlobal çağırışlar üçün yerli ideyalar" olmuşdur. Forumun ümumi məqsədi XXI əsrdə dünyada irsin idarə edilməsində mövcud problemlər və imkanların üzə çıxarılması olmuşdur. Tədbir çərçivəsində İçərişəhər, Qobustan, Qəbələ, "Yanardağ" Qoruqlarına tanışlıq turları, həmçinin "Lahıc misgərlik sənəti" ilə tanış olmaq məqsədilə tarixi Lahıc qəsəbəsinə səfər təşkil edilmişdir.

"Ümumdünya İrsi üzrə Abidə Menecerləri Forumu" isə 27 iyun – 4 iyul tarixində Mədəniyyət Nazirliyi, UNESKO-nun Ümumdünya İrs Mərkəzi, IKKROM, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun birgə təşkilatçılığı Bakı Konqres Mərkəzində keçirilmişdir.

Forum UNESKO-nun Ümumdünya İrs Siyahısında yer alan abidələrin idarə edilməsi ilə məşğul olan mütəxəssisləri bir araya gətirərək abidə menecmenti üçün ən son yeniliklərlə bağlı bilik və təcrübə mübadiləsi baxımından əhəmiyyətli platforma rolunu oynayır. Forumda 50-dən çox ölkəni təmsil edən 70-ə yaxın nümayəndə iştirak etmişdir.

Sessiya UNESKO-nun və Komitənin 43-cü sessiyasının rəsmi internet portalları vasitəsilə canlı yayımlanmışdır.

İl ərzində UNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilməsi məqsədilə yeni nominasiyalar müəyyən edilmiş, bu məqsədlə fayllar hazırlanmış və təqdim edilmişdir.

2020-ci ildə Reprezentativ siyahıya daxil edilməsi məqsədilə Azərbaycan tərəfindən "Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" nominasiya faylı hazırlanmış və təqdim edilmişdir. Nominasiya Qeyr-maddi mədəni irs üzrə Komitənin 2020-ci ildə keçiriləcək 15-ci sessiyasında müzakirəyə çıxarılacaqdır.

Türkiyə, Özbəkistan və İranla birgə "Miniatür sənəti" çoxmillətli faylının müzakirəsi məqsədilə cari ilin mart ayında Ankarada Azərbaycan, Türkiyə, Özbəkistan və İran nümayəndələri arasında işçi görüş keçirilmiş və müzakirələr aparılmışdır. Hazırda faylın hazırlanması ilə bağlı iş aparılır.

Qeyd olunanlarla yanaşı, hazırda Türkiyə ilə birgə "Balaban" və "Çay mədəniyyəti" fayllarının, eləcə də Azərbaycan tərəfindən "Zorxana oyunları" fayllarının hazırlanması ilə bağlı iş aparılır.

UNESKO-nun "Görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramı" çərçivəsində 12 iyun 2019-cu il tarixində Parisdə UNESKO-nun baş qərargahında Bakı Dövlət Universitetinin 100 illik yubileyi təntənə ilə qeyd olunmuşdur. Tədbirdə Təhsil naziri Ceyhun Bayramov, Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, UNESKO üzrə Azərbaycan Milli Komissiyasının baş katibi Elnur Sultanov, BDU-nun rektoru Elçin Babayev, Fransadakı səfirimiz Rəhman Mustafayev, UNESKO yanında Daimi Nümayəndəliyimizin rəhbəri, səfir Anar Kərimov, UNESKO yanında daimi nümayəndəliklərin rəhbərləri, Fransada akkreditə olunmuş diplomatik korpusun, işgüzar dairələrin, mədəniyyət və elm nümayəndələri, bu ölkədəki azərbaycanlı icmasının nümayəndələri iştirak etmişlər. Tədbirdə BDU-nun 100 illik tarixini dolğun əks etdirən videoçarx nümayiş etdirilmiş, həmçinin BDU-nun 100 illik fəaliyyətini əks etdirən tarixi və müasir şəkillərdən ibarət sərgi təşkil edilmişdir. Tədbirin mədəniyyət proqramı çərçivəsində konsert keçirilmişdir.

UNESKO-nun 2020-2021-ci illər üzrə "Görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı" çərçivəsində 2020-ci ildə qeyd edilməsi məqsədilə Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyi ilə bağlı aidiyyəti sənədlər hazırlanmış, nominasiyaya Rusiya Federasiyası da qoşulmuş və fayl birgə təqdim edilmişdir. Nəticədə UNESKO tərəfindən 2020-ci ildə Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin qeyd olunması təsdiq edilmişdir.

18-22 sentyabr tarixində Anqolanın paytaxtı Luanda şəhərində sülh mədəniyyəti naminə Pan-Afrika Forumu keçirilmişdir. Tədbir çərçivəsində Azərbaycan və UNESKO-nun birgə təşkilatçılığı ilə Bakı Prosesi və onun qlobal proseslərdə roluna həsr olunan xüsusi sessiya keçirilmişdir.

Oktyabrın 16-da UNESKO-nun baş qərargahında Azərbaycanın dahi şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinə həsr olunmuş möhtəşəm yubiley tədbiri keçirilmişdir.Tədbirdə Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, UNESKO baş direktorunun mədəniyyət üzrə müavini Ernesto Ottone, ölkəmizin UNESKO yanında Daimi Nümayəndəliyinin rəhbəri, səfir Anar Kərimov çıxış etmiş və daha sonra Azərbaycan incəsənət nümayəndələri tərəfindən Nəsimi yaradıcılığına həsr olunmuş konsert-tamaşa nümayiş etdirilmişdir.

Oktyabr ayının 24-də Azərbaycan Milli İncəsənət Muzeyində UNESKO-nun 2018-2019-cu illər üçün İştirak Proqramı çərçivəsində Azərbaycanın təqdim etdiyi və qranta layiq görülmüş "Mədəni sərvətlərin silahlı münaqişələrin və digər fövqəladə halların mümkün təsirlərindən qorunması" adlı layihənin təqdimat mərasimi keçirilmişdir. Layihə çərçivəsində UNESKO və Beynəlxalq Muzeylər Şurasından (İCOM) dəvət edilmiş ekspertlərin iştirakı ilə ölkəmizdə ikigünlük seminar keçirilmişdir. Tədbirdə protectheritage.az veb-saytının və Azərbaycan dilinə tərcümə olunmuş "Təhlükədə olan irs və muzey sərvətlərinin təxliyə qaydaları" adlı məlumat kitabının təqdimatı keçirilmişdir.

UNESKO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil edilməsi məqsədilə Bakı şəhərinin dizayn kateqoriyası üzrə namizədliyi ilə bağlı müvafiq fayllar UNESKO-ya təqdim edilmiş, cari ilin 30 oktyabr tarixində Bakı şəhəri dizayn kateqoriyası üzrə UNESKO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil edilmişdir. Hazırda Bakı şəhərinin "Yaradıcı şəhər" kimi brendləşdirilməsi məqsədilə aidiyyəti dövlət qurumları və yaradıcı sənaye nümayəndələri ilə birgə Tədbirlər Planının hazırlanması istiqamətində iş aparılır.

12-27 noyabr 2019-cu il tarixlərində UNESKO-nun Parisdə yerləşən baş qərargahında təşkilatın Baş Konfransının 40-cı sessiyası keçirilmişdir.

Sessiya çərçivəsində 19 noyabr tarixində ilk dəfə olaraq UNESKO-nun Mədəniyyət Nazirlərinin Forumu təşkil edilmişdir. 100-dən çox ölkənin mədəniyyət nazirlərinin iştirak etdiyi forumun əsas məqsədi Dayanıqlı inkişaf üzrə 2030-cu il Gündəliyində əks olunmuş çağırışlara münasibətdə mədəniyyət siyasətinin rolu və təsir imkanlarının qlobal səviyyədə müzakirə edilməsi olmuşdur. Forumda iştirak edən Mədəniyyət naziri Əbülfəs Qarayev "Mədəniyyət və irs – dialoq və sülh üçün bərpa olunan enerji" mövzusuna həsr olunmuş paneldə çıxış etmişdir.

20-22 noyabr tarixlərində UNESKO Baş Konfransının Mədəniyyət üzrə Komissiyasının iclası keçirilmişdir. Komissiyanın gündəliyinə UNESKO-nun Mədəni sərvətlərin qanunsuz idxalı, ixracı və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınması vasitələrinə dair 1970-ci il Konvensiyasının həyata keçirilməsinin gücləndirilməsi, üzv dövlətlərin Muzey və kolleksiyaların, onların müxtəlifliyi və cəmiyyətdə rolunun qorunması və təbliğinə dair 2015-ci il Tövsiyələrinin və Tarixi şəhər landşaftına dair 2011-ci il Tövsiyələrinin həyata keçirilməsi ilə bağlı hesabatlarının dinlənilməsi kimi məsələlər daxil olmuşdur.

27-28 noyabr 2019-cu il tarixlərində UNESKO baş qərargahında təşkilatın "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında" Konvensiyasının Baş Assambleyasının 22-ci sessiyası keçirilmişdir. Sessiyada iştirak edən Mədəniyyət naziri Əbülfəs Qarayev Ümumdünya İrs Komitəsinin sədri kimi 2018-2019-cu illər ərzində görülən işlər və Komitənin 43-cü sessiyasında qəbul edilən qərarlarla bağlı hesabatla çıxış etmişdir.

Səfər çərçivəsində, həmçinin UNESKO-nun baş direktoru Odre Azuleylə ikitərəfli görüş keçirilmişdir.

12-13 dekabr tarixlərində BMÜTT, UNESKO və Yaponiya Hökumətinin birgə təşkilatçılığı ilə Yaponiyanın Kyoto şəhərində "Gələcək nəsillərə yatırım" mövzusunda keçirilmiş 4-cü Ümumdünya Turizm və Mədəniyyət Konfransında Aparat rəhbərinin müavini – Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə UNESKO baş direktorunun müavini Xinq Qu, təşkilatın sabiq baş direktoru Koiçiro Matsuura və bir sıra ölkələrin nümayəndələri ilə görüş keçirərək Azərbaycanda mədəniyyət və mədəni irs, həmçinin yaradıcı sənayelər sahələrində həyata keçirilən layihələr barədə fikir mübadiləsi aparmışdır.

**İSESKO**

İSESKO-nun baş direktor vəzifəsinə yeni namizədin təqdim edilməsi və təsdiqlənməsi məqsədilə cari ilin 9 may tarixində Səudiyyə Ərəbistanının Məkkə regionunda İSESKO Baş Konfransının 3-cü növbədənkənar sessiyası keçirilmişdir. İclas zamanı Səudiyyə Ərəbistanı Krallığı tərəfindən namizədliyi irəli sürülmüş Dr. Salim bin Məhəmməd Əl-Malik İSESKO-nun yeni baş direktoru vəzifəsinə seçilmişdir. Sessiyada Azərbaycan Respublikasını Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

Cari ilin 15 noyabr tarixində Dünya dini liderlərinin II Bakı Sammiti çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyində "İslam sivilizasiyalarının mədəniyyət və irsi" adlı sərginin açılış mərasimi keçirilmişdir. Sərgidə Azərbaycanla yanaşı, bir sıra İslam ölkələrinin irsinə həsr olunmuş əsərlər, fotolar, eləcə də Azərbaycan Milli İncəsənət, Milli Xalça və Musiqi Mədəniyyəti Dövlət muzeylərinin kolleksiyalarından eksponatlar nümayiş olunmuşdur.

2019-cu ilin noyabr ayında Səudiyyə Ərəbistanının Ciddə şəhərində İƏT-in 50 illik Qızıl yubileyinə həsr olunmuş tədbirlər keçirilmişdir. Tədbirlərdə ölkəmizi muğam üçlüyü və Dövlət Mahnı və Rəqs Ansamblının üzvlərindən ibarət nümayəndə heyəti təmsil etmişdir.

Ümumbəşəri dəyər daşıyan tarix və mədəniyyət abidələrinin İSESKO-nun "Ümumdünya islam irsi siyahısı"na daxil edilməsi məqsədilə "İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" və "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" faylları İSESKO-ya təqdim edilmiş və siyahıya daxil edilmişdir.

Dekabrın 17-də Tunis Respublikasında keçirilmiş İSESKO-ya üzv ölkələrin Mədəniyyət nazirlərinin XI konfransında Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. "İslam dünyasında mövcud mədəniyyət siyasətlərinin inkişafı uğrunda" devizi altında keçirilən konfransda 50 ölkənin mədəniyyət nazirləri və nümayəndə heyətləri, eləcə də 16 regional və beynəlxalq təşkilatın təmsilçiləri iştirak etmişdirlər. Konfransın açılış mərasiminin sonunda Vaqif Əliyevə "Naxçıvan – İslam Mədəniyyətinin Paytaxtı – 2018" ili çərçivəsində mədəniyyətin təbliği və mədəni layihələrdə yaradıcılıq və innovasiyanın təşviqinə görə "Ən yaxşı mədəni layihə üzrə İSESKO mükafatı" təqdim olunmuşdur.

**MDB (Müstəqil Dövlətlər Birliyi)**

2019-cu ilin 15 may tarixində Türkmənistanın paytaxtı Aşqabadda MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun təşkilatçılığı ilə "Birlik ölkələrində ümumi humanitar məkan: mədəniyyət, təhsil və elm sahələrində dialoq" mövzusunda MDB-yə üzv ölkələrin elm və yaradıcı ziyalılarının XIV Forumu keçirilmişdir. Forumda Mədəniyyət nazirinin müavini Rafiq Bayramovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.

Hesabat ilinin 17-20 sentyabr tarixində Tacikistanın Düşənbə şəhərində keçirilmiş MDB-yə üzv dövlətlərin Turizm üzrə Şurasının iclasında nazirliyin Aparatının rəhbəri Fikrət Babayevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir.

**TÜRKSOY**

TÜRKSOY Daimi Şurasının 2018-ci ildə keçirilmiş 36-cı iclasında 2019-cu il təşkilat çərçivəsində "İmadəddin Nəsimi" ili elan edilmişdir. Bununla əlaqədar olaraq cari ilin 6-7 mart tarixlərində TÜRKSOY-un Ankarada yerləşən baş qərargahında, həmçinin İstanbul şəhərində Mədəniyyət naziri Əbülfəs Qarayevin iştirakı ilə "Nəsimi ili"nin açılış mərasimləri keçirilmişdir. İl çərçivəsində "İmadəddin Nəsimi dünya dillərində" adlı kitab nəşr olunmuş, Bakı, Ankara, İstanbul, Türküstan və digər şəhərlərdə təqdimatı keçirilmişdir.

TÜRKSOY Daimi Şurasının 2019-cu ilin 30 noyabr tarixində keçirilmiş 37-ci iclasında nazir müavini Rafiq Bayramov iştirak etmişdir. İclasın yekununda Azərbaycan tərəfindən irəli sürülən Xalq rəssamı Əzim Əzimzadənin 140 illik yubileyi, Xalq yazıçısı Süleyman Rəhimovun 120 illik yubileyi, Xalq şairi Rəsul Rzanın 110 illik yubileyi, Əməkdar incəsənət xadimi, yazıçı Xanımana Əlibəylinin 100 illik yubileyi, Kinorejissor, Xalq artisti Həsən Seyidbəylinin 100 illik yubileyi, Bəstəkar Vaqif Mustafazadənin 80 illik yubileyinin qeyd olunması və "TÜRKSOY-a

üzv ölkələrdə Yaradıcı və Mədəniyyət Sənayelərinin İnkişafına dair birgə proqram"ın həyata keçirilməsi ilə bağlı təkliflər təşkilatın 2020-ci il üçün Fəaliyyət Planına daxil edilmişdir. Bundan əlavə, Özbəkistan Respublikasının Xivə şəhəri 2020-ci il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdur.

**"Bakı Prosesi" və V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri tərəfindən imzalanmış 31 yanvar 2019-cu il tarixli 10 nömrəli Sərəncama əsasən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Tədbirlər Planı təsdiqlənmişdir.

Mədəniyyət naziri Əbülfəs Qarayevin 26-29 mart 2019-cu il tarixlərində Parisə səfəri çərçivəsində UNESKO-nun baş qərargahında Bakı Prosesi beynəlxalq işçi qrupunun iclası və Forumla bağlı məlumat sessiyası keçirilmişdir.

2-3 may 2019-cu il tarixində Bakı şəhərində "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" mövzusunda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir.

Azərbaycan Hökumətinin təşkilatçılığı, UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, BMT-nin Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası və İSESKO-nun tərəfdaşlığı ilə keçirilən forumda BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi, İSESKO, İƏT, İRSİKA, TÜRKSOY, TÜRKPA, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Mədəniyyəti və İrsi Fondu kimi təşkilatların rəhbərləri, UNESKO-nun baş direktorunun sosial və humanitar elmlər üzrə müavini, Avropa Şurası baş katibinin müavini, çoxsaylı ölkələrin dövlət və hökumət rəsmiləri, o cümlədən beynəlxalq təşkilatların təmsilçiləri daxil olmaqla ümumilikdə 2 min nəfərə yaxın nümayəndə iştirak etmişdir. Tədbir BMT tərəfindən təşkilatın rəsmi internet səhifəsi vasitəsilə canlı yayımlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə baş tutan forumun açılış mərasimində BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Anxel Moratinos, UNESKO baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd Əl-Osaymin, Avropa Şurasının baş katibinin müavini Qabriella Battaini-Draqoni və İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycri çıxış etmişdirlər.

Forum çərçivəsində 3-cü Akademik Forum, Beynəlxalq Təşkilatların 2-ci Yüksək Səviyyəli Görüşü, Nazirlərin 4-cü Yüksək Səviyyəli Görüşü, həmçinin müxtəlif aktual mövzularda aralıq sessiyalar və əlavə tədbirlər təşkil olunmuş, "İpək Yolu gənclərin gözü ilə" sərgisinin açılışı baş tutmuşdur.

Tədbirin rəsmi tərəfdaşları ilə yanaşı BMT-nin Sülh Universiteti, BMT-nin Terrorla Mübarizə İdarəsi, Cenevrə İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq Mərkəzi tərəfindən bir sıra tədbirlər keçirilmişdir.Tədbirin sonunda forumun tərəfdaşları ilə birgə dünyada sülh və mədəniyyətlərarası dialoqu təbliğ edən 2 illik Fəaliyyət Planı qəbul olunmuşdur.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu 2019-cu ildə BMT-nin Baş katibi tərəfindən mədəniyyətlərarası və dinlərarası dialoq sahəsində BMT-nin ən vacib qlobal platforması elan edilmişdir

Beynəlxalq layihələr və proqramlar üzrə əməkdaşlığın gücləndirilməsi, innovasiyaların tətbiqi və yaradıcı sənayelərin inkişaf etdirilməsi cari ildə Nazirliyin əsas prioritet istiqamətlərindən biri olmuşdur.

Mədəniyyət Nazirliyi tərəfindən 2019-cu il ərzində Yaradıcı Sənayelərin (YS) inkişafı və bir sıra planlaşdırma istiqamətində tədbirlər həyata keçirilmişdir. Britaniya Şurasının (British Council) dəstəyi ilə əcnəbi ekspertlə birgə ölkədə fəaliyyət göstərən YS-lərin vəziyyətinə dair araşdırma aparılmış, 18 yanvar 2019-cu il tarixində British Council və Mədəniyyət Nazirliyinin birgə hazırladığı "Azərbaycanda Yaradıcı və Mədəniyyət sənayelərinə dair Vəziyyətin Təhlili" adlı hesabat sənədi təqdim olunmuşdur. Sənəddə Yaradıcı Sənayelər sektorunun dünya iqtisadiyyatında rolu, Azərbaycan kontekstində mövcud vəziyyət, YS-lərin Azərbaycan

iqtisadiyyatına töhfəsi, bu sahə üzrə çatışmazlıqlar, dövlət-özəl tərəfdaşlığı və tərəfdaşlıq üzrə boşluqlar barədə məlumatlar təqdim edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına Azərbaycanda YS-lərin inkişafını dəstəkləyəcək təkliflər paketi təqdim olunmuş və ölkə rəhbərliyinin müvafiq göstərişinə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının müvafiq şöbələri, Birinci Vitse-Prezidentin Katibliyi, İqtisadiyyat Nazirliyi ilə müzakirələr aparılmışdır.

12 fevral 2019-cu il tarixində "Yaradıcı və Mədəniyyət Sənayelərinin inkişafına dair zəruri fəaliyyətlərin həyata keçirilməsi ilə bağlı 2019-cu il üçün Fəaliyyət Planı" təsdiq edilmişdir. Planda aidiyyəti qurumlarla birlikdə planlaşdırma və hazırlıq fəaliyyətlərinin təşkili və həyata keçirilməsi yolu ilə YS-lərin inkişafına dair strateji sənədin hazırlanması, YS-lərə dair Startap Müsabiqəsi və forumun təşkili, sahəvi təşkilatların (şuraların) yaradılması, YS-lər sektoru ilə işləmək üçün kommunikasiya strategiyasının hazırlanması, çoxşaxəli maarifləndirmə və təbliğat işinin aparılması, "Kreativ Azərbaycan" brendinin yaradılması, eləcə də mədəniyyət sahəsində sahəvi idarəetmə modelləri üzrə təlimatların hazırlanması, Mədəniyyət Nazirliyi və ona tabe qurumların əməkdaşları üçün tematik təlimlərin və qiymətləndirmələrin təşkili kimi əsas fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

Müvafiq dövlət qurumları, özəl sektor nümayəndələri və fərdi sahibkarlarla maarifləndirmə və təbliğat fəaliyyətlərinin əks olunduğu YS-lərə dair kommunikasiya strategiyasının ilkin versiyası hazırlanmışdır. Bu sənədin hazırlanmasında məqsəd YS-lər və onların inkişafı ilə əlaqədar dünyada, regionda və ölkədə gedən proseslər barədə müvafiq dövlət qurumları, özəl sektor, ictimai qurumlar və KİV-lərlə maarifləndirmə və təbliğat fəaliyyətlərinin təfsilatlarının (hədəf qrupları, ötürüləcək mesajlar, kommunikasiya metodları və s.) müəyyən edilməsidir.

Yaradıcı iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində universitetlərarası bilik və təcrübə mübadiləsinə dəstək məqsədilə Britaniya Şurası tərəfindən həyata keçirilən "Creative Spark" proqramı çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə nüfuzlu London İncəsənət Universiteti (UAL), Birləşmiş Krallığın Gradcore təşkilatı, Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) və "YARAT" Müasir İncəsənət Məkanı arasında tərəfdaşlıq layihəsi olan "Bumeranq" təqdim edilmişdir. Layihə 2018-ci ilin oktyabr ayında Britaniya Şurası tərəfindən qalib elan olunmuş, 50 min funt sterlinq məbləğində vəsait udmuşdur. Layihə çərçivəsində qarşılıqlı səfərlər, görüşlər, turlar təşkil edilmiş, bilik və təcrübə mübadiləsi aparılmış, o cümlədən ADMİU-da Gradcore təşkilatı tərəfindən ustad dərslər təşkil edilmişdir. Proqram nəticəsində İngiltərə və Azərbaycanın mədəniyyət və incəsənət universitetləri arasında yeni əməkdaşlıq əlaqələri qurulmuş, tələbələrin yaradıcılıq və sahibkarlıq qabiliyyətləri inkişaf etdirilmiş, yaradıcı təşəbbüslərin irəli sürülməsi təşviq edilmişdir.

2019-cu ilin 8 oktyabr tarixində Azərbaycan Milli Xalça Muzeyində Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayevin iştirakı ilə ölkədə YS-lər üzrə fəaliyyət göstərən aparıcı şirkətlərin rəhbərləri, prodüserlər və fərdi ekspertlərlə görüş təşkil olunmuşdur. Görüşdə Azərbaycanda YS-lərin inkişafı istiqamətində aparılan fəaliyyətlər və perspektiv planlar haqqında məlumat verilmiş, sənaye nümayəndələri ilə fikir bölgüsü aparılmış, onların rəy və təklifləri dinlənilmişdir.

2019-cu ilin 10 oktyabr tarixində Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə "Kreativ Azərbaycan: yaradıcı məhsulların "Azexport.az" portalı vasitəsilə ixrac imkanları" mövzusunda təqdimat keçirilmişdir. Tədbirdə həmçinin satılan elektron kitabların rəmzi ödəniş qəbzi təqdim edilmiş və "Azexport.az" portalının fəaliyyəti, eləcə də portalın "İxrac səbəti"nə ulduz səfirlərin öz məhsullarını təqdim etməsi ilə bağlı videoçarx nümayiş olunmuşdur.

28 oktyabr 2019-cu il tarixində Böyük Britaniyanın Plimut İncəsənət Kollecinin nümayəndələri Matiyas Rikardo Şortkuk və Kim Baqli ilə "Crafting Futures" proqramı ilə əlaqədar görüş keçirilmişdir. Görüşdə Britaniya Şurasının dəstəyi ilə həyata keçirilən "Crafting Futures" proqramının paytaxt Bakı ilə yanaşı, regionlarda fəaliyyət göstərən sənətkarlara da tətbiq olunması barədə razılıq əldə olunmuşdur.

2019-cu ilin 23 noyabrın tarixində Mədəniyyət Nazirliyinin dəstəyi, “Azerbaijan Digital Arts School” (ADAS) və “Graphic Design Azerbaijan” (GDAZ) qrupunun təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində “Azərbaycan Dizayn Forumu 2019” adlı tədbir keçirilmişdir.

2019-cu ilin 9 dekabr tarixində Bakı Konqres Mərkəzində “Kreativ Azərbaycan” portalının (creative.az) təqdimatı və “Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar” mövzusunda panel müzakirəsi keçirilmişdir.

Tədbirdə Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov, Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini Əli Abdullayev, İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Anar Quliyev və Britaniya Şurasının Azərbaycan üzrə ofisinin rəhbəri Samr Şah panelist qismində iştirak etmişlər.

2019-cu ilin 26-27 noyabr tarixlərində Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Bakı şəhərinin Baş Planının hazırlanması üzrə işçi qrupun prioritet təşkil edən layihə təkliflərinin müəyyənləşdirilməsi məqsədilə yekun Strateji Sessiyası təşkil olunmuşdur. Tədbirdə Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsi tərəfindən “Yaradıcı sənaye klasteri: daha inkluziv iqtisadiyyat, cəlbedici şəhər, innovativ və yaradıcı istedadlar” layihəsinin təqdimatı həyata keçirilmişdir. Təqdimatda yaradıcı və mədəniyyət sənayelərinin dünya iqtisadiyyatına verdiyi töhfə və ölkəmizdəki inkişaf potensialı barədə məlumat verilmiş, bu sahə üzrə yaradıcı şəxsləri və biznes nümayəndələrini bir araya gətirəcək yaradıcı sənaye klasterinin yaradılması və ilkin layihəsi təklif edilmişdir. Sözügedən təklif dayanıqlı iqtisadiyyat, biznes mühitinin inkişaf etdirilməsi, yaradıcı şəxslərinin dəstəklənməsi və şəhər cəlbediciliyinin artırılması kontekstində maraqla qarşılanmış, strateji layihələr arasında ən prioritet layihə statusunu qazanmış və pilot layihə kimi qəbul olunmuşdur. Layihənin icrası istiqamətində iş aparılır.

Dövlət tərəfindən maliyyələşdirilən və idarə olunan mədəniyyət sahəsi ilə müstəqil yaradıcı sənayelərin əlaqələndirilməsi, yaradıcılıqla biznesi bir araya gətirən təşəbbüslərin dəstəklənməsi və inkişafı, biznes təşkilatlarının və gənclərin bu sahəyə marağının artırılması və ölkədə startap fəlaiyyətinin dəstəklənməsi məqsədilə “Social Innovation Lab (Sil.)” innovasiya mərkəzi ilə birgə YS-lər sahəsində dünyada ən genişmiqyaslı və tanınmış startap müsabiqəsi olan və 80-ə yaxın ölkəni əhatə edən “Creative Business Cup” Beynəlxalq Startap Müsabiqəsinin Azərbaycan üzrə 2019-cu il üçün milli mərhələsini həyata keçirmişdir. Milli müsabiqə musiqi, film, video & fotoqrafiya, sənətkarlıq, rəssamlıq və heykəltəraşlıq, teatr, ədəbiyyat və nəşriyyat, radio və televiziya, dizayn, moda, memarlıq, reklam, kompüter oyunları və elektronika, oyuncaqlar və oyunlar, 3d çap, proqram təminatı, antik bazarlar, reklam, qastronomiya, asudə vaxt fəaliyyətləri ilə əlaqədar innovativ startaplar üçün açıq elan edilmişdir. Müsabiqədə innovativ yaradıcı biznes ideyalarına malik sahibkar ruhlu şəxslər – gənc tələbələr, sahibkarlar, startapçılar, müəllimlər və digər iddiaçılar iştirak etmişdir. Müsabiqə çərçivəsində müsbət dəyərləndirilmiş startaplar təlimlər vasitəsilə ölkə finalına hazırlanmışdır. 17 aprel tarixində Azərbaycan-Fransız Universitetində ölkə finalı baş tutmuşdur. Məsləhətləşmələr əsasında Brailletech (görmə məhdudiyyəti olan uşaqların Brayl əlifbasını sürətlə öyrənmək üçün vasitə (https://www.facebook.com/BrailleTeach/) 1-ci yerə, Climasel (enerji istifadəsinə qənaət etmək, otaqda temperaturu saxlamaq və yeni dizaynı təmin etmək üçün soyutma tavanı və divar paneli təklif edən startap (https://www.facebook.com/Climaselstartup/) 2-ci yerə, Imaginery (hər hansı təsvir yaxud epizodun şəkli ilə filmin adını müəyyən edən mobil tətbiq) layihəsi isə 3-cü yerə layiq görülmüşdür. Müsabiqənin "Dünya Finalı" çərçivəsində Danimarkanın Kopenhagen şəhərində 29-30 iyun tarixində Dünya Finalistləri üçün Kamp, 1-2 iyul tarixində Kopenhagendə Dünya Finalı baş tutmuşdur. Dünya Finalında ölkəmizi milli müsabiqənin 1-ci yer üzrə qalibi Brailletech startapı təmsil etmişdir. “Creative Business Cup” çərçivəsində həmçinin müxtəlif nominasiyalar üzrə qaliblər seçilmişdir. Ən bəyənilən xanım startapçı “Atabala” layihəsi ilə Yasəmən

Cabbarova, sosial şəbəkədə ən aktiv startapçı isə eyni layihə ilə Yasəmən və Ceyhun Cabbarovlar seçilərək hədiyyələrlə təltif olunmuşlar.

Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə Britaniya Şurası tərəfindən “Creative Spark” proqramı çərçivəsində “Big İdea Challenge” adlı layihə müsabiqəsi təşkil olunmuşdur. 19 iyul 2019-cu il tarixində ölkə üzrə mükafatlandırma mərasimi baş tutmuşdur. Mükafatlar bir neçə kateqoriya üzrə (yaradıcılıq, rəqəmsal texnologiyalar, sosial təsir, xalqın seçimi və ölkə üzrə qalib) təqdim olunmuşdur. Qaliblər pul mükafatı və sertifikatlarla təltif olunmuşlar. “Bum” layihəsi ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbəsi Sevan Məhəmmədpur qalib elan olunmuşdur. Qalib layihə Big İdea Challenge yarışmasının dünya mərhələsində Azərbaycanı təmsil etmişdir.

1-14 may 2019-cu il tarixində ölkəmizdə Mədəniyyət Nazirliyinin tərəfdaşlığı, Birləşmiş Mədəniyyətlər Təşkilatının və Avropa İttifaqının təşkilatçılığı ilə təşkil olunan “IMAGINE” Avropa Tolerantlıq Festivalı keçirilmişdir. Sayca üçüncü dəfə təşkil olunan “IMAGINE” tolerantlıq və mədəni müxtəliflik festivalının proqramına sənədli film, musiqi axşamları, ustad dərsləri, teatr tamaşaları, həmçinin dünya şöhrətli rejissor və musiqiçilərlə diskussiyalar daxil idi.

24 iyun 2019-cu il tarixində “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Azərbaycan Memarlıq və İnşaat Universiteti arasında təhsil, innovasiya, elm, ixtisasartırma və məşğulluq sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu” imzalanmışdır.

2019-cu ilin 30 oktyabr tarixində Mədəniyyət Nazirliyində Kiçik və Orta Biznesin İnkişaf Agentliyinin nümayəndələri ilə görüş keçirilmiş və birgə Milli Suvenir Müsabiqəsinin təşkili ilə əlaqədar danışıqlara başlanılmışdır.

Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Azərbaycan Milli Elmlər Akademiyasının birgə tərəfdaşlığı ilə həyata keçirilən Üçüncü Respublika İnnovasiya Müsabiqəsinin təşkili prosesində Nazirlik fəal iştirak etmişdir.

## DÖVLƏT QULLUĞU VƏ KADR MƏSƏLƏLƏRİ

Hesabat dövründə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 108 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası”nın, 2007-ci il 5 fevral tarixli 522 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları”nın, 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları”nın, 2002-ci il 28 yanvar tarixli 665 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları”nın, 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun icrası ilə bağlı bütün zəruri tədbirlər görülmüşdür.

2019-cu ildə dövlət qulluğuna qəbul üzrə müsabiqələrdə müvəffəqiyyət qazanmış namizədlərdən 37 nəfər nazirliyin strukturunda müvafiq vakant dövlət qulluğu vəzifələrinə təyin edilmişdir. Onlardan 11 nəfər Nazirliyin aparatında, 7 nəfər Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində, 19 nəfər regional mədəniyyət idarələrində işə qəbul olunmuşlar.

Ötən dövr ərzində 4 nəfər nazirliyin aparatında, 8 nəfər Dövlət Xidmətində, 29 nəfər regional mədəniyyət idarələrində daimi dövlət qulluğuna qəbul edilmişlər.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli qərarı ilə təsdiq edilmiş “Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsilə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar”a uyğun olaraq əmək müqavilələrinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və xitam verilməsinin elektron qaydada qeydiyyata alınması məqsədi ilə hesabat dövründə

nazirliyin vəzifələr nomenklaturası üzrə bağlanılmış əmək müqavilələri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Elektron İnformasiya Sisteminə daxil edilmişdir. Cari ilin sentyabr ayında əmək haqlarının artırılması ilə əlaqədar nazirliyin strukturuna daxil olan və tabeliyindəki müəssisələrin 643 əməkdaşının əmək müqaviləsində müvafiq dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 21 iyun tarixli 420 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması Qaydaları"na uyğun olaraq Nazirliyin dövlət qulluqçuları barədə müvafiq məlumatlar Dövlət Qulluqçularının Reyestri İnformasiya Sisteminə (DQRİS-ə) göndərilmişdir.

Hesabat dövründə Maliyyə Nazirliyinin təqdim etdiyi "Büdcə təşkilatları üçün Maliyyə və Mühasibatlıq Hesabatları" avtomatlaşdırılmış informasiya sisteminə (SERP) nazirliyin aparatının işçiləri barədə kadr məlumatları (işçilərin əmək fəaliyyəti, əmək haqqı, məzuniyyətlər, ixtisas dərəcələrinə və qulluq stajlarına görə əlavə haqların verilməsi, əmək qabiliyyətinin olmaması barədə məlumatlar və sair) daxil edilmişdir.

Cari ildə çalışmanın yaş həddi ilə bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş müddəaların icrası ilə əlaqədar nazirliyin aparatından 4 nəfər, Dövlət Xidmətindən 1 nəfər, Regional idarələrdən 5 nəfər və nazirliyin nomenklaturasına daxil olan vəzifələrdən 36 nəfər ümumilikdə 46 nəfər işçinin çalışma müddəti uzadılmışdır,

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya" təsdiq edilmişdir. "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya"nın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planı ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2019-cu il üçün Tədbirlər Planı" təsdiq edilmişdir.

4 iyun 2019-cu il tarixində Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən "Rəhbər şəxslər üçün səriştə əsaslı idarəetmə", 5-6 dekabr 2019-cu il tarixdə "Dövlət İdarəçiliyində səriştə modeli: Çətinliklər və həll yolları" adlı seminarlarda, Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində 11-14 iyun 2019-cu il tarixində keçirilən "HR-analitika effektiv kadr idarəetmə sisteminin qurulmasının əsası kimi BIG-DATA ilə iş" adlı kursda iştirak edilmişdir.

2-9 aprel və 1-3 may 2019-cu il tarixlərində nazirliyin tabeliyində olan 46 təşkilatın kadr və kargüzarlıq üzrə 58 nəfər mütəxəssisi üçün təlimlər keçirilmişdir. Oktyabr ayı ərzində isə həmin müəssisə və təşkilatlarda bu işlərinin aparılması yoxlanılmış və lazımi metodiki köməklik göstərilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və digər əlamətdar hadisələrlə əlaqədar təltif edilmiş 135 nəfər mədəniyyət və incəsənət xadiminə rəhbərlik tərəfindən fəxri ad, orden və medalları təqdim etmişdir.

Eyni zamanda "Əmək veteranı" adının verilmə qaydalarına uyğun olaraq hesabat dövründə mədəniyyət sahəsi üzrə 57 nəfərə müvafiq vəsiqələr verilmişdir.

Hazırda nazirliyin aparatında çalışan 48 nəfərin (34 %) dövlət qulluğunda qulluq stajı 15 ildən yuxarı, 34 nəfərin (24%) 10-15 il arası, 16 nəfərin (11%) 5-10 il arası, 33 nəfərin (23%) 1-5 il arası, 9 nəfərin (6%) qulluq stajı isə 1 ildən azdır. Nazirliyin dövlət qulluqçularından 10 nəfər (7%) dövlət qulluğunun müşaviri, 51 nəfər (36%) dövlət qulluğunun kiçik müşaviri, 17 nəfər (12%) 1-ci dərəcə dövlət qulluqçusu, 30 nəfər (21%) 2-ci dərəcə dövlət qulluqçusu, 10 nəfər (7%) isə yardımçı vəzifə tutan dövlət qulluqçularıdır.

## İQTİSADİYYAT VƏ PLANLAŞDIRMA

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mərkəzləşdirilmiş xərclər üzrə büdcə vəsaitindən maliyyələşdirilən büdcə təşkilatlarının xərclər smetaları Maliyyə Nazirliyinin Xəzinə Əməliyyatları şöbəsi tərəfindən qeydiyyatdan keçirilmişdir.

Hesabat dövründə Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və 15 Regional Mədəniyyət İdarəsinin büdcə və büdcədənkənar fərdi smetaları hazırlanaraq təsdiq edilmişdir.

«Mərkəzi Aparat», «Mədəniyyət», «Təhsil» bölmələri, Bakı şəhər Mədəniyyət Baş İdarəsi və 15 Regional Mədəniyyət İdarəsi üzrə müəssisələrə açılan vəsait Dövlət Xəzinədarlıq Agentliyinin müvafiq xəzinə orqanlarından müəyyən olunmuş qaydada alınmış və müəssisələrə çatdırılmışdır.

Dövlət büdcəsindən 2019-cu ildə «Mərkəzi Aparat» bölməsinə 5.909.629 manat, «Mədəniyyət» bölməsinə 123.539.549 manat, «Təhsil» bölməsinə 81.942.546 manat, Bakı şəhər Mədəniyyət Baş İdarəsi və 15 Regional Mədəniyyət İdarəsinə 65.922.116 manat vəsait ayrılmışdır ki, bu da 2018-ci il ilə müqayisədə müvafiq olaraq 15%, 7,8%, 15,6%, 6,8% çoxdur.

«Mərkəzi Aparat», «Mədəniyyət» və «Təhsil» bölmələri, həmçinin Bakı şəhər Mədəniyyət Baş İdarəsi və 15 Regional Mədəniyyət İdarəsii üzrə mərkəzləşdirilmiş xərclərdən maliyyələşən müəssisələrin büdcə vəsaitinin, habelə mərkəzləşdirilmiş «Mədəniyyət» xərcləri üzrə vəsaitin açılması təmin olunmuşdur.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin “Mərkəzi Aparat”, “Mədəniyyət”, “Təhsil” bölmələri, həmçinin Bakı şəhər Mədəniyyət Baş İdarəsi və Regional Mədəniyyət İdarələri üzrə 2019-cu ilə büdcə və büdcədənkənar xüsusi vəsait smetaları təsdiq olunaraq müəssisələrə göndərilmişdir.

«Mərkəzi Aparat», «Mədəniyyət», «Təhsil» bölmələri, həmçinin Bakı şəhər Mədəniyət İdarəsi və Regional Mədəniyyət İdarələri üzrə ştat cədvəlləri, xərclər smetası hazırlanmışdır.

“Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-ci il 13 mart tarixli 89 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 fevral 2019-cu il tarixli 68 nömrəli Qərarına əsasən VTC üzrə işçilərin əmək haqları, habelə “Təhsil müəssisələrində çalışan işçilərin əmək haqları mart ayının 1-dən artmışdır. Bununla əlaqədar olaraq yeni ştat cədvəlləri və xərclər smetası hazırlanaraq yerlərə göndərilmişdir.

Eyni zamanda teatr-tamaşa müəssisələrində çalışan işçilərin əmək haqlarının orta hesabla 50% artırılması ilə əlaqədar, habelə Azərbaycan Dövlət Musiqili və Rus Dram teatrlarına “akademik” statusların verilməsi ilə bağlı müxtəlif hesablamalar aparılmış və təqdim edilmişdir.

Mədəniyyət Nazirliyinin tabeliyində olan kitabxanaların, klub müəssisələrinin, uşaq musiqi məktəblərinin və digər statistik hesabatların 2018-ci il üzrə toplu (yekun) hesabatları, Mərkəzi Aparat üzrə 4-əmək (yekun) işçilərin sayı və əmək haqqı fondu hesabatı, rüblər üzrə 5 istehlak (elektrik və istilik enerjisi, təbii qaz və rabitə xidmətləri), 11 yanacaq nömrəli hesabatları qəbul edilərək toplusu hazırlanmış və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə təqdim olunmuşdur.

“Mərkəzi Aparat”, “Mədəniyyət”, “Turizm” və “Təhsil” bölmələri, həmçinin Bakı şəhər Mədəniyyət İdarəsi və regional mədəniyyət idarələri üzrə öhdəlik sənədləri hazırlanmış və Dövlət Xəzinədarlıq Agentliyinə və müvafiq xəzinədarlıq idarələrinə təqdim olunmuşdur.

## SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ

2019-cu il ərzində Mədəniyyət Nazirliyinə ümumi 9209 sənəd daxil olmuşdur. Onlardan Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 373, Milli Məclisdən 17, Nazirlər Kabinetindən 1299, xarici ölkələrdən 778, müxtəlif yerli təşkilatlardan 4631 sənəd, vətəndaşlardan 2111 müraciət daxil olmuşdur.

İl ərzində nazirlikdən 6945 məktub göndərilmişdir ki, onlardan 307 Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına , 190 Nazirlər Kabinetinə, 11 Milli Məclisə, 374 xarici ölkələrə, 6063 müxtəlif yerli təşkilatlara və ayrı-ayrı şəxslərə ünvanlanmışdır.

Hesabat dövrü ərzində Nazirlik üzrə 1065 əmr (əsas fəaliyyət üzrə 355, ezamiyyələr üzrə 202, kadrlar üzrə 508), 308 sərəncam, 5 qərar qeydiyyata alınmışdır.

2019-cu ildə nazirlikdaxili “DocNet” elektron sənəd dövriyyəsi sisteminin tətbiqi həyata keçirilmişdir. Əməkdaşlara sistemdən istifadə qaydaları barədə təlimlər təşkil edilmişdir.

Bakı şəhərində yerləşən tabe müəssisələrdə kargüzarlığın qanunvericiliyin tələblərinə uyğun aparılması, əmək qanunvericiliyinin tələblərinə əməl edilməsi, kadrlar uçotunun şəxsi vərəqəsi, avtobioqrafiyanın düzgün tərtib edilməsi, əmək müqaviləsi bildirişlərinin müvafiq elektron informasiya sisteminə daxil edilməsi və s. ilə bağlı tövsiyələrin verilməsi, yaranan sualların cavablandırılması məqsədilə Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş və Dövlət qulluğu və kadr məsələləri şöbələrinin əməkdaşları tərəfindən 1-3 may 2019-cu il tarixində Azərbaycan Milli Kitabxanasında 40 müəssisədən ümumilikdə 52 nəfərin iştirak etdiyi təlimlər təşkil edilmiş, eyni zamanda dövr ərzində regional mədəniyyət idarələrindən kargüzarlığın aparılmasına dair şifahi sorğular cavablandırılmışdır.

**İNFORMASİYA VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR**

Hesabat dövrü ərzində nazirliyin təşkilatçılığı, dəstəyi və iştirakı ilə qeyd olunan əlamətdar günlər, yubileylər, film təqdimatları, anım mərasimləri, sərgilər, konsertlər, festivallar və digər tədbirlər barədə məlumatlar hazırlanmış, məlumatların müxtəlif mətbu orqanları, xəbər saytları və informasiya agentlikləri tərəfindən yayılması təmin edilmiş, informasiyanın monitorinqi aparılmışdır.

Ümumilikdə il ərzində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyəti, nazirlik tərəfindən keçirilən tədbirlər, reallaşdırılan layihələr və mədəniyyət sahəsində görülən işlərlə bağlı internet saytlarında 132226, televiziya kanallarında 9147, qəzetlərdə 17343 məlumat yayımlanmışdır. Mədəniyyət Nazirliyinin rəsmi saytına il ərzində təxminən 3200-ə qədər xəbər yerləşdirilmişdir ki, bu da sayt vasitəsilə bir iş günü ərzində orta hesabla 12 xəbərin yayılması deməkdir.

Hesabat dövründə nazirliyin təsisçisi olduğu “Mədəniyyət” qəzetinin 96 sayı, “Mədəniyyət.AZ” jurnalının 6 sayı nəşr olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən 2019-cu ilin Azərbaycan Respublikasında “Nəsimi ili” elan edilməsi ilə əlaqədar iyul ayında “Mədəniyyət” qəzetinin və dekabr ayında isə “Mədəniyyət.AZ” jurnalının “Nəsimi-650” xüsusi buraxılışı hazırlanmışdır.

2019-cu ildə “Mədəniyyət” qəzetinin yanvar-dekabr ayları üzrə “Afişa” əlavəsi nəşr olunmuşdur. Mədəniyyət Nazirliyinin təşəbbüsü və dəstəyi ilə hazırlanaraq nəşr olunan “Afişa” əlavəsində Bakı şəhərindəki teatr və konsert müəssisələrinin aylıq repertuarı, sərgi salonlarının, kino nümayişi müəssisələrinin afişası barədə ətraflı məlumat verilmişdir. Nəşr Mədəniyyət Nazirliyinin və “ASAN Xidmət”in dəstəyi ilə “ASAN Xidmət” mərkəzlərində şəhər sakinlərinə və qonaqlara təqdim olunmuşdur. Nəsiminin 650 illik yubileyi və ölkəmizdə elan edilən “Nəsimi ili” ilə əlaqədar “Afişa”nın aprel-may buraxılışlarında böyük söz ustadının qəzəllərindən seçmələr də dərc edilmişdir. Burada həmçinin, dahi şairin Azərbaycan Milli Kitabxanasının fondunda saxlanılan kitabları, Nəsiminin həyat və yaradıcılığı ilə bağlı müxtəlif dillərdə işıq üzü görən nəşrlər haqqında məlumat verilmişdir. Eyni zamanda “Afişa” əlavəsinin aprel buraxılışı Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin müəllim və tələbələrinə, may-iyun sayları Azərbaycan Milli Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxucularına da təqdim edilmişdir.

Azərbaycanın mədəni irsinin dünyada təbliği, xalqımızın zəngin mədəniyyəti barədə ölkəmizə səfər edən qonaqlara ətraflı məlumat verilməsi, onların mədəniyyət ocaqlarında - teatr, konsert, kino müəssisələrində, muzey və qoruqlarda, sərgi salonlarında keçiriləcək tədbirlərdə iştirakının təşkil edilməsi məqsədilə 2 dildə “Culture Guide” yeni jurnal-kataloqun 8 nömrəsi və UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasına həsr olunmuş xüsusi buraxılışı (iyun-iyul) çapdan çıxmışdır.

Bakı şəhərində və regionlarda yerləşən mədəniyyət ocaqlarında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96 ildönümü ilə əlaqədar keçirilən silsilə tədbirlər barədə məlumatlar müxtəlif mətbu orqanları vasitəsilə ictimaiyyətə çatdırılmışdır. Həmçinin 20 Yanvar faciəsinin 29-cu, Xocalı soyqırımının 27-ci və azərbaycanlıların

soyqırımının 101-ci ildönümü ilə bağlı keçirilən silsilə tədbirlərin işıqlandırılması təmin edilmişdir.

2019-cu il ərzində Mədəniyyət naziri Əbülfəs Qarayevin Xızı, Tovuz, Cocuq Mərcanlı, Bakı, Lənkəran, Şamaxı, Balakən, Quba, Salyan, Naftalan, Ucar, Kürdəmir, Saatlı şəhər və rayonları üzrə keçirdiyi səyyar vətəndaş qəbulları barədə ictimaiyyət ətraflı məlumatlandırılmışdır. Dövr ərzində Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin İsmayıllı, Şəki, Xaçmaz, Neftçala, Gəncə, Göyçay, Ağdam və Şirvan, nazir müavini Rafiq Bayramovun isə Ağsu, Qax, Şabran, Biləsuvar, Goranboy, Ağdaş, Ağcabədi və Hacıqabul şəhər və rayonlarında keçirdiyi vətəndaş qəbulları mətbuatda geniş işıqlandırılmışdır.

Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyinin regional mədəniyyət idarələrinin informasiya məsələləri üzrə məsul şəxsləri üçün ictimaiyyətlə əlaqələr sahəsində peşəkarlığın artırılması və mətbuatla işin təkmilləşdirilməsi məqsədilə 2 gün davam edən təlim-kurs keçirilmişdir.

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə müzakirə edilən məsələlərlə bağlı mart ayında Azərbaycan Milli Kitabxanasında Mədəniyyət naziri Əbülfəs Qarayevin iştirakı ilə mətbuat konfransı keçirilmişdir. Mətbuat konfransında 40-dan artıq KİV nümayəndəsi iştirak etmişdir.

Mədəniyyət naziri Əbülfəs Qarayev Azərbaycan Televiziyasında “Günün nəbzi”, “Xəzər” Televiziyasında “Gündəm” və “ASAN Radio”nun “QəbuldASAN” proqramlarının qonağı olmuşdur. Proqramlarda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın martın 1-də mədəniyyət və incəsənət xadimləri ilə görüşü, eləcə də son illərdə mədəniyyət sahəsində aparılan islahatlar müzakirə olunmuşdur.

Hesabat ilinin iyul ayında Mədəniyyət naziri Əbülfəs Qarayevin “Real” televiziya kanalına müsahibəsi təşkil edilmişdir. Müsahibədə Prezident İlham Əliyevin himayəsi və iştirakı ilə cari ilin 2-3 may tarixində Bakı şəhərində “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı altında UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətindən və iyunun 30-dan iyulun 10-dək Bakıda keçirilən UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasından da söz açılıb, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşünün əhəmiyyəti vurğulanıb. Müsahibədə dövlət başçısının “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 15 yanvar 2019-cu il tarixli Fərmanının icrası iolə bağlı görülən işlərə dair geniş məlumat verilib.

5 noyabr 2019-cu il tarixində Əbülfəs Qarayevin İngiltərənin nüfuzlu “Country Reports” - “Newsweek International” qəzet və saytının Beynəlxalq məsələlər üzrə direktoru Susana Roviraya müsahibəsi təşkil olunmuşdur. Müsahibədə ölkəmizdə keçirilən çoxsaylı beynəlxalq konfrans və forumlar, mədəniyyət sahəsinin inkişafı, bu sahədə yeniliklər, ölkəmizin ev sahibliyi etdiyi mötəbər tədbirlər, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası barədə məlumat verib.

Noyabr ayında Mədəniyyət nazirinin "ARB 24" telekanalında yayımlanan “Kreativ sənaye” verilişinə, dekabr ayında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının rəsmi internet saytına müsahibələri təşkil edilib.

Cari ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) yaranmasının 10 illik yubileyi qeyd edilmişdir. Tədbirdə nazir Əbülfəs Qarayev media nümayəndələri ilə əməkdaşlığa görə Fəxri diploma layiq görülmüşdür.

Mədəniyyət Nazirliyi və Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu Azərbaycan Respublikasının Prezidentinin 11 yanvar 2019-cu il tarixli sərəncamına əsasən 2019-cu ilin "Nəsimi ili" elan edilməsi ilə əlaqədar “Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği" mövzusunda birgə fərdi jurnalist yazıları müsabiqəsi elan etmişdir. Yazıların qəbulu 8 aprel 2019-cu il tarixində başlamış, 28 iyun 2019-

cu il tarixində başa çatmışdır. Müsabiqəyə 23 kütləvi informasiya vasitəsindən 36 yazı daxil olmuşdur.

18 may - Beynəlxalq Muzeylər Günü münasibətilə televiziya, informasiya agentlikləri, xəbər saytları, yazılı mətbuat və digər kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə bir sıra mədəniyyət müəssisələrinə press-tur təşkil edilmişdir. Press-turun təşkil edilməsi nazirliyin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələri barədə ictimaiyyətin daha ətraflı məlumatlandırılması, nazirliyin KİV-lə əlaqələrinin daha səmərəli qurulması, ictimaiyyətlə əlaqələrinin daha da genişləndirilməsi və inkişaf etdirilməsi məqsədi daşıyıb. Qobustan Milli Tarix-Bədii Qoruğu, Azərbaycan Milli İncəsənət Muzeyinin yeni korpusu və Qara Qarayevin ev-muzeyinə təşkil edilən media-turda 40-a yaxın mətbuat orqanının nümayəndəsi (AzTV, ATV, İctimai TV, Xəzər TV, Real TV, Lider TV, ARB TV, ASAN Radio, AZƏRTAC, Oxu.az, Kaspi.az, Publika.az, Modern.az, Moscow-baku.az, Zerkalo.az, saytlar, eləcə də "Mədəniyyət", "Kaspi", "Bakı xəbər", "Ədalət" və s. qəzetlər) iştirak etmişdir.

30 iyun - 10 iyul 2019-cu il tarixində Azərbaycanın ev sahibliyi etdiyi UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası, Abidə Menecerləri Forumu, "Dünya irsi. Gənc Peşəkarlar Forumu", Sessiyanın açılışı, mətbuat konfransları, Şəki Xan sarayı ilə şəhərin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına salınması barədə qəbul olunan qərar, yerli və xarici ölkə jurnalistlərinin tədbirə akkreditasiyası, ikitərəfli görüşlərin işıqlandırılması həyata keçirilmişdir. Foruma hazırlıq müddətində nazirliyin rəsmi saytında və digər əməkdaşlıq edilən media qurumları ilə birgə forumla bağlı təbliğat işləri həyata keçirilmiş, nazirliyin nümayəndələrinin canlı yayımlarda, xəbər buraxılışlarında müsahibə və çıxışları təşkil olunmuşdur. Ölkə mətbuatında forumda iştirak edəcək jurnalistlərin siyahısı tərtib olunmuş, akreditasiyası ilə bağlı müvafiq işlər görülmüşdür. Sessiyaya 9 yerli televiziya kanalından 155 nəfər, 19 yerli informasiya agentliyindən 86 nəfər, 9 xarici televiziya və informasiya agentliyinin Bakıdakı nümayəndəliyindən 17 nəfər, 14 xarici ölkənin media qurumarından 100 nəfərdən çox nümayəndə akkreditasiyadan keçmiş və iştirak etmişdir.

Sessiyanın gedişi və yekunları ilə bağlı foto və informasiya materialları operativ olaraq nazirliyin və əməkdaşlıq edilən digər mətbu orqanlarının internet resurslarında yerləşdirilmiş, müxtəlif dillərə tərcüməsi təmin edilmişdir. Sessiyada iştirak edən yüksək səviyyəli xarici qonaqların, eləcə də Mədəniyyət Nazirliyinin məsul əməkdaşlarının və ekspertlərin ölkənin əksər televiziya kanallarında, mətbuat orqanlarında müsahibələri, canlı yayımlarda və analitik verilişlərdə çıxışları təmin edilmişdir. Ümumilikdə 15 iyun-15 iyul 2019-cu il tarixlərində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına hazırlıq müddətində, sessiya vaxtı və sessiyadan sonra informasiya və xəbər saytlarında 6482, qəzetlərdə 980 məlumat yayımlanmış, televiziya kanallarında 600-dən çox material efirdə getmişdir. Nazirliyin rəsmi internet saytında 17-30 aprel 2019-cu il tarixində 196 dəfə xəbər yayımlanmışdır.

Sentyabr ayından etibarən Mədəniyyət Nazirliyi və "Mədəniyyət" kanalının birgə layihəsi olan Əməkdar artist Ramil Qasımovun aparıcılığı ilə "Bizi birləşdirən mədəniyyət" adlı yeni layihəyə start verilib. Veriliş həftədə bir dəfə olmaqla şənbə günləri efirdə yayımlanır. Azərbaycan Dövlət Akademik Musiqili Teatrın binasında hazırlanan verilişin ilk qonağı Mədəniyyət naziri Əbülfəs Qarayev olmuşdur.

Avqust ayında Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) "Mədəniyyət.AZ" jurnalının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə dərc olunan "Yaşa, Yaşa Azərbaycan" adlı xüsusi buraxılışının təqdimatı olub.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə "Mədəniyyət" qəzeti redaksiyası tərəfindən "Azərbaycanın mədəniyyət təqvimi" adlı elektron kataloq hazırlanmışdır. Elektron kataloqda ilin müxtəlif ay və günləri üzrə Azərbaycanın mədəniyyət, incəsənət və ədəbiyyat tarixi, bu sahələrdə fəaliyyət göstərən tanınmış şəxsiyyətlər, əlamətdar günlər, mədəniyyətlə bağlı milli və beynəlxalq peşə bayramları, digər mühüm faktlar barədə üç dildə – Azərbaycan, rus və ingilis dillərində məlumatlar toplanmışdır.

Sentyabr ayında Mədəniyyət naziri Əbülfəs Qarayevin iştirakı ilə Muzey Mərkəzində teatr-konsert müəssisələrində yeni mövsümün açılışına həsr olunmuş brifinq keçirilib.

Azərbaycanın böyük şair və mütəfəkkiri İmadəddin Nəsiminin 650 yubiley ili çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Mədəniyyət" qəzetinin fotomüxbiri Orxan Əzimov 28 noyabr – 3 dekabr tarixlərində Suriyanın Hələb şəhərinə səfər edərək Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin məqbərəsini ziyarət edib, abidənin fotolarını çəkib. "Nəsimi ili"nə töhfə olaraq ərsəyə gətirilən fotoşəkillərdən ibarət sərgi 27 dekabr 2019-cu il tarixində Heydər Əliyev Sarayında nümayiş olunub.

Nazirliyin rəsmi "Facebook" səhifəsində ötən ilə nisbətən izləyicilərin sayı artmış, 4425 nəfərdən 31000 nəfərə çatmışdır.

Nazirliyin rəsmi "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi" adında "Twitter" hesabının 306 tviti, 134 izləyicisi var. "Twitter" sosial şəbəkəsində mədəniyyət sahəsini əhatə edən beynəlxalq və mötəbər tədbirlər, rəsmi görüşlər haqqında xəbərlər, həmçinin mütəxəssislərin fikirləri, müsahibələri və sitatları, yerli və xarici medianın nəşrləri barədə məlumatlar yerləşdirilir.

Nazirliyin rəsmi "Youtube" kanalında Azərbaycan mədəniyyəti ilə bağlı videomateriallar, xüsusən mədəniyyət və incəsənət xadimlərinin, görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığı haqqında qısa videoçarxlar, video-müsahibələr, televiziya çəkilişi zamanı aparılmış videoyazılar, tədbirlərdən çıxışlar və s. rəqəmsal məlumatlar öz əksini tapır. "AR Mədəniyyət Nazirliyi" adında fəaliyyət göstərən "Youtube" kanalında 60 video, 135 izləyici və 6000 görüntüləmə mövcuddur.

Dövr ərzində Şəki və İsmayıllı şəhərlərinin mədəniyyət sahəsini əhatə edən "shekiculture.az" və "ismayilliculture.az" saytları istifadəyə verilmişdir. "shekiculture.az" saytı iyun ayının 19-da "NETTY-2019" Milli İnternet-Mükafatının "Mədəniyyət və yaradıcılıq" nominasiyası üzrə qalibi olmuş, "ismayilliculture.az" saytı isə həmin nominasiya üzrə 2-ci yerə layiq görülmüşdür.

## TEXNİKİ TƏCHİZAT VƏ ƏMLAKIN İDARƏ EDİLMƏSİ

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə Tərtər rayonu ərazisində 1170 məcburi köçkün ailəsi üçün yeni yaşayış məhəlləsində tikilmiş musiqi məktəbi və Mingəçevir şəhəri ərazisində 594 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış məhəlləsində klub-icma mərkəzi binası nazirliyin tapşırığına əsasən Bərdə Regional Mədəniyyət İdarəsi tərəfindən, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ərazisində 100 məcburi köçkün ailəsi üçün yeni yaşayış qəsəbəsində tikilmiş klub-icma mərkəzi (2-ci mərhələ) Biləsuvar Regional Mədəniyyət İdarəsi tərəfindən balansa qəbul olunmuşdur.

Təhsil Nazirliyinin balansında olan Qusar Dövlət Rəsm Qalereyasının fəaliyyət göstərdiyi bina müvafiq dövlət orqanlarının razılığı alınaraq Nazirlər Kabinetinin 11 mart 2019-cu il tarixli 185s nömrəli sərəncamı ilə Mədəniyyət Nazirliyinin balansına verilmişdir. Bundan əlavə Nazirlər Kabinetinin 22 aprel 2019-cu il tarixli 281s nömrəli sərəncamı ilə Şirvan Şəhər İcra Hakimiyyətinin balansında olan Şirvan şəhərində yerləşən yataqxana binası nazirliyin balansına, 29 may 2019-cu il tarixli 373s nömrəli sərəncamı ilə isə nazirliyin balansında olan Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsində yerləşən Səttar Bəhlulzadə adına Mədəniyyət Sarayı Dövlət Sərhəd Xidmətinin balansına verilmişdir.

Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Biləsuvar rayonunun Əliabad kəndində inşa edilmiş muzey nazirliyin tapşırığına əsasən Biləsuvar Regional Mədəniyyət İdarəsi tərəfindən Milli Qəhrəman Mübariz İbrahimovun Xatirə Muzeyi kimi regional idarənin balansına götürülmüşdür. Hazırda binanın Əmlak Məsələlərinin Dövlət Komitəsində qeydiyyata alınması istiqamətində işlər görülür.

Mədəniyyət müəssisələri üçün inşa edilmiş binaların nazirliyin balansına qəbul edilməsinin sürətləndirilməsi məqsədi ilə bir sıra rayon icra hakimiyyəti orqanlarına müraciət olunmuşdur. Balakən Rayon İcra Hakimiyyəti tərəfindən müvafiq tədbirlər görülmüş və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 noyabr 2019-cu il tarixli 709s nömrəli

sərəncamı ilə rayon icra hakimiyyətinin balansında olan Uşaq incəsənət məktəbinin binası Mədəniyyət Nazirliyinin balansına verilmişdir.

Əmlak Məsələləri Dövlət Komitəsi respublikanın şəhər və rayonlarında inşa edilmiş Heydər Əliyev muzey və mərkəzləri binalarının (cəmi 64 bina) balansa götürülməsi ilə bağlı Mədəniyyət Nazirliyinə müraciət etmişdir. Bununla əlaqədar araşdırma aparılmış və məlum olmuşdur ki, 64 binanın 10-nun Mədəniyyət Nazirliyinə aidiyyəti yoxdur. Qalan 54 binadan 46-da nazirliyin tabeliyində olan Heydər Əliyev mərkəzləri (bundan 6 mərkəz aidiyyəti Regional mədəniyyət idarələrinin balansındadır) və 8-ində digər müəssisələr fəaliyyət göstərir. Heydər Əliyev mərkəzləri və nazirliyin digər müəssisələri yerləşən binaların qanunvericiliyə uyğun balansa götürülməsi aidiyyəti regional mədəniyyət idarələrinə tapşırılmışdır. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən keçirilən hərrac vasitəsilə Gəncə şəhərində “Xronika” kinoteatrı (yay zalı ilə birlikdə), Lənkəran rayonu Sinovli, Şovu və Darquba kənd klubları, Şamaxı rayonu Qaleybuğurt kənd klubu, Şəmkir rayonu Xuluf kənd klubu, Beyləqan rayonu Şərq qəsəbə Mədəniyyət evi, Qazax rayonu Canallı kənd klubu və İkinci Şıxlı kənd Mədəniyyət evi,  Tovuz rayonu Əyyublu kənd Mədəniyyət evi, Yardımlı rayonu Pirembel kənd klubu özəlləşdirilmiş və nazirliyin müvafiq əmrləri ilə həmin müəssisələr hesabat reyestrindən çıxarılmışdır.

Azərbaycan Respublikası Prezidentinin “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” 6 iyun 2007-ci il tarixli 586 nömrəli Fərmanına uyğun olaraq mərkəzi və yerli icra hakimiyyəti orqanları balanslarında olan əmlak və onun barəsində bağlanmış əqdlər barədə məlumatları dövlət əmlakının Registrinə daxil edilməsi məqsədilə “Daşınmaz dövlət əmlakın qeydiyyat vərəqəsi”ni, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2008-ci il tarixli 98 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət əmlakının qorunub saxlanması və ondan istifadə vəziyyəti haqqında illik xüsusi hesabat forması”nın Əmlak Məsələləri Dövlət Komitəsinə təqdim edilməsi üçün zəruri tədbirlər görülmüşdür. Eyni zamanda Nazirliyin tabeliyində olan hüquqi şəxs statuslu müəssisə və təşkilatların dislokasiyası hazırlanmış və Komitəyə göndərilmişdir.

Cari ildə nazirliyin mərkəzləşdirilmiş vəsaiti hesabına 13 obyektdə təmir və cari təmir işləri aparılmışdır. Bundan əlavə fəaliyyətdə olan mədəniyyət müəssisələri avadanlıq və inventarlarla təchiz edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2019-cu il tarixli 890 nömrəli, 20 fevral 2019-cu il tarixli 971 nömrəli, 6 mart 2019-cu il tarixli 1017 nömrəli və 13 mart 2019-cu il tarixli 1041 nömrəli sərəncamlarına əsasən 2019-cu ilin dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) hesabına mədəniyyət obyektlərinin əsaslı təmiri, yenidən qurulması və tikintisi üçün Mədəniyyət Nazirliyinə 7.160,0 min manat vəsait ayrılmışdır. Bu vəsait hesabına Binəqədi rayonunda İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasının əsaslı təmir və yenidən qurulma işlərinin davam etdirilməsi, Tovuz rayonunda aşıq H.Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyi binasının tikintisinin başa çatdırılması, Şabran rayonunun ərazisində yerləşən, V-VI əsrlərə aid “Çıraqqala” abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işlərinin aparılması nəzərdə tutulur. Bu sərəncamlara uyğun olaraq obyektlərin titul siyahısı hazırlanmış və müvafiq dövlət orqanlarına təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 17 mart 2010-cu il tarixli 239 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları”na uyğun olaraq növbəti büdcə ili və sonrakı üç il üçün Dövlət İnvestisiya Proqramı layihəsinin hazırlanması məqsədilə məlumatlar hazırlanmış və İqtisadiyyat Nazirliyinə təqdim olunmuşdur.

“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 15 yanvar 2019-cu il tarixli 472 nömrəli Fərmanının icrası barədə” Mədəniyyət Nazirliyinin 17

yanvar 2019-cu il tarixli 7 nömrəli əmrinin icrası ilə bağlı müvafiq qaydada aşağıdakı sənədlər yenidən tərtib edilmişdir:

- ✓ Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı;
- ✓ Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki regional mədəniyyət idarələrinin əhatə etdiyi qəsəbə və kəndlərdə yerləşən müəssisə və təşkilatlar barədə məlumat;
- ✓ Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan və işğalla əlaqədar fəaliyyəti dayandırılmış müəssisələrin siyahısı.

Azərbaycan Respublikası Prezidentinin 2019-2023-cü il illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair yeni dövlət proqramının hazırlanması ilə əlaqədar tapşırığının icrası ilə bağlı İqtisadiyyat Nazirliyindən 1 mart 2019-cu il tarixli müraciət daxil olmuşdur. Məsələ ilə əlaqədar araşdırma aparılmış, Bakı şəhəri və onun qəsəbələrində hazırda həllini gözləyən məsələlələrlə bağlı təkliflər, eləcə də “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2019-cu il tarixli Fərmanına uyğun olaraq nazirliyin tabeliyindəki mədəniyyət müəssisələrinin daha kompakt təşkili ilə bağlı tapşırıq nəzərə alınmaqla siyahı tərtib edilərək göndərilmişdir.

## ELM VƏ TƏDQİQATLAR

2019/2020-ci tədris ili üzrə Bakı Xoreoqrafiya Akademiyasının (BXA) orta ixtisas pilləsinə qəbul üçün 125 yer ayrılmışdır. Müvafiq yerlərə 33-ü ümumi orta, 2-si tam orta təhsil bazasından olmaqla cəmi 35 nəfər qəbul olmuşdur. Onlardan 26 nəfər dövlət sifarişli, 9 nəfər isə ödənişli əsaslarla təhsil alır. Orta ixtisas pilləsinə qəbul 28% təşkil edir.

Akademiyanın bakalavriat səviyyəsinə qəbul üçün 129 yer müəyyən olunmuşdur. Müvafiq yerlərə əyani şöbəyə 34 tələbə qəbul olmuşdur. Tələbələrdən 27-si dövlət sifarişli, 7-si isə ödənişli əsaslarla təhsil alır. Akademiyanın bakalavriat səviyyəsinə qəbul 26,3% təşkil edir.

Magistratura səviyyəsinə qəbul üçün 14 yer ayrılmışdır. Müvafiq yerlərə əyani şöbəyə 4 nəfər ödənişli əsaslarla tələbə qəbul olmuşdur. Akademiyanın magistratura səviyyəsinə qəbul 28.5%-dir.

BXA-da payız semestrinin nəticələrinin təhlilinə əsasən 2017/2018-ci tədris ili ilə müqayisədə 2018-2019-cu tədris ili üzrə orta ixtisas üzrə müvəffəqiyyət göstəricisi 15% artaraq 87%-ə, keyfiyyət göstəricisi isə 6% artaraq 13 %-ə çatmışdır. Eyni zamanda keçən tədris ili ilə müqayisədə bakalavriatın əyani təhsili üzrə müvəffəqiyyət göstəricisi 23% artaraq 83%-ə, keyfiyyət göstəricisi 4% artaraq 10%-ə, habelə bakalavriatın qiyabi təhsili üzrə müvəffəqiyyət göstəricisi 21% artaraq 96%-ə çatmışdır. 2018-2019-cu tədris ilinin payız semestrində magistr üzrə müvəffəqiyyət göstəricisi 88%, keyfiyyət göstəricisi isə 25% təşkil etmişdir.

Regionlarda xoreoqrafiya sahəsində ustad dərslərinin davam etdirilməsi, xoreoqrafiya sahəsində istedadlı uşaq və yeniyetmələrin aşkar edilməsi və gələcəkdə bu sahə üzrə təhsillərinin davam etdirmələrinin təşviqi məqsədilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin maliyyə və təşkilatı dəstəyi ilə BXA-nın mütəxəssisləri tərəfindən 23-25 may 2019-cu il tarixində Lənkəran şəhərində Lənkəran, Astara və Lerik, 30 may- 1 iyun tarixində Masallı rayonunda Masallı, Cəlilabad və Yardımlı, habelə 28-30 noyabr tarixində Balakən rayonunda, Balakən, Şəki, Zaqatala, Qax, Oğuz, 5-7 dekabr tarixində isə Biləsuvar rayonunda Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayonlarının mədəniyyət və təhsil müəssisələrinin xoreoqrafiya sahəsi üzrə mütəxəssisləri və təhsilalanları üçün ustad dərsləri təşkil edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin əmrinə müvafiq olaraq 3-7 aprel 2019-cu il tarixində MDB iştirakçı dövlətlərin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin birgə təşkilatçılığı ilə “World Harmony” adlı

klassik və folklor musiqisi üzrə gənc ifaçıların beynəlxalq müsabiqəsi keçirilmişdir. Müsabiqə nominasiyaların, musiqi janrlarının, yaş kateqoriyalarının müxtəlifliyinə və çoxluğuna görə fərqlənmişdir. Dünyanın 10 ölkəsindən (Azərbaycan, Almaniya, Rusiya, Macarıstan, Litva, Belorus, Ukrayna, Gürcüstan, Qazaxıstan, Özbəkistan) müxtəlif musiqi alətləri üzrə solo ifaçılar, rəqs, vokal, instrumental ansamblar, xor kollektivləri, ümumilikdə 700-dək müsabiqə iştirakçısı yarışmalara qatılmışdır. Müsabiqə iştirakçılarına müxtəlif yaş kateqoriyaları üzrə 6 nominasiyada Qran Pri, I, II və III yerlərin qaliblərinə müvafiq dərəcəli diplomlar, pul mükafatı və xatirə hədiyyələri təqdim olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 dekabr tarixli 819 s nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsinə dair Tədbirlər Planı"nda Mədəniyyət Nazirliyinə həvalə olunmuş müvafiq işlər həyata keçirilmişdir. Konfrans çərçivəsində açılış mərasiminin bədii hissəsi Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında V.Siqarevin "Şeytan ailəsi" adlı əsəri əsasında hazırlanmış "Ağ ölüm" tamaşasının nümayişi, habelə Azərbaycan İstiqlal Muzeyində "Narkomaniya bəşəriyyətin bəlası" adlı rəsm sərgisi təşkil olunmuşdur.

Görkəmli Azərbaycan alimi, akademik Yusuf Məmmədəliyevin Polşa elminə verdiyi töhfələri nəzərə alaraq, Krakov şəhərində yerləşən Stanislav Staşiç adına Dağ-Mədən Akademiyasının təklifi və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, ölkəmizin Polşa Respublikasındakı Səfirliyinin dəstəyi ilə görkəmli şəxsiyyətin xatirəsinin əbədiləşdirilməsi məqsədilə həmin təhsil müəssisəsinin ərazisində 2019-cu il 24 aprel tarixində Y.Məmmədəliyevə həsr olunmuş barelyefin təntənəli açılışı mərasimi keçirilmişdir. Nazirliyin sifarişi əsasında çap olunmuş akademik Y. Məmmədəliyevin "Polşa alimlərinin dünyada neft kimyası elminin inkişafına verdiyi töhfə" adlı kitabçalar və akademikin həyat və yaradıcılığını əks etdirən bukletlər mərasim iştirakçılarına paylanmış, habelə xeyli sayda nəşr məhsulu və alimə həsr olunan filmin CD-ləri Akademiyanın kitabxanasına bağışlanmışdır.

25-30 aprel 2019-cu il tarixində Rusiya Federasiyasının Yekaterinburq şəhərində keçirilən "Yer ümumi evimizdir" adlı XVII Beynəlxalq Uşaq və Gənclərin Musiqi Yaradıcılığı Festivalında Mədəniyyət Nazirliyinin maliyyə və təşkilati dəstəyi ilə ölkəmizi Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin "Alov" folklor ansamblı təmsil etmişdir. Müsabiqənin nəticələrinə əsasən "Alov" folklor ansamblı folklor sənəti nominasiyasında beynəlxalq münsiflər heyətinin qərarı ilə birinci yerə layiq görülmüş və kollektivə diplom və kubok təqdim edilmişdir.

Mədəniyyət Nazirliyinin müvafiq əmrinə uyğun olaraq Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin nümayəndə heyəti 8-13 oktyabr 2019-cu il tarixlərində Bocskai İstvan İslahatlar Təhsil Mərkəzinin 20 illik yubileyi münasibətilə keçirilmiş tədbirdə iştirak etmişdir.

Hesabat ili ərzində Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi-Bərpa Mərkəzinə bərpa və konservasiya məqsədilə 403 ədəd əşya daxil olmuşdur. Ümumilikdə 651ədəd əşya bərpa prosesi keçmişdir ki, onlardan 504 ədədi (469 ədədi Mərkəzdə, 35 ədədi isə yerində bərpa olunub təhvil verilib) bərpa olunaraq muzeylərə qaytarılmış, 91 ədədi bərpa olunaraq mərkəzdə saxlanılmış, 56 ədədi isə bərpa prosesindədir. Beləliklə, mərkəz tərəfindən 39 ədəd - xalça və xalça məmulatları, 38 ədəd tikmə, parça və geyim, 63 ədəd–ağac, 96 ədəd-keramika, 154 ədəd-metal, 45 ədəd-boyaqkarlıq, 217 ədəd-qrafika nümunələri bərpa və konservasiya olunmuşdur. 300 ədəd əşyaya hazırda mərkəzdə xüsusi şəraitdə nəzarət olunur.

2019-cu ilin sentyabr ayında İCOM (Beynəlxalq Muzeylər Şurası)-un Yaponiyanın Kyoto şəhərində keçirilən 25-ci Baş Konfransında Muzey sərvətləri və xatirə əşyalarının Elmi-Bərpa Mərkəzinin direktoru Azərbaycanda bərpa işinin inkişafı tarixi" adlı məruzə və Mərkəzin fəaliyyətini əks etdirən təqdimat ilə çıxış etmişdir.

Prezident təqaüdçüsü Elvin Hoca Qəniyevə (violin) İsveçrənin Kalaidos Tətbiqi Elmlər Universitetində, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının artisti Murad Kərimova Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin A.Y.Vaqanova adına Rus Balet Akademiyasında, YARAT Müasir İncəsənət Məkanı Təhsil Departamentinin rəhbəri Səyyarə Hüseynliyə ABŞ-ın Tufts İncəsənət və Elm Universitetində, Məhər Məhərrəmovun S.Q.Stroqanov adına Moskva Dövlət Bədii-Sənaye Akademiyasında "Dekorativ-tətbiqi sənət

və xalq sənətləri (bədii şüşə) ixtisası üzrə magistr pilləsində təhsil almaları ilə bağlı nazirlik tərəfindən maddi və təşkilati dəstək göstərilmişdir. Bundan başqa Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Musiqişünas istiqamətinin bakalavriat və magistratura təhsil səviyyələrinin məzunu Cavad Əliyevin Moskva şəhərində yerləşən "Kvinta-2" fortepiano kökləyiciləri məktəbində təşkil olunmuş kurslarda, gənc pianoçu Ləman Seyidovanın Xorvatiyada keçirilmiş yay məktəbində iştirak etmələri üçün nazirliyin maliyyə dəstəyi göstərilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatı və maliyyə dəstəyi ilə 28 oktyabr tarixində Quşar şəhərində "Simurq" Mədəniyyət Assosiasiyası tərəfindən və "Dünya dəyərlərinin, humanizmin və insan həmrəyliyinin təsdiqi naminə mədəniyyətlərin, xalqların və sivilizasiyaların dialoqu" adlı Beynəlxalq konfrans təşkil olunmuşdur. Sözügedən konfransda həmçinin M.V.Lomonosov adına MDU-nin Qlobal problemlərin araşdırılması üzrə YUNESKO kafedrasının, Rusiya Prezidenti yanında Dövlət qulluğu və idarəçilik İnstitutunun (Rusiya, Moskva), "Avropa-Asiya" Beynəlxalq Humanitar Akademiyası və Dünya Mədəniyyəti İnstitutunun (Kazan), "Brahma Kumaris" Ümumdünya mənəvi universitetinin (Hindistan) nümayəndələri, digər yerli və xarici alim və mütəxəssislər də iştirak etmişlər.

2019-cu il 22-26 noyabr tarixdə Rusiya Federasiyasının Moskva vilayətində MDB-yə üzv dövlətlərin gəncləri arasında XIV Delfi Oyunları keçirilmişdir. Ölkəmiz bu tədbirdə üç nominasiya üzrə (fortepiano, skripka, akademik vokal) təmsil olunmuş və ölkəmizin nümayəndəsi fortepiano nominasiyasında 3-cü yerin qalibi olmuşdur.

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi cari il ərzində müxtəlif kateqoriyalar üzrə Bakı, Gəncə, Lənkəran şəhərlərində, habelə Şamaxı, Salyan, Sabirabad, Göyçay və Tovuz rayonlarında ixtisasartırma kursları, səyyar təlimlər və ustad dərsləri keçirmişdir. İxtisasartırma kurslarında 212 nəfər, səyyar təlimlər üzrə 127 nəfər, ustad dərsləri üzrə isə 111 nəfər olmaqla ümumilikdə 450 nəfər Mərkəz tərəfindən təşkil edilmiş kurslardan keçmişdir.